www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet   8 iyun  2015-ci il   Bazar ertəsi   № 123   (6151)  Qiymətі   40 qəpik

**Xəbər**

## Bakıda dəhşət: yük maşını avtobusla toqquşdu - 3 ölü...

yazısı səh.14-də

**Gündəm**

### AKP 4-cü dəfə parlament seçkilərini qazandı



Ana müxalifət yenə CHP oldu; MHP üçüncü yerini saxladı; PKK-nın siyasi qanadı HDP 10 faizlik barajı aşa bildi

yazısı səh.3-də

### Kürdə boğulan müsavatçı gəncin ilginc ölüm səbəbləri

yazısı səh.10-da

### "Gəncəbank"dan kredit alıb tələyə düşən daha bir iş adamı məhkəməyə üz tutdu

yazısı səh.6-da

### Hacıbala Abutalıbov "Yeni Müsavat"a danışdı

yazısı səh.12-də

*Ekspert:*

### "Rusiya-Qərb toqquşmasının müharibəyə çevrilmə ehtimalı var..."

yazısı səh.9-da

### Yanan binanın sakinlərinə kompensasiyalar tam verilməyib

yazısı səh.6-da

### "Şərurlu İsfəndiyar"dan şikayətçi olan Qarabağ veteranı imdad diləyir

yazısı səh.12-də

### Həmsədrlik "üçlük"dən "beşliyə" çevrilsə...

yazısı səh.11-də

### AXCP-dən qovulan şöbə müdirinin profili oğurlanıb

yazısı səh.2-də

### Heydər Əliyevin göstərişi ilə salınan park xarabalığa çevrilib

yazısı səh.13-də

### Uşağı məktəbə hazırlamaqla ali məktəbə hazırlamağın xərcləri eyniləşir

yazısı səh.15-də

**İlin əsas idman hadisəsi ətrafında əsəb savaşının gizli məqamları**

# AVROPA OYUNLARI VƏ BAKI-AVROPA SAVAŞI - PƏRDƏARXASI

Qərb Azərbaycandan siyasi dustaqların azadlığı və insan haqlarından daha artığını istəyir; baş tutmayan "ikinci erməni dövləti layihəsi" və Qərbin güclənən təhdidləri; Milli Şuranın şok separat mövqeyi -  Müsavat niyə təkləndi...




yazısı səh.8-də

# Üsyankar diplomat hakimiyyətə hücuma keçdi

Belçika Arif Məmmədova mühafizə ayırdı; **ekspert:** "Bu işin arxasında müəyyən qüvvələr dayanıb..."

yazısı səh.5-də



### Dini komitədən şeyxə Ramazan dəstəyi

yazısı səh.13-də



*Fəzail Ağamalı:*

### "Onlara "yox" deməli və yerlərini göstərməliyik"

yazısı səh.7-də



### Gülağa Aslanlı "mühacir biznesi" ittihamlarına cavab verdi

yazısı səh.9-da

**8 iyun 2015**

# AXCP-dən qovulan şöbə müdirinin profili oğurlanıb

## Sabiq partiya fəalı profilinin keçmiş əqidədaşları tərəfindən oğurlandığını iddia edir

## **Ağaşirin Tanrıverdioğlu:** "Bunları edən Əli Kərimlinin "zombi"ləridir"



**Mayın 25-də AXCP-dən qovulan Nərimanov təşkilatının sabiq şöbə müdiri Ağaşirin Tanrıverdioğlunun Facebook profili ələ keçirilib. Bu barədə müsavat.com-a A.Tanrıverdioğlunun özü məlumat verib.**

Sabiq partiya fəalı profilinin keçmiş əqidədaşları tərəfindən oğurlandığını iddia edir: "Feysbuk profilim iyunun 6-da axşam saatlarında oğurlanıb. Bundan sonra adıma olan profildən nə yazılsa, məlumat paylaşılsa, məsuliyyəti məndə deyil. Hesab edirəm ki, bunları edən Əli Kərimlinin "zombi"ləridir. Başqa heç kəsdən şübhələnmirəm. Bunlar azad fikir deyəni partiyadan çıxarırlar, azad fikir yazanın isə parolunu sındırırlar. AXCP-də Əli bəyin bir qrup adamı da parol sındırmaq işi ilə məşğuldur. Hər kəsə bir iş tapşırılıb. Biri üzvləri partiyadan çıxarır, digəri üzvlərin parolunu sındırır, başqa birisi parklarda diktofonla şəxsləri dinləyir, biri rayonlara gedərək üzvlərə deyir ki, gördünüz çıxarılanların aqibətini. Yəni Əli Kərimlinin işi bundan ibarətdir. Ona hakimiyyətə gəlmək lazım deyil. Partiyanı gündəmdə parol sındırmaq və üzvləri çıxarmaqla saxlayır. Parolu sındırılan şəxslərin işi araşdırılsa, altından Məmməd İbrahimin adı çıxacaq. Birbaşa şübhələndiyim şəxs odur. Onun işi budur. Gündə əlli oyundan çıxıb, yüz cür cildə girən adam odur. Yəqin ki, şikayətimi edəcəm. Üzə çıxanda, əminəm ki, daşın altından bir sürü cəbhəçi çıxacaq".

Xəbərdə adları çəkilən hər kəsin mövqeyini də verməyə hazırıq.

❑ Cavanşir ABBASLI

# Azay Quliyev: "Avropa Oyunları zirvə toplantısı deyil ki, bütün prezidentlər iştirak etsin"



**"I Avropa Yay Oyunlarının başlanmasına sayılı günlər qalıb. Hamı böyük maraqla bu möhtəşəm idman tədbirinin açılışını gözləyir. Bu da təbiidir. Qoca qitə tarixində ilk dəfə keçirdiyi və bir çoxlarının adlandırdığı "kontinental olimpiya oyunu"na ev sahibliyi etməyi cəmi 24 yaşı olan gənc, eyni zamanda kifayət qədər təcrübəli və özünə güvənən Azərbaycana etibar edib.**

Bundan qürur duymamaq və buna sevinməmək mümkün deyil. Fəxarət hissi ilə yanaşı, etiraf edək ki, məsuliyyətdən irəli gələn bir həyəcan və narahatlıq hissi də var". Bu açıqlamanı millət vəkili, QHT-lərə Dövlət Dəstəyi Şurasının rəhbəri Azay Quliyev verib. O daha sonra deyib: "Axı Azərbaycan adlı evimizə gələn on minlərlə qonağı yüksək səviyyədə qarşılayıb yola salmaq, onların təhlükəsizliyini təmin etmək, mümkün təxribatların qarşısını almaq və bir sözlə bütün təşkilati işləri yüksək səviyyədə qurmaq bizim üçün təkcə bir nüfuz məsələsi deyil, bu hər şeydən əvvəl milli kimliyimizin və dövlətçiliyimizin dünya ictimaiyyəti qarşısında təkrar təsdiqi və müdafiəsi məsələsidir. Məhz elə bu amilin nəticəsidir ki, biz bu gün Avropa Oyunlarının idman müstəvisindən tamamilə çıxardılaraq siyasi və geosiyasi haqq-hesab çəkmək müstəvisinə sürüklənməsi cəhdlərinin də şahidi oluruq. Hər keçən gün nifrət və qəzəb dolu anti-Azərbaycan kampaniyasının gücləndiyini və bu kampaniyaya yeni-yeni kəmfürsətlərin və bədxahların qoşulduğunu müşahidə edirik... Son günlər apardığım müşahidələr göstərir ki, bəzi jurnalist dostlarım məlumat yayarkən bir sıra həssaslığı nəzərə almırlar. Məsələn, məlumat yayıldı ki, Almaniyanın kansleri Merkel və Fransanın prezidenti Olland Avropa oyunlarını boykot edərək açılış mərasimində iştirak etməyəcək. Sual olunur: bu şəxslər nə zaman açılış mərasimində iştiraklarını təsdiq etmişdilər ki, sonra da ondan imtina etsinlər? Bir də bu dövlət və hökumət başçılarının zirvə toplantısı deyil ki, bütün prezidentlər və baş nazirlər iştirak etsin. Biz nəvaziş və protokol xatirinə hər kəsi dəvət edə bilərik. Kim istəyir iştirak etsin, kim istəyir etməsin. Bu onların öz işidir və bunun Avropa Oyunlarının gedişatına və möhtəşəmliyinə heç bir təsiri yoxdur. Ona görə də jurnalistlərimiz bunu kiminsə tədbiri boykot etməsi kimi təqdim edəndə gərək həm xəbərin doğruluğunu, həm də milli maraqlarımıza uyğunluğunu nəzərə alardı. Unutmamalıyıq ki, bu cür yanlış məlumatlardan ölkəmizə qarşı aparılan kampaniyada istifadə edənlər var və biz buna qətiyyən yol verməməliyik. Hamımız ölkəmizin bu imtahandan layiqincə çixması üçün məsuliyyət daşıyırıq və çalışaq ki, belə bir həssas dönəmdə kimlərisə sevindirməyək. Onsuz da dünyada bədxahlarımız az deyil"...

# Müsavatçı gənc 10-cu kalona köçürülüb

## Nemət Pənahlının oğlu ölkə çempionu olub; Rəsul Cəfərovun Apelyasiya Məhkəməsi qeyri-müəyyən vaxta təxirə salınıb...

**Həbsdəki müsavatçı gənc Sirac Kərimli iyunun 4-də 10 saylı cəzaçəkmə müəssisəsinə köçürülüb. Gənc fəalın hökmü ilə bağlı verilən apelyasiya şikayəti təmin olunmayıb.**



Bu barədə müsavat.com-a S.Kərimlinin atası Raqif Kərimli məlumat verib: "Siracı artıq 10-cu kalona apardılar. Gedəndən sonra bir dəfə telefonla danışıb. Qırmızı Xaç Komitəsi ilə danışdıq. Onlar görüş üçün icazə alıblar. Fərəclə bağlı heç bir yenilik yoxdur. Telefonla da danışmayıb".

Müsavat başqanının müavini Tofiq Yaqublu iyunun 7-də ailəsi ilə görüşüb. Başqan müavininin qızı Nigar Yaqublu heç bir yeniliyin olmadığını söylədi: "Atamla görüşdüm. Hər şey əvvəlki qaydadadır. Bütün siyasi məhbuslar Avropa Şurasının qətnaməsi ilə tanış olublar və dəstəkləyirlər".

Həbsdəki digər başqan müavini Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah onun apelyasiya şikayətinin yubadıldığını bildirdi: "Yaxınlarda ailəsi ilə görüşdü. Cəzasının yarısından azad olunması üçün etdiyimiz müraciət təmin olunmamışdı. Apelyasiya şikayəti versək də, üstündən xeyli müddət keçməsinə baxmayaraq, hələ də bir cavab deyilməyib. Şikayətin ört-basdır edilməsindən şübhələnirik. Telefon danışığında məsələnin çox uzandığını qeyd edir. Ona məlumat veriblər ki, şikayəti ilə bağlı 1 saylı Bakı İstintaq Təcridxanasına köçürüləcək. Amma onun adı şənbə günü köçürülənlər siyahısından çıxarılıb. Bundan çox narahatıq. Saxlanma şəraitindən şikayəti yoxdur. Amma 14 saylı cəzaçəkmə müəssisəsinin yaşayış durumu insan üçün ağırdır. Ürəyindəki problemlərlə bağlı mütəmadi olaraq, dərmanlar qəbul edir. Siyasi durumlarla daim maraqlanır. Proseslərdən kənarda qalmır".

Hüquq müdafiəçisi Rəsul Cəfərovun iyunun 12-də keçiriləcək Apelyasiya Məhkəməsi qeyri-müəyyən vaxta təxirə salınıb. Bu barədə onun vəkili Fariz Namazlı məlumat verdi: "Rəsul bəy protokollarla tanış olmaq üçün müraciət etmişdi. Onun qeydləri məhkəməyə təqdim olunmayıb. Buna görə məhkəmə də işi təzədən Ağır Cinayətlərə qaytardı. Məhkəmənin vaxtı bilinmir. Yəqin ki, yaxın bir ayda olacaq".

Vəkil jurnalist Xədicə İsmayıl haqqında da danışdı: "Hazırda istintaq gedir. Hər hansı bir yenilik yoxdur. Yaxın günlərdə görüşəcəyəm".

Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlının səhhətindəki problemlər davam edir. Onun həyat yoldaşı Həcər Pənahlı görüş gününün olduğunu söylədi: "Telefonla danışdıq. Oğlumuz ölkə çempionu olub. Onu xəbər etdim, çox sevindi. Hər şey əvvəlki kimidir. Təkadamlıq kamerada saxlanılır. Vəziyyəti normaldır. Səhhəti düzəlmir. Özünü saxlamağa çalışır. Özü deyir ki, səhhətimlə məşğul olmasam, sağ çıxa bilməyəcəm. Görüş vaxtıdır. Yaxın günlərdə gedəcəyik".

❑ Cavanşir ABBASLI

# İŞİD-in çeçen komandiri öldürüldü

**İraqın Bəyci şəhərində İŞİD-in çeçen komandiri zərərsizləşdirilib. Həşdi-Şabi döyüşçülərinin mətbuat katibi Kərim Nuri bəyan edib ki, İraq ordusu və könüllü briqadalarının Bəyci ərazisində İŞİD-lə döyüşlər zamanı terrorçuların çeçen milliyyətli mühüm komandiri öldürülüb.**

Axar.az yazır ki, öldürülən İŞİD komandirinin adı Əbu Şamil Əl-Şişanidir. Bundan əlavə, könüllü döyüşçülər İraq ordusu ilə birlikdə Bəyci ərazisini İŞİD terrorçularından tam azad etmək üzrədirlər. İŞİD-in Bəyci döyüşlərindən qaçan terrorçu yoldaşlarını edam etdiyi bildirilir.

Xatırladaq ki, çeçen əsilli Şişaninin öldüyü barədə dəfələrlə xəbərlər yayılıb.



# Bu gün Bakıda yağış gözlənilir

**Bu gün Bakıda və Abşeron yarımadasında gün ərzində havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, gündüz cənub küləyi əsəcək. Havanın temperaturu gecə 18-21° isti, gündüz 24-28° isti olacaq.

Dəniz suyunun temperaturunun Abşeron çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 19-20°, Zaqulba, Buzovna, Mərdəkan, Şüvəlanda 19-20°, Türkan, Hövsan, Şıx, Sahildə 20-21° isti olacağı ehtimal edilir.




# Qanuni oğru müğənni ilə evləndi

**Rusiya cinayət aləminin sayılıb-seçilən avtoritetlərindən olan Qiya Qalski məşhur "TaTu" qrupunun "qara" ləqəbli eks-solisti Yuliya ilə evlənib.**

Anspress-in "Praym Kraym"a istinadən verdiyi məlumata görə, 35 yaşlı Qeorgi Zarandiya populyar müğənni və aktrisa Yuliya Volkova ilə rəsmi nikaha girib. Cütlük neçə aydır birlikdə idi və münasibətlərini heç kimdən gizli saxlamırdı. Təzə bəyin dostlarının sözlərinə görə, Qiya ilə Yuliya artıq uşaq gözləyirlər.

Qeyd edək ki, Qiya Zarandiya vaxtilə cinayət aləmində öz ad-sanları ilə seçilən məşhur Kardayev qardaşlarının az sayda qalmış silahdaşlarındandır.

# "Traktur"un rəhbərindən Tehrana xəbərdarlıq

**Təbrizin "Traxtur" futbol komandası ilə Tehranın "Neft" takımı arasında keçirilən qalmaqallı futbol oyunu hələ də ciddi mübahisə mövzusudur. Hər kəs bu fikirdədir ki, Futbol Federasiyası tərəfindən "Traxtur"un baş məşqçisi və oyunçularına ötürülən yalan məlumat və hakim Əliirza Fəğaninin komandamıza qarşı qərəzli qərarları bu komandanı çempionluqdan məhrum edib.**

Həmin gündən bəri Azərbaycan əhalisi ilə yanaşı, bir çox yerli məsul və millət vəkilləri də bu vəziyyətə etiraz edib və baş verən hadisələrin araşdırılması və qanunu pozanların cəzalandırılmasını istəyiblər, lakin bu günə qədər heç bir nəticə əldə olunmayıb, göndərilən sorğulara cavab verilməyib.

Bunun bağlı "Traktur"un rəhbərliyi Tehrana xəbərdarlıq göndərilib.

❑ Cavid TURAN

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 123 (6151) 8 iyun 2015

# AKP 4-cü dəfə parlament seçkilərini qazandı

## Ana müxalifət yenə CHP oldu; MHP üçüncü yerini saxladı; PKK-nın siyasi qanadı HDP 10 faizlik barajı aşa bildi; Türkiyədəki 7 iyun seçkiləri ölkənin prezident üsul-idarəsinə keçidinə “yaşıl işıq” yandıra bilər...

**İyunun 7-də Türkiyədə növbəti parlament seçkiləri keçirilib. İlkin açıqlamalara görə, səsvermə hüququ olan 53 milyon 765 min 231 seçicidən 70 faizə yaxını səsvermə hüququndan istifadə edib. Türkiyə Böyük Millət Məclisinin yeni heyətinə 20 siyasi partiya və 165 müstəqil namizəd iddialı olub. Bu seçki Türkiyənin yaxın gələcəyini müəyyən edəcək seçki kimi qiymətləndirilir. Nəticələr həm yeni hökumətin tərkibini, həm də AKP-nin çalışdığı konstitusiya dəyişikliklərinin taleyini müəyyən edəcək.**




Mərkəzi Seçki Qurumunun ilkin açıqlamalarına görə hakim AKP son 13 ildəki bütün seçkilərdə olduğu kimi bu dəfə də üstünlüyünü saxlayıb və 4-cü dəfə parlament seçkilərini qazanıb. İlkin hesablamalara görə, seçicilərin təxminən 40 faizi (43) hakim partiyanı dəstəkləyib. Digər partiyaların nəticələri də gözlənildiyi kimi olub. İkinci yer Cümhuriyyət Xalq Partiyasının (CHP - 24), üçüncü yer isə milliyyətçilərinin siyasi qurumu Milliyyətçi Hərəkat Partiyasınındır (MHP - 18). Seçkilərdə 10 faizlik həddi aşıb parlamentə daxil olmaq istəyən PKK-nın siyasi qanadı HDP öz hədəfinə çatıb - 10,6%.

*****

Səhər saat 8.00-dan başlayan seçki 17.00-da başa çatıb. Seçici fəallığı bu dəfə də yüksək olub. Müşahidəçilərin sözlərinə görə, seçki başlamamışdan məntəqələrin qarşısında seçicilərin növbəsi yaranıb.

Prezident qismində ilk dəfə seçkiyə qatılan Rəcəb Tayyib Ərdoğan səsvermə hüququndan İstanbulda istifadə edib. Prezident seçki görəvlilərinə şəxsiyyət vəsiqəsini yox, qara rəngli diplomatik pasportunu təqdim edib. Prezident seçki açıqlamasında bütün namizədlərə uğurlar diləyib: “Allahdan bu seçkinin ölkəmiz, millətimiz üçün xeyirli olmasını təmənna edirəm. Bütün siyasi partiyalar çox uzun və gərgin bir yol seçdilər. Türkiyə alışmadığı bir sürəcdən keçir. Bu seçkinin də ölkəmizə sabitlik və təhlükəsizlik gətirəcəyinə inanıram. Aldığım bilgiyə görə, seçici fəallığı çox yüksəkdir. Bu da güclü bir demokratiya üçün önəmli bir işarədir. Bu güclü demokratiyanı millətimizin iradəsi ilə quracaq, gələcək təhlükəsizliyimizi təmin edəcəyik. Mən millətimizə təşəkkür edirəm. Heç bir sıxıntı olmadan seçki keçirə bildi. Bu gün seçki məntəqələrində çalışan hər kəsə də ayrı-ayrılıqda təşəkkürümü çatdırıram. Millətin aydın gələcəyini birlikdə görəcəyimizə inanıram”.

### Əhməd Davudoğlu: “Demirtaş zəngimə cavab vermədi...”

“Hər şey ölkəmiz üçün, xalqımız üçün, çevrədəki könül coğrafiyamız üçün. Xeyirli olmasını diləyirəm”. Bu sözləri Türkiyənin baş naziri Əhməd Davudoğlu bu gün Türkiyədə keçirilən seçkidə səs verdikdən sonrakı ilk açıqlamasında deyib. Baş nazir Konyada səs verib.

Ə.Davudoğlu seçki kampaniyasında yüksək vətəndaşlıq mövqeyi göstərən şəxslərə təşəkkür edib: “Seçki kampaniyası zamanı böyük fəallıq edən hər kəsi təbrik edirəm. Bu gün seçkiyə gedib səs vermək hər kəsin vətəndaşlıq vəzifəsidir. İndiyə qədər səsvermənin gedişində heç bir problem yaşanmayıb. Hər kəsin gülümsəyərək, salamlaşaraq, fərqli fikrə saygı duyaraq hərəkət edəcəyinə inanıram. Xoşgörü çağırışları ilə Türkiyənin gözəl bir seçim günü yaşayacağına əminəm”.

Baş nazir eyni zamanda hakim AKP sədri Əhməd Davudoğluna bir neçə gün öncə PKK-nın siyasi qanadı hesab edilən HDP-nin Diyarbəkir mitinqində baş verən partlayış haqqında da sual verilib. Davudoğlu hökumətin bu terroru qınadığını deyib: “Xəbəri alan kimi HDP həmsədri Selaheddin Demirtaşa zəng etdim. Hər halda çox məşğul olduğu üçün zəngimə cavab vermədi və sonra da mənə zəng etmədi. Biz vəzifəmizi yerinə yetirdik. Baş nazir olaraq da vəzifəmiz Türkiyədə seçim sürəcində baş verə biləcək problemlərin qarşısını almaqdır. Seçki kampaniyasında bir partiyaya edilən basqını demokratiyaya təcavüz kimi qiymətləndirirəm. Vətəndaşlarımız tərəddüd etmədən səsverməyə getsin, heç bir qorxuları olmasın. Dünən Diyarbəki olayları ilə bağlı bir nəfər saxlanıb. Həmin şəxsin bütün keçmişi araşdırılır. Gərəkli tədbirlər görülür, terroru törədənlər tapılıb cəzalandırılacaq”.

*****

Səsvermə günü seçki məntəqəsinə ilk gələn müxalifət lideri MHP sədri Devlet Bahçeli olub. MHP lideri səhər saatlarında Ankarada səs verib. “Radikal” qəzeti yazır ki, səhər saatlarında MHP-nin Balqatdakı baş qərargahına gələn Dövlət Bahçeli az sonra tərəfdarları ilə binanı tərk edərək səs verəcəyi məntəqəyə gəlib. Səsvermə hüququndan istifadə etdiksən sonra D.Bahçeli jurnalistlərə qısa açıqlama verib: “Allahdan seçkinin prosesə qatılan 20 siyasi partiyaya, onların dəyərli namizədlərinə, 165 müstəqil namizədə xeyirli-uğurlu olmasını niyaz edirəm. Seçkinin millətimizə xeyirli sonuclar verəcəyinə inanıram”.

Dövlət Bahçeli jurnalistlərin suallarını cavabsız qoyaraq yenidən partiya qərargahına dönüb. MHP-dən bildirilib ki, partiya sədri axşam saatlarında qəzetçilərə brifinq verəcək.

*****





Ana müxalifət lideri Kemal Kılıçdaroğlunun seçki məntəqəsindəki çıxışı da qısa olub. Səsvermə hüququndan Ankarada istifadə edən və seçkiyə ailə üzvləri ilə gələn Kılıçdaroğlu vətəndaşlara bütün seçki prosesində aktiv iştirak etdikləri üçün təşəkkür edib. Kılıçdaroğlu vətəndaşların öz səslərinə sahib çıxacağına əmin olduğunu deyib.

Türkiyə mediası 7 iyun parlament seçkisinin ilk saatlarında bir sıra qanun pozuntularının aşkarlandığını xəbər verir. Belə ki, səhər saatlarında Şanlıurfadakı seçki məntəqəsində çəkilən bir foto sosial mediada geniş müzakirə edilməkdədir. Şəkildə bir nəfərin PKK-nın siyasi qanadı olan HDP-nin lehinə möhürlənən onlarla bülleteni seçki qutusuna atdığı aydın görünür.

Şəkil sosial mediada paylaşıldıqdan sonra Mərkəzi Seçki Qurumu həmin seçki məntəqəsi ilə bağlı hüquqi işlərə başlayıb. Yerli media yazır ki, bir nəfərin bir neçə nəfərin yerinə səs verməsi və “karusel” ölkənin bir çox bölgəsində yaşanmaqdadır. Güney-doğu bölgəsindəki məntəqələrdə HDP-li olmayan müşahidəçilərə basqı və təhdid faktları qeydə alınıb. Onlardan bəziləri döyülərək məntəqələrdən uzaqlaşdırılıb.

Gözlənməyən bir durum İstanbuldakı seçki məntəqələrindən birində yaşanıb. Seçicilərdən biri seçki möhürünü yanlışlıqla cibinə qoyaraq məntəqədən ayrılıb və bundan 2 saat sonra xəbər tutub. Bu müddətdə seçki məntəqəsində çalışanlar möhürün nəticəsiz axtarışlarını davam etdiriblər. Bu arada məntəqəyə gələnlər səs verə bilməyiblər. Türkiyədə seçicilərə səsvermə bülletenləri ilə bərabər “Evet” yazılan möhür verilir. Seçici möhürü səs verəcəyi partiyanın, namizədin adının qarşısındakı dairəyə vurur. “Evet” möhürü səsvermə kabinəsindən çıxandan sonra seçki məntəqəsi görəvlilərinə təqdim edilməlidir. Seçki ekspertləri bildirir ki, olay məntəqə çalışanlarının diqqətsizliyi üzündən baş verib. Seçici unutsa belə, onlar möhürü tələb etməli idilər.

İstanbulda bələdiyyə sədrinin ailə üzvlərinin adı “karusel”də hallanıb. Seçki müşahidəçiləri müəyyən ediblər ki, Gemlik bələdiyyəsi sədri Süleyman Karturun oğlu səsverməyə ikinci dəfə qatılmaq istəyib. Gemlik bələdiyyəsinin sədri AKP-lidir.

İstanbuldakı daha bir seçki saxtakarlığı Mahmur Efendi məktəbindəki məntəqədə yaşanıb. Seçicilədən biri səsvermə qutusuna 10 bülleten atmaq istəyərkən müşahidəçilərin manеəsi ilə üzləşib.

MHP və CHP millət vəkilləri sosial mediadakı səhifələrində İstanbuldakı seçki məntəqələrinin yaxınlığında çox sayda dövlət nömrə nişanı olmayan avtomobillər olduğunu yazıb. Millət vəkilləri nömrəsiz maşınlardan karusel əməliyyatında istifadə ediləcəyi şikayəti ilə yerli daxili işlər orqanlarına, İstanbul valisinə rəsmi müraciət göndəriblər.

### Türkiyə güney-doğuya seçki bülletenlərini havadan “endirir”

Türkiyənin PKK-nın təsiri altında olan güney-doğu bölgəsində səsvermə günü təhlükəsizlik tədbirləri gücləndirilib. Radfikal. com yazır ki, bəzi kəndlərə səsvermə bülletenləri təhlükəsizlik məqsədi ilə quru yolu ilə deyil, helokopterlərlə aparılıb.

Səhər saatlarında Diyarbekir Jandarmasının həyata keçirdiyi əməliyyatda Lice, Hani, Dicle kəndlərinə, Topçular, Yoluşlu qəsəbələrinə bülletenlər və müşahidəçilər hava yolu ilə gətirilib.

Bölgədən verilən xəbərlərə görə, səsvermə bitdikdən və səslərin sayılması başa çatdıqdan sonra seçki görəvlilər və protokollar mərkəzə yenidən helikopterlərlə aparılacaq.

Güney-doğudan gün boyu həyəcanlı xəbərlər gəlməkdə davam edib. Müşahidəçilərin yerli mediaya verdiyi xəbərlərə görə, bir sıra məntəqələrdə süni qarşıdurma yaradılıb, gərginlik seçki məntəqəsi rəhbərliyinin çağırdığı polis və jandarm qüvvələrinin müdaxiləsi ilə yatırılıb.

### Ərzurumda bəy-gəlindən vətəndaş mövqeyi

Ərzurumda Figen və Numan Şenollar bu gün keçirilən toy mərasimlərinə birlikdə seçki məntəqəsinə gəlib səs verməklə başlayıblar. Toy karteji toy salonundan öncə Palandökən qəsəbəsindəki seçki məntəqəsinə gəlib. Məntəqədə yeni evliləri alqışlarla qarşılayıblar. Figen Şenol deyib ki, valideynlərinin toyu da seçki günü olub: “Anamla atam da evləndikləri gün vətəndaşlıq borclarını yerinə yetiriblər. Biz də bu gələnəyi davam etdirməyi qərara aldıq. Türkiyədə istiqrarın qazanmasını, seçkiləri ölkəmizə xeyirli olmasını diləyirik”.

Şenollardan sonra gün boyu seçki günü ailə quran onlarla cütlük səsverməyə qatılıb. “Seçkili toy” şəkilləri media və sosial şəbəkələr üzərindən yayılıb.

Yerli media orqanları “seçki görüntüləri”, “seçki mənzərələri” başlığı altında 7 iyun seçkisi ilə bağlı ilginc fotolar yayıb. Yaşlı, xəstə, hərəkət imkanları məhdud, südəmər körpələri olan insanlar belə seçkidə yüksək fəallıq göstərib.

Türkiyə Yüksək Seçki Qurumu seçkinin nəticələrini rəsmən 2 gün sonra elan edəcək.

***P.S.** Yazıdakı rəqəmlər (faizlər) qəzet çapa gedərkən bəlli olmuş ilkin göstəricilərdir.*

**Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 123 (6151) 8 iyun 2015



# Azərbaycanın başı üstündəki müəmma

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Bu qədər hadisələrin eyni zamanda üst-üstə düşməsi yalnız ciddi hesablamalar və razılaşdırmalar şəraitində mümkün olardı. Avropada ilk olan yarışlara ev sahibliyi edən ölkənin adı ilə bağlı daha nələr baş vermir. Bənzə təzyiqlər həmişə olub, elə "Avrovision"dakı ev sahibliyimizdə də. Ancaq beləsini görməmişdik. Budəfəki qarşıdurma zarafata, razılaşdırılmış oyuna bənzəmir...**

Bəlkə də hakimiyyət müəyyən addımlar atmaqla, bəzi çağırışlara uyğun qərarlar verməklə situasiyanı yumşalda bilərdi. Ancaq gedilmədi və budur, Avropa Oyunları tədarükü görən ev sahibinin başını elə Avropa dairələri qatmaqdadır.

Məhz bu ərəfədə ATƏT özünün Bakıdakı layihə əlaqələndiricisi Aleksis Şahtaxtinskini missiyasını dayandırdı - özü də Azərbaycan prezidenti ilə şəkil çəkdirdiyi üçün. Görün hansı vəziyyət yaranıb ki, təkcə müxalifət liderləri ilə deyil, Azərbaycanın dövlət başçısı ilə də foto çəkdirməyin sözü-söhbəti dövlətlərarası, təşkilatlararası müzakirə predmetinə çevrilir.

Düzdür, rəsmi Bakı da Şahtaxtinski soyunun daşıyıcısına göstərilən etimadsızlığa borclu qalmadı. A.Şahtaxtinskinin prezident səviyyəsində hörmətlə qəbulu, foto və videoçəkilişlərin sayının artması bir yana, üstəlik, XİN ATƏT-in Bakı Ofisinin bağlanması barədə qurumun Vyanadakı baş ofisinə nota verdi.

ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu Azərbaycandakı seçkilərlə bağlı ən sərt hesabatlar yayanda belə, Bakı indiki kimi kəskin reaksiya vermirdi, məsələ beynəlxalq təşkilatın qapılarının möhürlənməsi səviyyəsinə çatmırdı. Düzdür, indiyədək bir sıra insan haqları təşkilatları və təsisatlarının fəaliyyətinə xitam verilib, hətta 2 il bundan əvvəl hakimiyyət ATƏT-in Bakıdakı nümayəndəliyinin statusu layihələr koordinatorluğu səviyyəsinə endirmişdi. Ancaq rəsmi Bakı ATƏT-ə "papağını da götür, get burdan" deməmişdi. ATƏT-in Minsk Qrupu artıq 23 ildir Qarabağ konflikti ətrafında oyunbazlıq edib, Bakı dözüb...

Avropa Parlamentinin məhz boykot çağırışı gözlənilən idi, körpülər çoxdan yandırılıb. ATƏT-lə bağlı isə bunu demək mümkün deyil. Nə baş verir, sualına hələ ki, cavab yoxdur...

Üstəlik, Yunanıstan prezidenti Pavlopulos Bakıdakı oyunlarda iştirak etmək qərarını dəyişib. Digər adlar da çəkilir. Özü də Bakıdakı yunan səfir 21 mayda - Riqa sammiti keçirilən gün - Yunanıstan XİN-ə göndərdiyi məlumatda iddia edib ki, I Avropa Oyunlarının açılışında heç bir dövlət və hökumət başçısı iştirak etməyəcək. Təsadüfdürmü..?

Yunanıstanın DESFA şirkətinin səhmlərinin SOCAR-a satılması barədə müqavilənin son anda pozulması faktı ortada. Ancaq nə olsun? Hətta işğalçı Ermənistan Bakıda keçiriləcək oyunlara idmançı göndərməyə qərar verdiyi, yarışların yayımına hazırlaşdığı halda "Olimpiada beşiyi" Yunanıstanın belə bir qərar verməsi heç gözlənilən deyil.

Bu arada baş verən daha bir gözlənilməz hadisə İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Avropa İttifaqı yanında daimi müşahidəçi missiyasının rəhbəri Arif Məmmədovla bağlıdır. Diplomatın Azərbaycan reallığında heç vaxt rast gəlinməyən şəkildə açıq-aydın müxalif mövqedən çıxış etməsi, hətta xalqın ayıldığı barədə fikirlərini sosial media ilə yayması çox təəccüblü oldu. Necə oldu ki, Azərbaycanın başı özünə qarışmış müxalifəti xalqın ayıldığını görə bilmədi, amma Azərbaycanda üç gündən artıq yaşaya bilməyən diplomat bu barədə əminliklə yazdı, müxtəlif ünvanlara çağırışlar etdi?

Nə baş verir, sualı yenə cavabsızdır. Olmaya Azərbaycanı Prezident Administrasiyasının şöbə müdiri Novruz Məmmədov demişkən, Suriyaya, Liviyaya döndərmək istəyirlər və o plan işə salınıb? Allah eləməmiş bəlkə lokal yanğın hadisələri həm də bu faciələrin xəbərdarlığı, anonsudur? Bəlkə Qərb bizi Rusiyaya satıb, xəbərimiz yox... Bəlkə onun tələblərini saya salmadıq, Riqa sammitində asosiativ sənədi imzalamadıq deyə, bizdən qisas almaq yolunu seçib...

Avropa ilə Bakı arasında gərginlik pik həddə çatıb və şimal qonşumuzdan mesajlar gəlir. Kremlin "danışan dil"i Aleksandr Duqin Azərbaycanı Avrasiya Birliyinə üzv olmağa çağırıb, "Ardıcıllıq belə olmalıdır - öncə Avrasiya Birliyinə üzv olmaq lazımdır ki, Qarabağ məsələsi çözülsün"-deyərək. Bəli, Azərbaycan uğrunda savaş gedir, bütün baş verənlər bundan qaynaqlanır. Ancaq ən pisi odur ki, nə bu illərdə ATƏT Azərbaycanın yanında oldu, nə də elə bir imperiya tərkibində olduğumuz zamanda Qarabağa od vurub bizi oda salan Rusiya...

# Avropa Oyunları ərəfəsində əfv ümidləri qalır

**"Qurtuluş günü"nə sayılı günlər qaldı. Bu günün özəlliyini artıran əsas səbəblərdən biri may ayında böyük ümidlərlə gözlənilən, lakin sonda verilməyən əfv sərəncamıdır. Çoxları Avropa Oyunları ərəfəsində "Qurtuluş günü" ilə bağlı əfvin veriləcəyinə ümid edir.**

İnsan Haqları üzrə Birgə İşçi Qrupu bir ay öncədən işlərini yekunlaşdıraraq, əfv siyahısını Əfv Komissiyasına təqdim edib.

Qurumun üzvü, hüquq müdafiəçisi Arzu Abdullayeva "Qurtuluş günü" ilə bağlı ümidlidir: "Böyük ümidimiz var. Amma qərar bizlik deyil. Ölkə başçısı və komandasından bir-iki nəfər bu işə baxır və qərar verir. Həmişə olduğu kimi, gözləntilərimiz var. Müraciətlərimiz davam edir. Avropa Parlamenti sədrinin müraciəti oldu. Xarici təşkilatlar müraciətlərində bildirirlər ki, Azərbaycan Avropa Oyunlarına başıuca getməlidir. Tələb yox, tövsiyə edirlər. Gözləyək görək, necə cavab veriləcək. Məncə, düzgün hərəkət deyil. Çünki Azərbaycanın adını Avropa Oyunları ilə məşhurlaşdırırıqsa, ölkəmiz üçün müsbət haldırsa, o biri tərəfdən əsas azadlıqlar təmin edilmirsə, hüquq müdafiəçiləri təqib olunursa, mürtəce qanunun olması çox pis amillərdir. Siyasi məhbuslar azad olunmalıdır. Bu oyunlar yaddaşlarda müsbət xarakterizə olunmalıdır. Verilən əfv zamanından asılı olmayaraq, müsbət addımdır. Təki belə bir qərar olsun. Hakimiyyət kimisə siyasi məhbus kimi qəbul etməyə bilər, təki azad etsin həmin şəxsləri. Bizə əsas bu lazımdır".



**Arzu Abdullayeva:** "Avropa Oyunlarına başıuca getməliyik"



**Mirvari Qəhrəmanlı:** "Əfv olacağına inanmıram"

İşçi Qrupunun digər üzvü Mirvari Qəhrəmanlı həmkarından fərqli olaraq, "Qurtuluş günü"ndə əfv olacağına inanmır: "Hakimiyyət heç demir ki, siyasi məhbusları əfv edirəm. Əgər desəydilər, əfv siyahısında 20% siyasi məhbus olardı. Əfv olacağına inanmıram. Bəlkə Ramazan bayramında əfv oldu. Heç bir gözləntim yoxdur. Kiminsə adından söz vermək istəmirəm. Bütün məhbus ailələrinin, ictimaiyyətin qarşısında söz vermək ağır məsuliyyətdir. Elə bir səlahiyyətim yoxdur ki, ictimaiyyəti aldadım. Mənim üçün imic böyük önəm kəsb edir. İstəmirəm ki, dostlarımın, cəmiyyətin qarşısında biabır olum. Onsuz da təkcə məhbus ailələri narahat deyil. Hər kəs narahatdır. Onların narahatçılığını başa düşmək lazımdır. Çox utanıram. Səlahiyyətim olmayan bir şeyi üzərimə götürə bilmərəm. Kiminsə qəlbini qırmaq, kimdəsə ümid yaratmaq olmaz. Açığı yaxınlarda əfv olacağını gözləmirəm. İşçi Qrupunun səlahiyyətində əfvetmə yoxdur. Əfv Komissiyasında İşçi Qrupundan üzvlər olsaydı, nəsə bir söz söyləmək idi".

❑ Cavanşir ABBASLI

# ATƏT Bakıdakı son dayağını itirdi

## Koordinatorluğunun fəaliyyətinin dayandırılması təşkilat sədrinin Bakıya səfərindən dərhal sonraya təsadüf edir...

**Rəsmi Bakı ilə Qərb arasında münasibətlərin soyuqlaşdığını ortaya qoyan daha bir hadisə baş verib. Azərbaycan hökuməti ATƏT-in Bakıdakı Layihələr Koordinatorunun fəaliyyətinin dayandırılması barədə qərar verib.**

Artıq bu barədə müvafiq məktub iyunun 3-də Azərbaycan Xarici İşlər Nazirliyindən ATƏT-in Vyanadakı baş ofisinə göndərilib. Bu barədə "Turan" agentliyi diplomatik mənbələrə istinadən xəbər yayıb.




"Azərbaycan hökuməti qeyd edir ki, artıq ATƏT-in Layihələr Koordinatorunun Bakıda fəaliyyəti üçün zərurət görmür. Buna görə Azərbaycan hökuməti 2015-ci il iyunun 4-dən etibarən Azərbaycan hökuməti və ATƏT arasında 24 sentyabr 2014-cü ildə bağlanmış "ATƏT-in Bakıda Layihələr Koordinatoru haqqında qarşılıqlı anlaşma Memorandumu"nu qüvvədən düşmüş hesab edir. Hökumət bu halda yaranan texniki məsələlərin həlli üçün ATƏT-ə bir ay müddət verir", - deyə məktubda bildirilir.

Xəbərdə sonra deyilir ki, iyunun 5-də ATƏT-in Baş Katibi Lamberto Zannier ATƏT-in üzvü olan ölkələrə rəsmi Bakının qərarı haqqında məlumat verib.

Azərbaycan XİN-dən və ya digər qurumlardan hələlik heç bir şərh daxil olmayıb. Dünən istirahət günü olduğundan XİN-dən rəsmi açıqlama almaq mümkün olmayıb.

Qeyd edək ki, iki il əvvəl ATƏT-in Bakı nümayəndəliyinin səviyyəsi səfirlik səviyyəsindən ATƏT-in layihələr koordinatoru səviyyəsinə qədər azaldıb. Bəzi ekspertlərin fikrincə, hazırkı kəskin addım, çox güman ki, Bakının ATƏT-də Azərbaycanda vətəndaş cəmiyyətinin problemlərinə məhəl qoymamaqda və ölkə rəhbərliyi ilə çox yaxın əlaqələrdə ittiham olunan hazırkı koordinator Aleksis Şahtaxtinskinin geri çağırılmasına reaksiyası olub. Bununla Bakı göstərib ki, başqa nümayəndəni də o qəbul etmir. Məlum olduğu kimi, Şahtaxtinskinin fəaliyyəti məhz Amerikanın ATƏT-dəki nümayəndəsi tərəfindən kəskin tənqidə məruz qalmışdı və bundan sonra o, geri çağırılmışdı.

Azərbaycan hökumətinin ATƏT-in layihə koordinatorluğunu qapatmaq qərarının nəticələrinin necə olacağı, ATƏT-in reaksiyasının necə olacağı barədə ekspertlər fikir yürütməkdə çətinlik çəksələr də, bu addımın Qərblə münasibətlərdəki çatı bir qədər də dərinləşdirəcəyini əminliklə söyləyirlər. Çünki bu addımla ATƏT faktiki olaraq Azərbaycandan çıxarılmış sayılır.

Daha bir maraqlı məqam XİN-dən ATƏT-in Bakıdakı Layihələr Koordinatorunun fəaliyyətinin dayandırılması barədə məktubun ATƏT-in fəaliyyətdə olan sədri, Serbiyanın xarici işlər naziri İvitsa Daçiçin Bakıya səfər etməsindən bir neçə gün sonra göndərilməsidir. Daçiç Bakıdan iyunun 2-də gedib. Bir gün sonra isə XİN məlum məktubu göndərib. Siyasi təhlilçilərin fikrincə, bu, ATƏT sədri ilə bir sıra məsələlərdə anlaşma əldə olunmadığının göstəricisi sayıla bilər.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 123 (6151) 8 iyun 2015

Arif Məmmədov



# Üsyankar diplomat hakimiyyətə açıq hücuma keçdi

## Belçika Arif Məmmədova mühafizə ayırdı; **ekspert:** "Bu işin arxasında müəyyən qüvvələr dayanıb..."

**Uzun illər Azərbaycanın Avropa Şurası, ardınca da Avropa İttifaqındakı səfiri olmuş, hazırda isə İslam Konfransı Təşkilatının Avropa Birliyindəki missiyasına rəhbərlik edən Arif Məmmədovun Bakıdakı yanğından sonra məmurları tənqid etməsindən sonra başlanan qalmaqal davam edir.**

### Arif Məmmədov: "Şərəfimə and olsun ki, Azərbaycan xalqı ədaləti bərpa edəcək və bunu çox gözləmək lazım gəlməyəcək"

İki gün öncə Arif Məmmədovun Azərbaycan hökumətinin təzyiqlərindən qorunmaq üçün Norveç dövlətindən siyasi sığınacaq almaq üçün Norveçin ölkəmizdəki keçmiş səfiri Steynar Gilə məktub göndərdiyi barədə xəbərlər yayılıb. Dünən isə Arif Məmmədov bu barədə yayılan xəbəri təkzib edib. O, facebook səhifəsində Azərbaycan Xarici İşlər Nazirliyində bir neçə nəfərin ona görə işdən çıxarılmasına da münasibət bildirib. Səfir Azərbaycan xalqına müraciətində Belçika dövlətinin onu mühafizə etmək üçün hərəkətə keçdiyini bildirib: "Əziz dostlar, bacı və qardaşlar, uca Azərbaycan xalqı! Ölkənin ən yaxşı diplomatlarının "ovuna" başlanmasından olduqca təəccüblənmişəm və hiddətlənmişəm. Repressiyalar əmri ölkənin repressiv fabrikindən gəlib. Bu hakimiyyətə Eynulla Fətullayev və onun kimilər lazımdır. Bakıdakı yanğında ölənlərin ailələrinə yazdığım başsağlığı sözlərimi "layk" etdiyinə görə ölkənin ən yaxşı diplomatlarını işdən azad etmək heç bir anlayışa sığmır. Diplomatları alçaldıcı bəyanatlar yazmağa məcbur edirlər. Bəziləri bunu SSRİ-də 30-cu illərin sonlarındakı repressiyalarla müqayisə edirlər. Beləsi nə 30-cu, nə 40-cı, nə də inkvizisiya illərində olub.

XİN sistemində 20 ildən artıq işləmişəm. Bu nazirlikdə uzun illərdi dünyada ölkənin maraqlarını müdafiə edən xeyli vicdanlı və təmiz insan var. Dünən məzuniyyətdən sonra Belçikaya qayıtmışam və Belçika XİN-in, Avropa institutlarının artıq bu biabırçılıqdan xəbərdar olduğunu bilib, şoka düşmüşəm. Mənə rəsmən müraciət edərək özümə və ailəmə mühafizə ayırmaq təklif edilib. İmtina etmişəm, lakin Belçika XİN-i təkid edir. Bəzi KİV-lər Norveçdə siyasi sığınacaq axtardığım barədə məlumat yayıb. Bunu görməyəcəksiniz. Böyük xalqıma qarşı cəhalətpərəstlik və ədalətsizliklə mübarizə əzmim sonsuzdur. Azərbaycan XİN-in zərər çəkmiş diplomatlarına müraciət edirəm! Şərəfimə and olsun ki, Azərbaycan xalqı ədaləti bərpa edəcək və siz bu dövlətdə yüksək mövqelər tutacaqsınız. Bunu çox gözləmək lazım gəlməyəcək".

Qeyd edək ki, Arif Məmmədovun Norveçə getməsi xəbərinin yayılmasına səbəb bu ölkənin Bakıdakı sabiq səfiri Steynar Gilin özünün facebook profilində paylaşdığı bir status olub. Həmin statusun tərcüməsi belədir: "Səfir Arif Məmmədov məndən bunu paylaşmamı xahiş etdi: "Əziz Steiner Gil, bunu paylaşmanızı xahiş edirəm. Mən 29.06 tarixdən 10.07 tarixə qədər Norveçdə səfərdə olacam. İnsanlar oyanıb. Azərbaycanın bütün gerçək dostlarının yardımına ehtiyacım var. Güman edirəm ki, sizinlə də görüşəcəm. Avropa mediası da mənə dəstək verməlidir. Bir xeyli SOS məlumatım var".

Buna əsasən belə bir fikir yaranmışdı ki, üsyan bayrağı qaldıran və buna görə də hədəfə gələn səfir artıq Norveçə siyasi sığınacaq üçün yollanır. Ancaq göründüyü kimi özü bunu təkzib edir.



**Hikmət Hacıyev:** "Arif Məmmədov kimisinin adımızdan danışmağa heç bir haqqı yoxdur"

Xatırladaq ki, bəzi hakimiyyət təmsilçiləri və iqtidara yaxın mətbuat Arif Məmmmədov haqqında sərt ifadələr işlətməklə onu dövlətə xəyanətdə ittiham edir. Buna səbəb Arif Məmmədovun öz facebook səhifəsində Binəqədidə yanan bina ilə bağlı sərt çıxışı və belə bir status paylaşması olub: "Bu faciə hər bir azərbaycanlının kədəri və faciəsidir. Allah xalqımıza səbri qalıbsa, səbir versin. Heç bir xalq bu qədər haqsızlığa və biabırçılığa dözməz. Xalqın zülmündən milyonlar əldə edən məmurlar çox səbirli xalqımızın qəzəbindən qorxmurlarsa, Allahın qəzəbindən qorxsunlar".

Azərbaycan XİN əməkdaşları Cavid Musayev, Ramiz Vəliyev, Anar Mədətli, Fərəh Gözəlova və Hikmət Hacıyev isə həmin çağırışı dəstəkləyiblər. Srağagün isə onların nazir Elmar Məmmədyarovun əmri ilə işdən çıxarıldığına dair məlumatlar yayılıb. Dünən istirahət günü olduğundan bu xəbəri XİN-lə dəqiqləşdirmək mümkün olmadı.

***

Siyasi ekspert Natiq Miri hesab edir ki, Arif Məmmədov təsadüfi adam deyil və onun addımları da təsadüfi sayıla bilməz: "Bu, Azərbaycan hakimiyyətinə olan təzyiqlərin davamı kimi dəyərləndirilməlidir. Ölkə daxilində toplumun içərisində hakimiyyətə qarşı müəyyən narazılıqlar artıq ölkənin xaricinə çıxmağa başlayıb. Demokratiya və insan hüquqları ilə bağlı hakimiyyətə ciddi təzyiqlər var. Artıq Qərb dünyası Arif Məmmədov kimi adamları danışdırmaqla hakimiyyətə mesajlar verir. Onu hansı siyasi talenin, aqibətin gözlədiyini bilə-bilə təcrübəli bir diplomatın heç nədən məlum mövqeni sərgiləməsini qətiyyən özfəaliyyət kimi qəbul etmək olmaz. Düşünürəm ki, bu, öncədən Qərblə, xüsusilə Avropa İttifaqı ilə razılaşdırılmış məsələdir. Bununla hakimiyyəti gələcəkdə müəyyən islahatlara getməyə vadar etmək istəyirlər. Bu, hakimiyyət üçün çox ciddi həyəcan siqnalı olmalıdır. Diqqət edirsinizsə, Arif Məmmədova artıq Belçika dövləti mühafizə ayırır, diplomatik çətir-immunitet yaradılır. Bu da bir daha onu göstərir ki, Arif Məmmədov özfəaliyyətlə məşğul deyil, bu işin arxasında müəyyən qüvvələr dayanıb, diplomat danışdırılır. Baş verənlər göstərir ki, hər şey əvvəlcədən razılaşdırılmış və planlaşdırılmış ssenaridir və hakimiyyətə xəbərdarlıq xarakteri daşıyır".

***

Qəzet çapa gedərkən XİN mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin baş vermiş olaylarla bağlı öz facebook hesabında bəyanat yaydığı bəlli oldu. Orada deyilir: "Mən, Azərbaycan Respublikasının vətəndaşı olaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin irsinə sadiq qalaraq, möhtərəm prezidentimiz tərəfindən yürüdülən daxili və



Natiq Miri

xarici siyasətə xidmət etmişəm və həmişə də edəcəyəm. Rahat həyat və Avropa ölkələrində sığınacaq almaq məqsədilə belə əməllərə əl atan Arif Məmmədov kimisinin adımızdan danışmağa heç bir haqqı yoxdur. Artıq bir neçə ildir Azərbaycan XİN sistemində deyil, İslam Əməkdaşlıq Təşkilatında işləyən bu şəxsin əməllərini, eləcə də sosial şəbəkələrdə ölkəmizin ictimai-siyasi və mədəniyyət xadimləri, Azərbaycan xalqı və ölkəmiz haqqında yazdığı fikirlərini qəti şəkildə pisləyir və qınayıram. Öz xalqına qarşı təhqir qəbuledilməzdir. Arif Məmmədov Avropadakı havadarları ilə əlbir olaraq Avropa Oyunları ilə əlaqədar ölkəmizə qarşı aparılan əks-təbliğat kampaniyasının bariz nümunəsidir. Texniki parametrlər baxımından facebook sosial şəbəkəsində hər hansı statusun "like" edilməsi bu fikrin bilavasitə qəbul və ya təsdiq edilməsi mənasını daşımasa da, daha çox "gördüm, oxudum və ya tanış oldum" demək olsa da, onun sosial şəbəkələrdə yaşayış binasında yanğın ilə əlaqədar yazdığı statusunun "like" edilməsi ilə əlaqədar yaranmış anlaşılmazlığa görə üzrxahlığımı bildirirəm... Bir daha bildirirəm ki, harada olmağımızdan və çalışmağımızdan asılı olmayaraq, əqidə, amal və əməlimlə Azərbaycan Respublikası prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin hər bir əmrinə müntəzirəm".

❑ **Etibar SEYİDAĞA**

# Diplomat və islahat...



Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**Mövcud iqtidarın xarici siyasəti daha az tənqidə məruz qalıb. Ekspertlər, politoloqlar, hətta müxalif siyasətçilər dış siyasətin normal olduğunu açıq tekstlə öz müsahibə və açıqlamalarında zaman -zaman dilə gətiriblər. Azərbaycanın yerləşdiyi coğrafi məkan, geopolitik maraqlar, qonşularımız, düşmən Ermənistan, işğala məruz qalmağımız da nəzərə alınmaqla yürüdülən mövcud xarici - "balanslı" adlandırılan siyasətin indiki şərtlər daxilində alternativi olmadığı da ən ciddi politoloqlar tərəfindən deyilib.**

Bütün bunlarla yanaşı, o da zaman-zaman qeyd edilib ki, xarici siyasətdə daha ciddi uğurlar əldə edilməsi üçün xaricdəki diplomatlar, səfirlər, eyni zamanda lobbi fəaliyyəti ilə məşğul olan şəxs və qurumlarla bağlı fərqli taktika seçməlidir, yaxud seçilməli idi. Məsələn, səfirlərin uzun müddət, bəzilərinin 10, 15 il eyni postda və ya bir-birini təkrarlayan qurumlarda diplomatik fəaliyyəti onların faydalı iş əmsalını azaldır. Elə səfirlər, diplomatlar, konsullar var ki, onlar göndərildikləri ölkədə Azərbaycan adına hansısa ciddi bir işlər görmək əvəzinə biznes şəbəkəsi qururlar. Əlbəttə, bir səfiri 5 ildən artıq eyni yerdə saxladıqda, o, "kök salmış" sayılacaq və qurduğu əlaqələrdən istifadə edərək, qanunsuz fəaliyyətlərə baş vuracaq.

İndiyədək xeyli sayda diplomatımızın adı maxinasiyalarda, korrupsiyada, diplomatik qalmaqallarda hallanıb, bəzi səfirlərimizlə bağlı skandallar yaşanıb. Ancaq bunlar sırf şəxsi və biznes maraqları səbəbindən baş verib, bunları ölkəmizin maraqları baxımından xəyanət hesab edilə biləcək məsələlər kimi təqdim etmək yanlışlıq olardı....

Son bir neçə gündə isə diplomatlarımız və onların fəaliyyəti ilə bağlı ortaya ciddi məsələlər çıxıb. İslam Əməkdaşlıq Təşkilatının Avropa Birliyi yanında nümayəndəliyinin rəhbəri və bu təşkilatın səfiri Arif Məmmədovun yazdığı bir facebook statusundan dolayı diplomatlarla bağlı çox skandal baş verib. Diplomatlarla qarşı iqtidar təmsilçilərinin özlərinin də çox ciddi ittihamları var.

Arif Məmmədov 2000-ci ilin may ayından 2006-cı ilin noyabr ayınadək Brüsseldə Azərbaycanın Avropa İttifaqı yanında nümayəndəliyin rəhbəri işləyib. 2007-ci ilin yanvarından 2012-ci ilin sentyabrınadək Strasburqda Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi olub. 2013-cü ilin iyun ayından etibarən Brüsseldə yerləşən İslam Əməkdaşlıq Təşkilatının Avropa Birliyi yanında nümayəndəliyinin rəhbəri və bu təşkilatın ilk səfiridir. Yəni hazırda Arif Məmmədov Azərbaycan hökumətini yox, İƏT-i təmsil edir. Amma aydın məsələdir ki, bir azərbaycanlı kimi, onun diplomatik fəaliyyəti həm də ölkəmizin maraqlarına xidmət etməlidir. Çünki o, Azərbaycan XİN-in yetirməsidir. Düşünmürəm Arif Məmmədov diplomatik fəaliyyətini ölkəmiz əleyhinə yönəldə bilərdi. Sadəcə, onun Bakıda baş verən yanğınla bağlı yazdığı statusdan sonra ortaya fərqli mənzərə çıxıb. Bir şəxs olaraq bu hadisəylə bağlı hansısa mövqe sərgiləmək onun öz işi, fikridir. Ancaq bu tək deyil və onun Azərbaycana gələrkən utanc hissi keçirməsini deməsi, son olaraq isə uzun illər təmsil etdiyi hakimiyyətin əleyhinə açıq bəyanatlar verməsi heç də təsadüfi deyil. Azərbaycanlı diplomatın "asi"liyindən bir çox xarici qüvvələrin dərhal istifadə etməyə çalışması da açıq-aydın sezilir. Və o da bəlli olur ki, hökumətin daxilində olmuş adamlardan hər hansı biri narazılıq ifadə etdikdə, xarici qüvvələr, missionerlər onu dərhal ələ keçirməyə çalışırlar. Belə nümunələrə biz 2005-ci ilin "siyasi fırtınası"nda da rast gəlmişik. Təbii, daxildəki məsələlərə münasibət bir başqa işdir, amma hansısa başqa ölkənin asi diplomatdan istifadə etməsi daha təhlükəlidir...

Bütün bunlardan dolayı indiki geopolitik şərtlər daxilində, həmçinin bir çox dişlərin Azərbaycana qıcandığı bir vaxtda, həmçinin məhz Avropa Oyunları ərəfəsində diplomatik sahədə baş verənlər ciddi düşünməyə əsaslar yaradır. Bunların haradan qaynaqlandığını təbii ki, iqtidar özü müəyyən edə biləcək. Tədbirlər də görüləcək və sair. Ancaq bir məsələyə xüsusi diqqət yetirilməlidir; həm bu yaxınlarda məmur-oliqarxlarla bağlı yaşanan maliyyə skandalı, həmçinin bu "diplomat qiyamı" uzun illər ölkədə siyasi, iqtisadi, kadr islahatların aparılmamasının, vəzifə təyinatlarının qohumbazlıq prinsipləri ilə həyata keçirilməsinin nəticəsidir. Bunun acı və ağır nəticəli fəsadları ortaya çıxmağa başlayıb. Heç şübhəsiz, vəziyyət çox ciddidir; xüsusi ilə parlament seçkiləri ili olduğunu nəzərə alsaq, qarşıda daha böyük "sürprizlər" ola bilər. Odur ki, idarəetmə sisteminin dəyişməsinə, islahatlara bir an öncə başlanılmalıdır. Sonra çox gec ola bilər...



# Ulduzlar nə deyir?

Hüseynbala SƏLİMOV

**Bu yaxınların söhbətidir. Avtobusda ön cərgələrdən birində əyləşmişdim. Birdən gözüm sürücünün oturduğu yerin arxasındakı tabloya sataşdı. Baxıb gördüm ki, tabloda gün üçün ulduz falları verilir. Bu, mənə köhnə hadisləri xatırlatdı...**

Ümumiyyətlə, ulduz bürclərilə və ulduz falları ilə mənim haqq-hesabımın tarixi uzundur. Çoxdanın, 90-cı illərin əvvələrinin söhbətidir. Bəli, o vaxt mən institutlardan birində saat-hesabı sosiologiyadan dərs deyirdim. Açığı, bu roluma heç cür alışa bilmirdim - dəqiq elmlərin adamı sosiologiyadan dərs deyir...

Amma bir az bu elmə baş vurandan sonra gördüm ki, hətta onun banilərindən biri - O.Kont sosiologiyanı fizikaya uyğun qurub. Sonradan bu elmdə dəqiq elmlərdən götürülümüş çox analogiyalarla rastlaşdım və bu, mənə öz aqibətim ilə barışmağa kömək etdi...

O vaxt keçid dövrü idi. Hara və necə keçəcəyimizi bilməsək də, hamımız o dövrü yaşayırdıq. Mənə bu dövr elmi cəhətdən də xeyli maraqlı görünürdü...

Qərəz, sözüm bunda deyil. O vaxt həm də ulduz fallarının “bum” dövrü idi. Hara baxırdın, hansı qəzetə baxırdın, elə hey ulduz falı görürdün. Astroloqlar publikanın və efirlərin ən sevimli qəhrəmanları idi, baxıcılar sensasion siyasi proqnozlar, açıqlamalar verirdilər...

Bir gün qərara gəldim ki, seminarlardan birini buna həsr edim. Etdim də. Amma üstündən az keçməmiş gördüm ki, bir nəfər kafedrada böyük bir hay-küy salıb ki, bəs, filankəs müəllim uşaqlara sosiologiya əvəzinə astronomiyadan dərs deyir. Nə qədər and-aman etdim, inanmadılar... Beləcə, məni həmişə dilxor edən bir məsələ ilə - mövhumatla ilk ciddi toqquşmam bu cür başladı...

İndi başınızı ağrıtmayacam. Sonra da hər fürsət düşəndə astroloqları, baxıcıları, necə deyərlər, ifşa etməyə çalışırdım. Hazırda əvvəlki “bum” bir az çəkilib, amma hələ də qalıb...

Və mən də daha “ezoterik təlimlər”in daşıyıcılarını əvvəlki kimi izləmirəm. Amma bu yaxınlarda daha bir hadisə də oldu. Şah Abbasdan veriliş verdilər. Həmin verilişdən bəlli oldu ki, sən demə, Yusif Sərrac məsələsi heç də M.F.Axundovun uydurması deyilmiş və elə həqiqətən də belə bir hadisə olub - münəccimlərin təkidilə Şah Abbas bir-iki günlüyə hakimiyyətdən çəkilib və taxt-tacını adi bir sənətkara həvalə edib...

Sonrası... Bəli, sonrasını hamı bilir... Amma o verilişin üstündən az keçməmiş bir dostuma rast gəldim. Soruşdu ki, gördün? Dedim, bəli, gördüm... Qayıtdı ki, bəs indi inandın ki, ulduz falı boş şey deyil? Dedim ki, yox, inanmadım! Bəli, həmin o dostum qayıtdı ki, qardaş, bura Şərqdir, onun o qədər tilsimləri var ki!.. Amma mən çox yaxşı bilirdim ki, bu, heç də Şərq-Qərb söhbəti deyil. Nostradamus Qərbdə olmuşdu...

Qayıdaq ulduz bürclərinə. Bürclərdəki ulduzların biri-birilə heç bir maddi-fiziki əlaqəsi yoxdur, bu, adicə bir şəkildir - Göy sferasına ulduzların proyeksiyasıdır...

Mən demirəm ki, astrologiyanı büs-bütün tullamaq lazımdır. Yox. Düşünürəm ki, keçmişi - Şərq tarixini, ədəbiyyatını və mədəniyyətini öyrənmək üçün o, çox gərəkli ola bilər...

Ola bilsin, hansısa Şərq şairinin bir beytində gizlənən mənanı açmaq üçün ulduz fallarının, bütövlükdə astrologiyanın böyük köməyi dəyə bilər. Tarixdə bu, dəqiq xronologiyanı müəyyən etmək və keçmişdəki insanların dünya haqqındakı təsəvvürlərini öyrənmək üçün gərəkli ola bilər...

Müasir insan nöqteyi-nəzərindən isə o, tamamilə mənasız bir şeydir. Biri var elm, biri də var ibtidai təsəvvürlər...

Astrologiya da əlkimya kimi insanların çox ibtidai təsəvvürlərindən biri kimi meydana çıxmışdı. Əlkimyadan kimya yarandığı kimi astrologiyadan da astronomiya yarandı. Və astrologiyada elm üçün rasional nə varsa, götürüldü, qalanlar isə bir kənara tullanıldı...

Həm də burada daha iki amil var ki, onları da qeyd etmək lazımdır. İnsan ümidsizlik burulğanına düşəndə mistikaya meylli olur. İndiki sosial-siyasi və mənəvi mühit burada heç də az rol oynamır. Hazırda keçid dövrü bitib - insanlar da özlərinə və sabaha daha ümidli olublar. Gəl, ümidsizlik notu tam çəkilməyib...

Bir detal da Şərqin özü ilə bağlıdır. Şərqdə mistikaya, “gizli elmlər”ə meyl həmişə güclü olub, hətta belə hesab edilib ki, əsl elm də əslində gizli olmalı və “seçilmiş” insanlara açılmalıdır...

Vəssəlam... Başqa nə demək olar bu xüsusda? Bir daha acizanə şəkildə yada salım ki, bəli, indi 21-ci əsrdir, əzizlərim. İnanc seçərkən gəlin azacıq da olsa, düşünək...

# Beynəlxalq Bankdakı yoxlamalar “Gəncəbank”da aparılmalıdır

## “Gəncəbank”dan kredit alıb tələyə düşən daha bir iş adamı məhkəməyə üz tutub; bankdakı maxinasiyalara Mərkəzi Bank niyə göz yumur?

**“Gəncəbank”dakı qanunsuzluqlar haqda daha bir xəbər almışıq. Maraqlıdır ki, bankda baş verənlərə rəğmən nə Mərkəzi Bank rəhbəri Elman Rüstəmov, nə də baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi reaksiya verməyə tələsmir.**

Aydındır ki, banklar gəlir əldə etməlidir. Bank sahiblərinin hansısa sahibkara faizsiz və ya girovsuz kredit vermək öhdəliyi yoxdur. Bütün dünyada bankların böyük əksəriyyəti bu prinsiplərlə işləyir, qazanır və müştərilərini də qazandırırlar.

Deyəsən, təkcə “Gəncəbank”da bu prinsiplər keçərli deyil. Banka yolu düşən sahibkarlar sonradan ora ayaq basdıqları günü böyük təəssüflə xatırlamalı olurlar.

Vətəndaş Sadiq Həsənov da 8 il əvvəl imzaladığı kredit müqaviləsinin peşmançılığını çəkir.

Onun vəkili Adəm Məmmədov deyir ki, S.Həsənovun rəhbəri olduğu “Ceyrançöl” MMC ilə bank arasında 11 sentyabr 2007-ci ildə 249 №-li kredit müqaviləsi bağlanıb. Sadiq Həsənov “Gəncəbank”dan götürdüyü 100 min manat kreditin təminatı kimi özünün Səbayel rayonu, Badamdar qəsəbəsi, 99 saylı fərdi yaşayış evini ipotekaya qoyub.

Səbayel Rayon Məhkəməsinin 20 dekabr 2012-ci il tarixli icra vərəqəsinə əsasən, “Ceyrançöl” MMC-nin banka yaranan 45 min 599 manat borcu 17 oktybar 2013-cü il tarixədək tam ödənilb. Buna müvafiq olaraq Səbayel Rayon Məhkəməsində iş üzrə icraata xitam verilib. Lakin bank mənzilin girovluqdan çıxarılmasını təmin etmir.

Bununla əlaqədar Daşınmaz Əmlakın Dövlət Reyestrində aparılmış qeydiyyatın ləğv edilməsi barədə müvafiq məktubu qanunsuz olaraq quruma yollanmır.




Vəkil deyir ki, bankdan bu addımı atmaq üçün S.Həsənovdan ağlagəlməz məbləğ tələb edirlər.

“Açıq şəkildə deyirlər ki, tələb yerinə yetirilməyəcəyi təqdirdə yaşayış evinin gorovluluğu götürülməyəcək. Bu isə bizim qanunla qorunan hüquqlarımızın pozulması və ”Gəncəbank"ın növbəti özbaşınalığıdır.

İpoteka haqqında qanunun 46-cı və 48-ci maddəsi də hüquqi cəhətdən bizim haqlı olduğumuzu birmənalı şəkildə təsdiq edir. Təəssüf doğuran əsas hallardan biri də tərəflər arasında mövcud müqavilənin və qüvvəyə minmiş məhkəmə qərarının nəzərə alınmamasıdır. Müqavilə öhdəliyi “Gəncəbank”la “Ceyrançöl” MMC arasında müqaviləyə əsasən tam ödənilsə də, “Gəncəbank” heç bir öhdəliyi olmayan Sadiq Həsənovun faktiki mənzilini ələ keçirmək və ya mənzili girov saxlamaqla vəsait əldə etmək istəyir. Əgər onlar məhkəmə aktına tabe olub qanuna uyğun mənzili yüklülükdən çıxarmırlarsa, deməli, onların niyyəti heç də xoşməramlı deyil. Biz “Gəncəbank”ın qanunsuz hərəkəti ilə bağlı Gəncə şəhər Nizami Rayon Məhkəməsinə müraciət etmişik" deyə A.Məmmədov bildirib.

Vəkil Sadiq Həsənovun mülkiyyətinin digər vətəndaşlar kimi “Gəncəbank”ın qurbanına çevrilməsinə imkan verməyəcəyini açıqlayıb: “Mərkəzi Bank, o cümlədən hüquq-mühafizə orqanları bu qanunsuzluğa son qoymalıdırlar. Sadiq Həsənovun pozulmuş hüquqları bərpa olunmalı və ”Gəncəbank" barəsində lazımi tədbir görülməlidir".

Qeyd edək ki, “Gəncəbank”da baş verən qanunsuzluqlar haqda dəfələrlə yazmışıq. Bank rəhbəri Pərvanə Novruzovanın banka yolu düşmüş Natalya Kərimovaya məxsus əmlakları mənimsəməsi, Gəncə sakini Şahin Bağırlının almadığı kreditə görə 85 min manat borcla yüklənməsi, evinin əlindən alınması, mərhum prezident Heydər Əliyevin fədakar əməyinə və çoxuşaqlı ata olduğu üçün Gəncə sakini Əli Əliyevə verdiyi mənzilin onun oğlundan saxtakarlıqla alınması da bankda baş verən qanunsuzluqların çox cüzi hissəsidir. Nə qədər ki, “Gəncəbank” Gəncədə və ətraf rayonlarda dövlət orqanlarının, lap elə Gəncənin Nizami Rayon Məhkəməsinin binasın ələ keçirməyib, Beynəlxalq Bankda aparılan yoxlamalar “Gəncəbank”a da keçməlidir. Yoxsa, “Gəncəbank” vətəndaşların mal-mülklərinə xəyanəti çox pis nəticələrlə sonuclancaq...

❑ E.MƏMMƏDƏLİYEV

**P.S.** *Yazıda adı hallanan hər kəsin, “Gəncəbank”ın mövqeyini dərc etməyə hazırıq.*

# Yanan binanın sakinlərinə kompensasiyalar tam verilməyib

## Hələ ki, mənzillərdə təmir işinə də başlanılmayıb

**Mayın 19-da Bakının Binəqədi rayonunda baş verən dəhşətli yanğından sonra zərərçəkənlərə dəymiş maddi ziyana görə kompensasiyaların ödənilməsi prosesi başa çatıb. Artıq evləri yananlar 20 min manat kompensasiya ilə təmin olunub, binada kirayə qalanlarla ev sahibləri arasındakı mübahisə də tərəflərin razılaşması ilə həll edilib.**

Bu barədə “Yeni Müsavat”a sakinlər məlumat verib. Ev sahibi və kirayənişinlər arasında yaranan mübahisədə adı çəkilən jurnalist Sevinc Fədai qəzetimizə açıqlamasında bildirib ki, ev sahibi ilə razılaşma əsasında onlara 7500 manat kompensasiya ödənilib. Lakin hazırda kirayə yaşadıqları evin pulunu özləri ödəyirlər: “Bizə maddi ziyana görə ilkin kompensasiya 7500 manat ödənildi. Özümüz kirayə ev tutmuşuq, orada qalırıq. Bizə demişdilər ki, kirayə evlərə baxış keçiriləcək və aylıq pul ödəniləcək. Lakin sonradan gələn olmadı, biz özümüz də bu məsələnin üzərinə getmədik. Düşündük ki, kompensasiya verdikdən sonra kirayə haqqı verməzlər. Elə ödənilən kompensasiyadan evin kirayə pulunu da ödəyirik”.

Sevinc Fədai bildirdi ki, yanğın zamanı o, anası və körpəsi ilə saatlarla binada qalıb, lakin hələ ki sağlamlığa dəyən ziyana görə hər hansı kompensasiya verilməyib: “Yanğın zamanı binada qalanlar zərərçəkmiş hesab olur. Mən özüm də yanğın zamanı binada qalmışdım. Biz yanıq xəsarətləri almamışdıq, lakin tüstüdən xəsarət almışdıq. Bu, 1 saylı Kliniki Tibbi Mərkəzdən verilən rəydə də əksini tapıb. Ötən həftə demişdilər ki, gələn həftə veriləcək. 20 min manatlıq kompensasiyanın verilməsi başa çatandan sonra bu məsələyə keçiləcək. Həmçinin prokurorluğun və Səhiyyə Nazirliyinin rəyləri də gəlməlidir. Bildirdilər ki, sakinlərin sayı çox olduğuna görə bu məsələ zaman alacaq”.



Sevinc Fədai

Evi yanan sakinlərdən Fizuli Məmmədov da onlara vəd olunan 20 min manat kompensasiyanın ödənildiyini, lakin bunun dəymiş ziyanı tam əvəz etmədiyini bildirdi: “Biz hazırda kirayə ev tutmuşuq, orada qalırıq. Bizə dövlət tərəfindən 500 manat kirayə haqqı birinci ay üçün verildi. Həmçinin 20 min manat kompensasiyanı da almışıq. Təbii ki, bu, bizə dəymiş maddi ziyanı tam ödəmir”.

Sağlamlığa dəymiş ziyana görə kompensasiyanın ödənilməsinə gəlincə, F. Məmmədov bildirdi ki, hələ ki bu barədə onlara heç bir söz deyilməyib: “Biz bununla bağlı müraciət etmişdik. Lakin orada bildirdilər ki, yalnız xəstəxana şəraitində müalicə alanlara xəsarətə görə kompensasiya ödəniləcək. Yalnız 1 həftədən çox xəstəxanada yatanlara veriləcək. Hadisə zamanı binada olanlar, tüstüdən xəsarət alanlara bu şamil edilmir”.

Zərərçəkənin sözlərinə görə, hələ ki, mənzillərdə təmir işinə başlanılmayıb: “Hələ ki, binadan tullantıları, yanğının qalıqlarını təmizləyirlər. Biz gedib Xətai rayonunda yanan binaya da baş çəkdik ki, təmir işləri necə aparılır. Demək olar ki, başdansovdu təmir edirlər, keyfiyyətli iş görülmür. Görək bizim mənzillərimiz necə olacaq”.

❑ Nərgiz LİFTİYEVA

# “Onlara “yox” deməli və yerlərini göstərməliyik”

## Fəzail Ağamalı: “Bakı ATƏT-lə münasibətlərə yenidən baxmalıdır”

**“Baxış bucağı”**

**Birinci Avropa Yay Oyunları ərəfəsində gözlənilməz və həm də Azərbaycan adına heç də xoş olmayan hadisələr baş verməkdədir. Hər halda diplomatik korpusda bir-birinin ardınca baş verən qalmaqalların ardınca rəsmi Bakının ATƏT-in Bakı Ofisi ilə bağlı nota verməsi, Yunanıstanın və bir sıra digər ölkələrin Azərbaycanda keçiriləcək yarışlarda iştirakdan imtina qərarı verməsi, Avropa Parlamentinin boykot çağırışı, paralel olaraq şimal qonşumuzdan Avrasiya Birliyi ilə bağlı mesajların gəlməsi proseslərin Azərbaycanın maraqlarına zidd cərəyan etdiyi görüntüsünü yaradır. Situasiyanı AVP sədri, deputat Fəzail Ağamalı ilə şərh etdik.**

***- Fəzail bəy, rəsmi Bakının ATƏT-in Bakı Ofisi ilə bağlı verdiyi nota şəxsən sizinçün gözlənilməz olmadı ki?***

- Yox. Mən bunu çoxdan gözləyirdim. Azərbaycan ATƏT-lə münasibətlərinə yenidən baxmalıdır. Hər şeydən əvvəl ona görə ki, 1992-ci ildən işğal olunmuş Azərbaycan torpaqlarının işğaldan azad edilməsi missiyasını üzərinə götürən ATƏT faktiki olaraq öz missiyasını yerinə yetirmir. Daha dəqiq desək, yerinə yetirmək istəmir, Ermənistanın yanındadır. İşğalçı dövlətin təcavüzə son qoyması üçün ATƏT tərəfindən heç tədbirlər görülmür. Nəinki konkret addımlar atılmır, hətta sərt bəyanatlar belə verilmir. Minsk qrupunun fəaliyyəti heç zaman ATƏT səviyyəsində müzakirə predmetinə çevrilməyib. Bu baxımdan ATƏT faktiki status-kvonun saxlanmasında Ermənistanın yanında olmaqda davam edir.

***- Amma rəsmi Bakını qəzəbləndirən son hadisə Minsk Qrupunun fəaliyyətsizliyi deyil...***

- Birinci budur və bu, vacib məsələdir. Biz buna görə, ümumiyyətlə, ATƏT-in Azərbaycandakı fəaliyyətinə son qoymalıyıq. Daha sonra ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu var. Hər prezident və parlament seçkilərində Varşavada bəyanatı hazırlayıb qoyurlar portfellərinə, gəlirlər Azərbaycana, fırlanıb geri qayıdandan sonra həmin bəyanatı verirlər, seçkilərin üstündən bir xətt çəkirlər, heç bir uğurlu tərəfi göstərmədən ən müxtəlif şəkildə qarayaxmalar yayırlar.

Digər qurumlardan fərqli olaraq həmin təşkilat Azərbaycana qarşı qərəzli fəaliyyət göstərir və ATƏT buna qarşı da heç bir təsirli tədbir görmür. Nəhayət, bir neçə gün bundan öncə Şahtaxtinski heç bir ciddi səbəb olmadan vaxtından əvvəl ATƏT-in Azərbaycan təmsilçiliyindən geri çağırıldı. Müxtəlif şəkildə deyildi, diplomatik jestlər olundu ki, guya onun geri çağırılması sadəcə olaraq prosedur qaydalarla bağlıdır. Amma görünən bu idi ki, Şahtaxtinski Azərbaycana qarşı tamam fərqli bir mövqedəydi, Azərbaycan həqiqətlərinin yanındaydı. Ona görə də bu, ATƏT-i idarə edən cənablara sərf etmədi və onun vaxtından əvvəl geri çağırılmasına qərar verdilər. Belə olan halda sual doğur, ATƏT-in Bakı Ofisi (koordinatorluğu - red.) Azərbaycana hansı töhfəni verib? Hansı mənəvi haqla bu gün Azərbaycanda qalmaq haqda düşünür? Ona görə də mən əvvəldən ATƏT-in fəaliyyətinə çox fərqli münasibətdə olmuşam. ATƏT-in fəaliyyətdə olan sədri, Serbiya XİN-in başçısı ilə biz parlamentdə görüşəndə də mən birbaşa təklif etdim ki, ATƏT Minsk Qrupunu ləğv etməlidir, o iflasa uğrayıb, belə bir quruma ehtiyac yoxdur. Yəni mənim münasibətim belədir. ATƏT-in Azərbaycandakı fəaliyyəti nədə başlayıb, nədə qurtarır, Azərbaycana hansı töhfələri verəcək, bu haqda ümumi sözlərdən başqa bir şey yoxdur. Ona görə də XİN-in notasına tam haqq qazandırıram.

**“Ola bilsin, həmin şəxs ayrı-ayrı xarici ölkələrin, Azərbaycana xoş münasibət bəsləməyən ölkələrin xüsusi xidmət orqanları tərəfindən ələ keçirilib, ruslar demişkən, “verbovat” olunub”**

***- Bu ərəfədə Avropa Parlamenti də Avropa Oyunlarını boykota çağırıb. Növbəti beynəlxalq təşkilatla münasibətlərdəki konfrantasiya Azərbaycanın beynəlxalq aləmdən təcrid olunması riskini yaratmır ki?***

- Mən heç zaman istəməzdim ki, Azərbaycan beynəlxalq aləmdən təcrid olunsun. Azərbaycanda bunu heç kim, o cümlədən ölkə iqtidarı da birmənalı şəkildə istəmir. Ancaq əgər onlar bizi zorən təcrid edirlərsə, bizim inkişafımıza qısqanclıqla yanaşırlarsa, bizə “bunu et, bunu etmə” resepti ilə münasibət bəsləyirlərsə, təbii ki, biz müstəqil dövlət olaraq, özümüzə hörmət edərək onlara “yox” deməliyik və yerlərini göstərməliyik. İndi bu, beynəlxalq aləmdə təcrid, yoxsa qeyri-təcriddir, deyə bilmərəm. Bizim Avropa Şurası, NATO PA, Qara Dəniz Ölkələri Parlament Assambleyası, İslam Konfransı Təşkilatının bütün strukturları ilə ilə yüksək səviyyəli əməkdaşlığımız var. Əgər Avropa Parlamenti və ATƏT Azərbaycana qarşı qərəzli münasibət bəsləyirsə, ikili standartlardan əl çəkmirsə, Azərbaycana qarşı hər zaman təzyiq metodlarından istifadə edərək işğalçı Ermənistanın yanında olursa, biz, nəhayət, bir dövlət olaraq bunlarla münasibətlərimizə baxmalıyıq. Ya siz bu münasibətlərə lütfən son qoyun, Azərbaycanın sizə bəslədiyi və beynəlxalq hüquq normalarına söykənən münasibəti siz də Azərbaycana münasibətdə ortalığa qoyun, əlbəttə, o halda biz bu əməkdaşlıqdan çox böyük məmnunluq duyarıq və davam edərik. Yox, əksinə, “mən sevməsəm də, sən məni sevməlisən” prinsipi ilə yanaşsaq, bu, Azərbaycanın inkişaf səviyyəsi və dövlətçiliyi ilə heç bir halda üst-üstə düşmür.

***- Avropa Birliyinin iki üzv ölkəsi, Yunanıstan və Almaniyanın Avropa Oyunlarında iştirakdan imtinasına səbəb nə oldu?***

- Bu, təzyiqin ciddi bir formasıdır. Yunanınstanın mövqeyi başdan-ayağa konyunkturadır. Yunanınstan Azərbaycanın Avropaya qazla bağlı, TAP, TANAP-la bağlı layihələrində özünə xüsusi imtiyazlar tələb edir. Əlbəttə, bu, mümkün deyil. Xatırlayırsınızsa, ölkə başçısı da bu yaxınlarda çox diplomatik şəkildə söylədi ki, bu layihələrin iştirakçıları heç biri əlahiddə və xüsusi bir üstünlük tələb etməli deyillər. Bu, Azərbaycanın haqlı mövqeyir. Yunanıstan indi cəhənnəm odunda yanır, istəyir ki, hər kəs onu bu cəhənnəm odundan xilas etsin. Hansı ki, xilas olmaq üçün birinci özü cəhd etməlidir. Düşünməlidir ki, Avropa Birliyində, onun vahid valyuta sistemində olanda götürmüş olduğu kreditlərin haqq-hesabını aparmalıydı, hara, necə xərclədiyini araşdırmalıydı. Yunanıstan kimi dünya demokratiyasının beşiyi olan bir ölkədə baş nazir 100 milyon rüşvət alıb köhnə gəmiləri Yunanıstana gətiribsə, alınan kreditlər ciblərə axıbsa, indi də Yunanıstan hamıya meydan oxuyursa, bu, qəbulolunan deyil. Ona görə ki, Yunanıstan Azərbaycana etirazını bu şəkildə ifadə etdi. Təəssüf edirəm. Olimpiya Oyunlarının beşiyi olan Yunanıstanın qərəzli, heç bir zaman siyasətlə üst-üstə düşməyən idman yarışlarına bu cür münasibətini Yunanıstanın özünə, onun ənənələrinə, olimpiya məşəlinin yaradıcısı olan dövlətə çox böyük zərbə vurduğu qənaətindəyəm.

***- Bəs, Almaniyanın imtina səbəbi nədir?***

- Bilmirəm. Almaniya hansı səbəbdən bu cür mövqedən çıxış etdi, səbəbi mənə bəlli deyil.



**“Onda Qərb niyə bizi müdafiə etmirdi, Jirinovskini susdurmurdu?”**

Çünki Almaniya ilə Azərbaycan arasında yüksək münasibətlər mövcuddur. Bir müddət öncə ölkə prezidenti Almaniyada Merkellə yüksək səviyyəli görüş keçirmişdi. Bunun səbəbi mənə bəlli deyil və çox böyük təəssüf hissi keçirirəm ki, niyə belə oldu. Hər halda bu da anti-Azərbaycan qüvvələrinin təsiri altında baş verən yanaşmadır.

***- Hətta Jirinovskinin Azərbaycana isti mesajları belə təsəvvür yaradır ki, Avropanın burdakı zəifləyən mövqelərini şimal qonşumuz ələ keçirir. Bu, belədirmi?***

- Birmənalı şəkildə, tam məsuliyyətlə deyirəm ki, Azərbaycan dövləti, onun prezidenti İlham Əliyev Azərbaycanyönümlü siyasət həyata keçirir. Ancaq məsələn, Avropa, Qərb istəyir ki, onun vaxtilə İrana qarşı tətbiq etdiyi sanksiyalarda Azərbaycan da yer alısın, Bakı düzgün olaraq buna getmədi. İndi Qərb-Rusiya münasibətləri kəskinləşəndən sonra Qərb çalışır ki, Azərbaycan Rusiyaya qarşı onun yanında olsun. Azərbaycan isə buna getmədi. Əksinə, Qərbin Rusiyaya qarşı sanksiyaları tətbiq olunanda Moskva üzünü Azərbaycana tutdu. Azərbaycan da buna normal yanaşdı, çünki özünün də burda maraqları var idi. Çünki kənd təsərrüfatı üçün ən güclü bazar Rusiyadır. Baxmayaraq ki, hələ də bazar normal şəkildə fəaliyyət göstərmir. Biz Rusiya ilə münasibətlərmizdə gərginlik yaratmalı deyilik.

Mən demirəm ki, Azərbaycan yaranmış vəziyyətdən son dərəcə əndişələnir və özü üçün böyük təhlükə hiss edir. Yox! Sadəcə olaraq Azərbaycan Rusiya amili üzərində baş vermiş hadisələrdən ehtiyatlanaraq öz siyasətini özünün dövlət maraqlarına uyğun şəkildə qurur. Biz heç bir halda Rusiya ilə üz-üzə gəlməyə çalışmalı deyilik. Biz çalışmalıyıq ki, Rusiya ilə münasibətlərimiz normal olsun, ikitərəfli, qarçılıqlı, faydalı münasibətərə söykənsin, bir-birinin daxili işlərinə qarışmamaq, bir-birinin suverenliyinə təhlükə törətməmək prinsipi ilə mehriban qonşuluq şəraitində yaşasın. Bu gün də Azərbaycan onu etdiyi üçün Qərbdən böyük təzyiqlər, təhdidlər var. Qaldı Jirinovski və ya digər Rusiya siyasətçilərinə, məgər Qərb Jirinovskinin necə bir siyasətçi olduğunun fərqində deyil? Jirinovski, ya digərləri Azərbaycanla bağlı öz fikrini söyləyə, isti və ya soyuq münasibətini ifadə edə bilər. Vaxtilə Jirinovskinin pis münasibəti olanda niyə Qərb Azərbaycanın yanında deyildi? Vaxtilə Jirinovski Azərbaycana qarşı ən müxtəlif təhdidlərlə çıxış edirdi, onda Qərb niyə bizi müdafiə etmirdi, Jirinovskini susdurmurdu? Buyursunlar, bu suallara cavab versinlər!

***- Fəzail bəy, diplomatik korpusda nə baş verir, ortada üsyanmı, itaətsizlikmi, yoxsa xarici projemi var? Səfir Arif Məmmədov ətrafında baş verənləri nəzərdə tuturam...***

- Mən neçə illərdir sizinlə əməkdaşlıq edirəm və daim bütün məsələlərə peşəkar səviyyədə yanaşmanın tərəfdarı olmuşam. Diplomat öz fəaliyyətini diplomatik qaydalar haqqında Beynəlxalq Konvensiya, Milli Məclisin qəbul etdiyi qanunlar çərçivəsində qurmalıdır. Əgər diplomat siyasətlə məşğul olursa, buyursun, diplomatik fəaliyyətdən istefa versin, ya bir siyasi partiya yaratsın, ya da fəaliyyətdə olan siyasi partiyalardan birinə üzv olsun, siyasətdə sözünü desin. Axı diplomata yaraşmaz ki, öz profilində o cür fikirlər yazsın. O, diplomatik qaydaların bütün mahiyyətinə, diplomatiyanın etik qaydalarına tamamilə ziddir. Ona görə də mən onların bu cür yanaşmalarını əllaməlik hesab edirəm və düşünürəm ki, onların diplomat kimi geri çağırılması hökmən həyata keçirilməlidir. Deyək ki, mən siyasətçiyəm, amma diplomatik pasportum var, indi diplomatik pasportdan istifadə edim, gedim diplomatik görüşlərdə səfirin, konsulun əvəzində danışıqlar aparım, buna necə baxarlar, bu, anormallıq olmazmı? Diplomatın siyasətlə məşğul olması da eyni məsələdir.

Mən bilmirəm Məmmədov kimin yanındadır, niyə bunu etdi. Hər halda bütün qazanı qarışdıran, çömçə rolunu oynayan o oldu. Qazanın dibini qarışdırdı, orda-burda gizlənənlər də üzə çıxdı, onunla birgə öz fikirlərini ifadə etdilər. Mən düşünmürəm ki, bu, xüsusi bir projenin tərkib hissəsidir. Ola bilsin ki, həmin şəxs ayrı-ayrı xarici ölkələrin, Azərbaycana xoş münasibət bəsləməyən ölkələrin xüsusi xidmət orqanları tərəfindən ələ keçirilib, ruslar demişkən, “verbovat” olunub. Bunlar hamısı araşdırılmalıdır. Ancaq hər halda hadisə xoşagələn deyil və bu hadisəyə görə həmin diplomatlara heç cür haqq qazandırmaq mümkün deyil.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 123 (6151) 8 iyun 2015



# İsa Qəmbərlə şəkil

Zamin HACI
zaminhaci@gmail.com

"Mən deyirəm bütün Qafqaziyyə vilayətində bizim Danabaş kəndi kimi məzəli kənd yoxdu. Demirəm ki, pisdi, Allah eləməsin. Mən heç vaxt haqqı itirmərəm. Doğrudur, mən bir az incimişəm kəndimizdən, amma bu, kəndimizin pisliyinə dəlalət eləməz ki! İki yüz mənim kimi dılğır adam incisin bizim kənddən, bundan belə bizim kəndə yenə pis demək haqdan kənar olar"

**(Mirzə Cəlil, "Danabaş kəndinin əhvalatları")**

**Azərbaycan paradokslar ölkəsidir. Avropa oyunları qayırırlar, o biri yandan da Avropanı söyürlər, Almaniyada insan haqlarının pozulmasından qırıldadırlar, hətta ATƏT-in Bakı ofisini bağlamaq istəyirlər. Belə çıxır ki, Avropa pisdir, amma oyunları yaxşıdır. Necə deyərlər, Avropanın yaxşısını götürək, pisi özlərinə qalsın.**

Yaxşı Avropa deyərkən Parisdə gəzişmək, İsveçrə göllərinin qırağında ala balıq yemək, Londonda forslanmaq kimi şeylər nəzərdə tutulur, bunlar hamısı hakim klan üçündür. Pis Avropa isə homoseksualların hüquqları, İsveçdə işsizlik, mühacirlərə hörmətsizlik-zaddır, bu da müxalifətin və qara camaatın payına düşsün. Yaxşı Avropa bahalı avtomobillər, villalardır, pis Avropa insan hüquqları komissarıdır.

Təzəlikcə belə paradoksun biri Müsavat Partiyası ətrafında cərəyan edir. Partiya çox yaxşı bir hərəkət edib, siyasi dustaq problemi həll olunmadığı üçün oyunları boykota çağırıb. Bu fonda isə bir nəfər xaricə qaçan oğlan partiyanı ittiham edir. Deyir mənə saxta mühacirət sənədlərini niyə vermisiniz. Təsəvvür edin, yalançı və saxtakarların "bizi niyə saxtakarlığa yönəltmisiniz" deyə bağırdığı dönəmə girmişik. Elə bil bunun özü imam övladıdır. İsa peyğəmbərin dediyi "Günahı olmayan birinci daş atsın" sözləri bizdə aktual olaraq qalır. Qırmızı fənər küçəsinin sakinləri başqalarını qırmızı köynək geyməkdə suçlayır.

İsa demişkən, İsa Qəmbərin başına gələni də yazaq. Yapistlərin lideri ilə şəkil çəkdirdiyi üçün Avropanın burdakı nümayəndəsi Aleks müəllim Şahtaxtinskini (Avropanın pislərindən, üz qaralarından biri olan bu tip elə əslən bizimki idi) geri çağırdılar. Tam tərsinə, Avropada İsa Qəmbərlə şəkil çəkdirib mühacirət haqqı alanlar var imiş. İsa Qəmbərin şəkli Avropada açar imiş, bizdə isə qapıları bağlayır. Eyni zamanda, prezident Əliyevlə çəkilən şəkil Bakıda hörmət, Brüsseldə töhmət gətirirmiş. Belə çıxır ki, İsa Qəmbər daha çox avropalıdır. İsa bəydən xahiş eləyək, bütün Azərbaycanla şəkil çəkdirsin, ölkəni vuraq qoltuğumuza, köçək gedək bu yolayrıcından. Gedək, nəhayət, avropalı olaq. İsa Qəmbərə istefa - niyə vaxtında hamımızla şəkil çəkdirməyib?! Bə mənim viza-şəklim hanı?

Xarici İşlər Nazirliyimizdəki "layk" biabırçılığını da yəqin bilirsiniz. İndi bu düşük qurum hansısa ATƏT Minsk Qrupunu avaraçılıqda nə cür suçlaya bilər? Özləri oturub hansı işçinin kimin facebook statusunu "layk" elədiyini güdürmüşlər. Qəfildən Spartaka dönmüş Arif Məmmədov da gülməli fiqurdur. Neft pulları azalan kimi gəmini tərk edən siçovula bənzədiyini hiss eləmirmi? Əmin olun ki, sabah barrel bir az qalxsa bu adam yenə 20 illik mahiyyətinə qayıdacaq. "Bizim Cəbiş müəllim" filmində deyilən kimi: "Acından belə eləyirlər e..."

XİN-in penoplastdan çəkdiyi üzlük də yandı, xarici siyasətimizin necə maymaqların əlində olması göründü. Bəs indi nə etməli? Məncə ora "bandotdel"dən uşaqlar cəlb edilsin. Hər halda onlar hər iti-qurdu "layk" eləməzlər. Çoxu heç internet nədir bilmir. Nələrinə lazımdır? Yaşayırlar özləri üçün. Əsas odur güləşə bilirlər.

İraqda Səddam Hüseyn zamanında bir xarici işlər naziri, sonradan vitse-prezident olmuş şəxs vardı: Tarik Əziz. Prinsipcə, elə axmaq adam deyildi, amma amerikalılar 2003-cü ildə İraqı işğal edəndə Tariq bəy dünya KİV-lərinin əsas lətifə mövzularından biri olmuşdu. Çünki yorulmadan Səddampərəst bəyənatlar verirdi. Təsəvvür edin, ABŞ ordusu "Tomahavk" raketləri ilə Bağdadın altını üstünə çevirmişdi, Bəsrə yanırdı, İraq ordusunun generalları Səddamı beş qəpiyə satıb aradan cırırdılar və o boyda dövlət demək olar bir həftəyə çökdü, amma Tarik Əziz deyirdi: "Biz son damla qanımıza qədər vuruşuruq! İraq qalib gələcək! Az qalıb, Amerikanı mələdirik!" və sairə.

Bax, həmin Tariq Əziz elə bu günlərdə, 5 iyunda İraq türməsində öldü. Yeri gəlmişkən, o, İraq XİN-dən qabaq İraq informasiya naziri də işləmişdi, bir növ, "İraqın Hikmət Hacıyevi" adlandırmaq olardı. Əlbəttə, ranqlar çox fərqli olsa da. Taleləri oxşamasın, nə deyək.

## İlin əsas idman hadisəsi ətrafında əsəb savaşının gizli məqamları

# Avropa Oyunları və Bakı-Avropa savaşı - pərdəarxası

### Qərb Azərbaycandan siyasi dustaqların azadlığı və insan haqlarından daha artığını istəyir; baş tutmayan "ikinci erməni dövləti layihəsi" və Qərbin güclənən təhdidləri; Milli Şuranın şok separat mövqeyi - Müsavat niyə təkləndi...



**Azərbaycan ölkənin idman tarixi üçün çox mühüm olan bir həftəyə daxil olub. 4 gündən sonra I Bakı Avropa Yay Oyunlarının təntənəli açılışı olacaq. Bu, hər bir vətəndaş kimi, bizi də qürurlandıran böyük bir hadisədir. Ölkəyə minlərlə əcnəbi idmançı və tamaşaçı axışacaq. İlkin məlumatlara görə, açılış mərasiminə Türkiyə, Rusiya və Serbiyanın prezidentləri, bir sıra digər ölkələrin dövlət və hökumət başçıları təşrif buyuracaq.**

****

Ancaq müşahidələr göstərir ki, bu böyük idman tədbiri qeyri-idman hadisəsi kimi də yadda qala bilər.

Artıq bir müddətdir ki, iri Avropa dövlətləri, Qərbin demokratiya paytaxtları və mötəbər institutları "...yarışın bəşəri dəyərlər baxımından daha azad Azərbaycanda keçirilməsi zəruriliyi"ni bildirir, bunun üçün də ilk növbədə siyasi dustaqların azadlığa buraxılmasına çağırışlar edirlər.

Onların məntiqincə, Avropa Oyunlarının fəlsəfəsi hər şeydən öncə barış, bərabərlik, tolerantlıq, ümumbəşəri dəyərlərə sayğı, bayram anlamı daşıdığından, üstəgəl, təməl insan haqları dövlətlərin daxili işi sayılmadığından, bu cür tədbirin keçildiyi ölkədə siyasi əqidəsinə görə həbsdə yatan da olmamalıdır.

Belə yanaşma, təbii ki, adekvat olaraq rəsmi Bakıda qıcıq, hətta sərt reaksiyalar doğurur. Çünki hakimiyyətin yanaşması belədir ki, insan haqları Azərbaycanın daxili işidir, üstəlik, ölkədə siyasi əqidəsinə görə həbs olunan yoxdur və ümumiyyətlə, idmanı siyasətə qatmaq olmaz.

*****

Əslində isə hər şey heç də göründüyü kimi deyil. Avropa və Amerika Azərbaycanda insan haqları, azadlıqların məhdudlaşdırılması məsələsi ilə yalnız oynayır; Qərb paytaxtlarının heç vecinə də deyil; bunu da illərdir sübut ediblər; Azərbaycanda insan haqlarının durumu necədir, azadlıqlar hansı dərəcədə məhdudlaşdırılır... Onlar üçün maraqlı olan tabeçilik və nəzarət paketinin əllərində olmasıdır. İnsan haqlarına riayət olunmayan, heç bir siyasi azadlığın mövcud olmadığı Səudiyyə Ərəbistanı hazırda Amerikanın, Qərb paytaxtlarının neft və dünyaya nəzarət savaşında əsas müttəfiqi deyilmi? Qərb ölkələrinin prezidentləri, başda hörmətli Barak Hüseyn Obama olmaqla, Səudiyyə Krallarının qarşısında ikiqat təzimlə əyilmirlərmi...

Nümunə yalnız Səudiyyə Ərəbistanı deyil. Yaxın tarixdə və hazırkı dünyada onlarla belə faktlar var. Özbəkistana, Türkmənistana, Ərəb krallıqlarına, İrana, İraqa və digər müsəlman ölkələrinə baxanda, daha sivil, daha dünyəvi və demokratik ölkə təsiri bağışlayan Azərbaycana Qərbin münasibətində demokratiya heç zaman prioritet olmayıb. 2003-cü ildə "Bizim Azərbaycan" blokunun lideri İsa Qəmbər seçkilərdə dünyanı şaşırdacaq nəticələr göstərəndə Qərb paytaxtları onu yox, indiki prezident İlham Əliyevi dəstəklədi; başqanın tərəfdarları, o cümlədən oxuduğunuz bu qəzetin baş redaktoru da 17 ayını məhz Vaşinqtonun xeyir-duası ilə həbsxana divarları arxasında keçirtdi.

*****

İndiki hakimiyyət Vaşinqton-London-Brüssel-Moskva - Ankara - Tel-Əvivin birgə layihəsidir. Regionda Qərb paytaxtlarının ən sadiq və yaxın, xüsusi təyinatlı partnyoru olub. İndi də belədir. Qərb paytaxtları, dünya çapındakı quruluş və təşkilatları iqtidarımızla birgə Azərbaycan sərvətlərindən faydalanır. Həm də təkcə bundan yox. Qərb, özəlliklə də ABŞ Azərbaycanın ərazisinin xüsusi strateji əhəmiyyətindən də gen-bol yararlanır. Hərbi-siyasi-iqtisadi sferada tam və strateji əməkdaşlıqlar mövcuddur.

Lakin ortada bir gerçəklik var: onların gözlədiyinin əksinə olaraq, prezident Əliyev öz rejiminin oyuncaq olmasına imkan vermədi, xarakter və inad göstərdi; qlobal təhlükələr və dünya miqyasında gedən oyunlardan məharətlə istifadə edərək, hakimiyyətini və mövqelərini gücləndirdi. O, artıq 2003-cü ildəki asılı Azərbaycana deyil, zəngin və geostrateji əhəmiyyəti 10 dəfələrlə artmış bir ölkəyə rəhbərlik edir. Təbii ki, insan haqlarını da, azadlıqları da məhdudlaşdırır; lakin 2003-2005-ci illərdə bu sahələrdə vəziyyət daha problemli idi; buna baxmayaraq, Qərb paytaxtları onu dəstəkləyirdi. Əliyev siyasi rəqibləri ilə sərt rəftar edir; lakin dünyanın nəhəng güclərinin istədiyi də olmur - ermənilərlə daha aqressivdir və Qərbin planladığı 2-ci erməni dövlətinin - "Dağlıq Qarabağ Respublikası"nın yaranmasına da heç cür imkan vermir. İlham Əliyev 2009-cu ildə Amerika rəhbərinin onu Türkiyəyə çağırmasına belə neqativ cavab verdi: getmədi; Ərdoğana da "yox" dedi; beləliklə, Qarabağ məsələsində onun güzəştə getməyəcəyini dünya da, Azərbaycan da bilmiş oldu. Məhz o zamandan, məhz o "yox"dan sonra Azərbaycan iqtidarının lideri Qərbin açıq-gizli hədəfinə gəldi. Proses davam edir.

Dahası da var - ondan və Azərbaycandan Rusiyaya qarşı plasdarm, vasitə, ön cəbhə kimi istifadə etmək mümkün olmur. Daha nə? Əliyev Qərbin, xüsusi ilə də Amerikanın Azərbaycanın vətəndaş cəmiyyətinə müdaxiləsini və sözün həqiqi mənasında, nəzarətini bitirdi! Maliyyə axını xətlərini, KİV-lərini qapatdı, Qərbə öz ölkəsindən daha çox bağlı olan ictimai fiqurları həbs etdi, ölkədən çıxartdı; bununla da cəmiyyətdəki kontrol paketini bitirdi...

Bütün bunlara "yaxşıdır" demirik; prosesin pərdə arxasında qalan nüanslarını yada salır, bəzən də göstəririk.

****

İndi ortada sanki Bakı-Qərb münasibətlərinin davası gedir. APA-nın ötən həftəsonu Yunanıstan səfirliyini Avropa Birliyi ilə Azərbaycana qarşı ortaq iş birliyində suçlaması, eyni gündə Azərbaycan Xarici İşlər Nazirliyinin ATƏT-in Bakıdakı layihə koordinatorluğunun bağlanması haqda quruma nota göndərməsi də sanki bu prosesin təsdiq arqumetləridir. Və bir çoxlarına da elə gəlir ki, ABŞ və Avropa bizim dustaqxanadakı siyasi məhbuslara görə bunca dava açıb, İlham Əliyev onları buraxsa, dərhal təzyiqlər dayanacaq. Hətta bəzi ekspertlər iddia edirlər ki, Azərbaycan prezidenti İlham Əliyev gec də olsa, siyasi məhbusların bir qismi ilə bağlı əfv sərəncamı verməklə situasiyanı xeyli yumşalda, gərginliyi götürə bilər. Bununla Avropa Parlamentində iyunun 10-da Azərbaycanla bağlı gözlənilən xoşagəlməz müzakirələr də böyük ölçüdə əhəmiyyətini itirmiş olar, ən önəmlisi, Avropa Yay Oyunlarının keçirildiyi 16 gün ərzində ölkəmiz Qərb mətbuatının diqqətində insan haqlarının durumuna görə yox, daha çox beynəlxalq idman yarışına görə diqqətdə saxlanılardı.

******

Bunun olmasını biz də istərdik; qəzetimizin köşə yazarı dustaqdır! Lakin hər şey onlara görə deyil! Rusiya və İran arasında uğurla manevr edən, Qərb dəyərlərini dəstəklədiyini hər fürsətdə bildirən, hərbi-iqtisadi-strateji müttəfiqlikdən qaçmayan, üstəlik, Avropa Oyunları üçün bu qədər riskə və xərcə gedən Azərbaycan Amerika və Avropa üçün ciddi və vazkeçilməz dövlətdir. Qərb paytaxtları ikili standartları və aşırı praqmatizmi hər zaman prioritet hesab edib. Belə bir güc əgər bu dərəcədə bir ölkənin, onun rəhbərinin üstünə gəlirsə, ondan insan haqlarından daha artıq şeylər istənilir, deməkdir...

****

Sonda AYO ilə bağlı daxili siyasətdəki bir mühüm bir detala da işıq tutaq. Hamıya məlumdur ki, ciddi müxalif siyasi qüvvələrdən biri - Müsavat siyasi məhbuslara görə açılış mərasimini boykota çağırıb. Ölkənin siyasi müxalifətini təşkil edən komponentlərdən ancaq biri - yalnız Müsavat Partiyası AYO-ya qarşı boykot çağırışı edib. Özünü mövcud hakimiyyətə qarşı barışmaz, radikal müxalifət edən AXCP və onun nəzarətində olan Milli Şura belə bir çağırış etmədi. Müşahidəçilər bunu heyrətlə qarşılasalar da, siyasi bilgiləri olanlar məsələnin kökünü dərhal öyrəndilər. Burada əsas rolu Milli Şuranın sədri professor Cəmil Həsənli oynayıb. Onun hakimiyyətin bir qanadı ilə olan dərin və separat mövqeyi AXCP-nin və Milli Şuranın AYO məsələsində loyal mövqe tutması ilə nəticələnib. AXCP daxilindən verilən məlumatda iddia olunur ki, "qırğı sədr" Əli Kərimli bu məsələdə ona təzyiq edən silahdaşlarına deyib: "Ürəyimizə daş basıb, dözməliyik, boykot çağırışı etməməliyik. Bu qoca ....n istefası ilə hədələyərək, israr etdi, mən də razılaşdım, başqa yolum qalmadı... "

Qeyd edək ki, Müsavat Partiyasının məhz təkbaşına boykot çağırışı AYO-dan sonra ona qarşı daha kəskin repressiyalara səbəb ola bilər.

❑ Analitik xidmət

YENİ MÜSAVAT
N 123 (6151) 8 iyun 2015

**Müsavatda məlum mühacir qalmaqalı böyüyür. Partiyanın saxta mühacirlərlə bağlı verdiyi bəyanat mətbuata “bomba” kimi düşdü. Ardınca qarşılıqlı ittihamlar başladı. Başlayan prosesdə əsas gündəmə gələn şəxs Belçikada oturum almağa çalışan mühacir Elnur Mirzəyev oldu. Buna səbəb də Müsavatın bəyanatında onun adının keçməsidir.**

# Gülağa Aslanlı “mühacir biznesi” ittihamlarına cavab verdi

## “Həyatımda mənə olan ən ağır ləkədir...”

Heç şübhəsiz ki, son günlərdə mühacirlərlə bağlı mətbuat və sosial şəbəkələrdəki yazılar bir çox həqiqətləri üzə çıxardı. Əsas tənqid hədəfi Müsavat rəhbərliyi oldu. Səslənən ittihamlarda diqqət çəkən məqamlardan biri də son 6 ayda partiyanın 483 nəfərə Müsavat üzvü olmaqla bağlı arayışların verilməsi iddiası oldu. Bu iddiaları İsveçrədə yaşayan Elbəyi Həsənli səsləndirdi. “Son 6 ayda Müsavat Partiyası tərəfindən vətəndaşlara 483 arayış verilib. Əksəriyyəti də Gülağa Aslanlı tərəfindən imzalanıb. Bunları kimlərə və niyə vermisiniz? Ən əsası, neçəyə vermisiniz? Bu elə bir faktdır ki, prokurorluq orqanları dərhal üzə çıxaracaq. Çünki həmin arayışı satın alan vətəndaşların 90 faizi artıq ölkədə yoxdur, xaricə mühacir olmağa gediblər. Təsəvvür edirsinizmi miqyası? Bunlara cavab ver, Gülaga Aslanlı. Mən filan yerdə yox idim demən sənin bu cinayətdə olmaman anlamına gəlməz. Sən cinayətkarsan və həbs olunmalısan ki, Müsavat adından cinayət edən hər kəsə ibrət olsun”.


Gülağa Aslanlı

Barəsində səslənən ağır ittihamlarla bağlı Müsavatın İcra Aparatının rəhbəri Gülağa Aslanlı “Yeni Müsavat”a açıqlamasında bunları dedi: “Qoy istədiklərini desinlər, sonda hamısına birlikdə cavab verəcəm. İndiki halda isə əgər bu insanların əllərində hansısa səhv hərəkətimi təsdiqləyən faktlar varsa, yubanmadan aidiyyəti orqanlara təqdim etsinlər. Bundan sonra cavab verməyə hazıram. Eyni zamanda, mən də haqqımda şər-böhtan, yalan xəbər yaydıqlarına görə o şəxslərin cəzalandırılması istiqamətində araşdırmalar aparıram”.

Gülağa Aslanlı partiyada son günlərdə səslənən ittihamlarla bağlı hər hansı bir araşdırma aparılmadığını da qeyd etdi: “Olan bir şey üçün araşdırma aparılmalıdır. Olmayan bir şey üçün nə yaradılmadır? Şər üçün nə yarada bilərik? Elbəyi Həsənli başdan-ayağa iftira, yalandır. Onun barəmdə yazdıqlarının biri belə təsdiq olunarsa, hər şeyə hazıram. Amma bu ittihamların partiyada araşdırılmasına gərək yoxdur. Əgər partiya gərək bilərsə, hər hansı araşdırma aparıla bilər. İndiki halda söylənilən fikirlərin içərisində həqiqətə uyğun heç bir şey yoxdur. Dedikləri fikirləri buyurub təsdiq edə bilərlər”.

Müsavat funksioneri hədəf seçilməsinə də münasibət bildirdi: “Bu, vahid bir mərkəzin əməlləridir. 15 gün bundan öncəyə qədər məndən çox Səxavət Soltanlı və Elman Fəttahdan yazırdılar. Görəndə ki, bir şey alınmadı, indi növbəti hədəf kimi partiyada vəzifəsinə görə ikinci şəxs sayılan Gülağa Aslanlını seçdilər. Haqqımda yazılanlar tamamilə yalan, iftiradır. Bu adam görün hansı səviyyə yiyəsidir ki, iştirak etmədiyim məclisdə şəkil çəkdirənlərə ”dirijor"luq etdiyimi yazır. Hər iftiranı bağışlaya bilərdim, amma o məsələni bağışlamayacağam. Həmin vaxt Moskvada idim. Qardaşım əməliyyat olunurdu. Tofiq bəyə telefonla başsağlığı verdim. Bunu Müsavatda bilməyən yoxdur. O deyir ki, gözümün qarşısında baş verib. Ona inananlar da ola bilər. Həyatımda mənə olan ən ağır ləkədir. Bunun üstündən keçməyəcəyəm".

Sonda qeyd edək ki, bu işin araşdırılmasında Azərbaycandakı aidiyyəti dövlət orqanları da maraqlı olmalıdır. Çünki istənilən halda bu cür müzakirələr ölkənin imicinə də ağır zərbə vurur.

❑ **Cavanşir ABBASLI**

# Partiyadan konsulluq kimi istifadə edənlər



**Xalid KAZIMLI**

**Bu mövzuda əvvəllər də bir neçə dəfə yazmışıq. Ancaq hazırda bu söhbət aktualdır və ona yenidən münasibət bildirməyə ehtiyac var. İndi sizə mühacirətə getmək təşəbbüsü ilə bağlı canlı şahidi olduğum iki olaydan bəhs edəcəyəm.**

20 il öncəydi, 1995-ci ilin parlament seçkilərinə buraxılmayan Müsavat partiyası zərbə almışdı, buna baxmayaraq, partiyaya axın vardı, hər gün yeni üzvlər qəbul edilirdi. Bir gün rayon təşkilatının növbəti iclasında bir nəfər otağa daxil oldu və partiyaya qəbul olunmaq istədiyini dedi. Adamın bazburutuna, üst-başına baxdıq və baxışdıq. O dönəmdə bəlkə də heç bir nazirin bu cür səliqəli və bahalı geyimi yox idi. Adam rifah saçırdı, sanki yüksək ranqlı diplomatdır və elə indicə Moskvadan gəlib. Sual çıxdı: bu hara, Müsavat hara? Bu nədən birdən-birə müxalifətçi olmaq istəsin ki? Soruşduq, sorğuladıq. Məlum oldu ki, adam bizim rayondandır, doğrudan da Moskvadan gəlib, biznesmendir. Ona xalq hərəkatı, Müsavat, müsavatçılıq ideologiyası ilə bağlı suallar verdik. Heç birinə cavab verə bilmədi və qəfildən səmimi şəkildə dedi: “Eloğlular, mən Müsavat, Cəbhə, müxalifət-zad bilən adam deyiləm. Moskvada işim-gücüm var. Amma vəziyyət dəyişib. Ortaqlarım Almaniyaya köçüblər, işimizi də ora köçürmüşük. Mən də Almaniyaya getməliyəm. Bundan ötrü siyasi sığınacaq almalıyam. Dostlar deyirlər ki, Müsavatın biletini al, gəl, təşkil edək. Ona görə gəlmişəm”.

Onun bu cür səmimi danışığı rayon təşkilatının rəhbərlərindən bir-ikisinin xoşuna gəldi, dedilər, gəlin qəbul edək, qoy bir eloğlumuzun işi də bizim hesabımıza düzəlsin. Amma təşkilatdakı idealist, prinsipial şəxslər qəti etiraz etdilər, dedilər ki, yox, bu gedib Almaniyada milyonçu olacaq, biz burda polis dəyənəyinin altında qalacağıq, bundan bizə nə xeyir var.

Polemika uzandı və axırda qərara gəldik ki, əgər adam partiya biletini alıb dərhal ölkədən gedəcəksə, ondan nə Müsavata, nə də bu xalqa bir fayda olmayacaq. Ona görə də eloğlumuzu pərt-pəjmürdə halda yola saldıq. O da bizə borclu qalmadı, qapıdan çıxanda AXC-Müsavat hakimiyyətinə qarşı qısa və nifrətamiz bir çıxış etdi. Məlum oldu ki, adam bütün təbiəti ilə xalq hərəkatına, Müsavata qarşı olan bir şəxsdir, sadəcə, işi aşırmış deyə sifətinə saxta təbəssüm verərək, bilet almağa gəlib.

İkinci epizod isə günü, ayı, ili ilə yadımdadır. 2003-cü ilin oktyabr ayının 13-ü idi, prezident seçkilərinə iki gün qalmışdı. Müsavat partiyasının qərargahında və “Yeni Müsavat” qəzetinin redaksiyasında partiyaya üzv olmaq üçün gələnlərin əlindən iynə atsan yerə düşməzdi. Onların içində yaşı 70 civarında olan, geyimindən, kecimindən keçmiş vəzifə adamı olduğu hiss edilən, ötkəm xasiyyətli bir ağsaqqal da vardı. Yaxınlaşıb partiyaya üzv olmaq istədiyini dedi. Onu yeni üzvlərin qəbul olundu ikinci mərtəbəyə göndərməzdən öncə bir az danışdırdım, sinninin bu çağında partiyaya keçməkdə məqsədinin nə olduğunu soruşdum.

Ağsaqqal da səmimi danışdı, dedi, oğlu, gəlini, nəvələri Hollandiyada yaşayır, indi istəyirlər ki, o da gəlsin, deyiblər, bundan ötrü Müsavatın bileti lazımdır, ona görə partiyaya keçmək istəyir ki, bileti alan kimi getsin. Onu aşağıya göndərdik, ta bilmədik, növbəyə durub partiyaya keçə bildi, ya yox.

Bu cür insanlar çoxdur. Onlar hər zaman oyaqdırlar, tendensiyaları hamıdan tez duyurlar, başqalarından qabağa düşmək, aradan vaxtında çıxmaq üçün hər üsula əl atır, hətta siyasi partiyadan konsulluq kimi istifadə etməyi bacarırlar.

İndi bəzi dostlar deyirlər ki, eybi yox, bir sıra həmvətənlərimizin həyatı bu cür dəyişirsə, kömək edək, getsinlər, sıxıntıdan qurtulsunlar.

Ancaq bir həqiqət var: o cür adamlar heç burda da sıxıntıda deyillər, bir seçkiyə qatılmazlar, bir mitinqə çıxmazlar, həmişə ortada yeyib qıraqda gəzərlər, faydalanmaq lazım gələndə isə hamıdan qabağa soxulارlar. Bələlərindən nə bu ölkəyə, nə müxalifətə heç bir fayda yoxdur. Əksinə, xaricə yerləşdikdən bir müddət sonra biletini alıb gəldiyi partiyaya düşmən kəsilir, Azərbaycanın səfirliklərinə gedib özlərini xidmətə təklif edirlər.

Təsəvvür edin, ölkədən guya ki, “təqib-təzyiq üzündən” qaçıblar, amma iki ildən sonra səfirliklərin oyuncağına, maşasına çevrilirlər.

# “Böyük yeddilər”in sammiti Ukrayna böhranını çözə biləcəkmi...

## Elxan Şahinoğlu: “Nə Rusiya geri addım atır, nə də Qərb geri çəkilir; toqquşmaların müharibəyə çevrilmə ehtimalı var”

**Dünən Almaniyada “Böyük yeddilər”in (G7) sammiti işə başlayıb. Sammit Bavariya Alplarındakı Elmau qəsrində keçirilir. Almaniya kansleri Angela Merkelin dəvəti ilə buraya ABŞ prezidenti Barak Obama, Fransa prezidenti Fransua Olland, Böyük Britaniya, İtaliya, Kanada və Yaponiyanın baş nazirləri Devid Kemeron, Matteo Pentsi, Stiven Xarper və Sindzo Abe gəliblər. Avropa İttifaqı İnstitutlarını Avrokomissiyanın və Avropa İttifaqı Şurasının sədrləri Jan-Klod Yunker və Donald Tusk təmsil edirlər.**

BMT-nin baş katibi Pan Gi Mun və Beynəlxalq Valyuta Fondunun direktoru Kristin Laqard sammitə qonaq qismində dəvət olunublar.

G7 çərçivəsində Efiopiya, Liberiya, Nigeriya, Seneqal, Tunis, Cənubi Afrika Respublikası və İraq rəhbərliyinin təmsilçiləri ilə görüş keçiriləcək.

Sammitin əsas mövzuları iqtisadi artım, iqlim və təhlükəsizlik siyasəti, Ukrayna böhranı, Suriya böhranı, İŞİD-lə mübarizə kimi məsələlərdir.

“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu hesab edir ki, G7 sammitinin gündəmində həddən artıq çox mövzuların müzakirəsi var. Bu mövzuları müzakirə etmək məcburiyyətindədirlər, vaxt da azdır. Ən çox müzakirə ediləcək mövzulardan biri Rusiya-Ukrayna məsələsi ola bilər: “Onsuz da G7-nin əsasını təşkil edən Qərb ölkələri Rusiyaya qarşı çox ciddi sanksiyalar qəbul ediblər və bu sanksiyaları hələ yumşaltmaq fikrində deyillər. Eyni zamanda düşünmürəm ki, bu sammitdən sonra sanksiyalar sərtləşsin. Amma məsələnin digər tərəfi var ki, Minsk sazişi imzalanıb atəşkəsə riayət olunmalıdır. Amma son günlər lokal da olsa çox ciddi toqquşmalar qeydə alınıb. Bu toqquşmaların müharibəyə çevrilmə ehtimalı var. Nəzərə alaq ki, yay aylarıdır və adətən yay aylarında müharibələr şiddətlənir. Düşünürəm ki, bu məsələlər də müzakirə olunacaq. Nə Rusiya geri addım atır, nə də Qərb geri çəkilir. Hərəsinin öz israrlı mövqeyi var və onu müdafiə edirlər. Digər tərəfdən Ukrayna daxilində də heç bir proses getmir. Çünki Minsk sazişinə görə həm separatçılar tərəfindən, həm də Ukrayna hakimiyyəti tərəfindən müəyyən addımlar atılmalıdır. Lakin tərəflərdən heç biri addımlar atmır və qəribə bir durum yaranıb. İlk baxışdan sanki münaqişə dondurulub, amma biz diqqət etdikdə görürük ki, heç də dondurulmuş münaqişəyə də bənzəmir, faktiki toqquşmalar qeydə alınır, Rusiya öz siyasətindən geri çəkilmir. Bu günlərdə Vladimir Putinin İtaliyaya səfəri öncəsi verdiyi müsahibəni oxudum. Putin deyir ki, Rusiya Qərbin adekvat addımlara adekvat addımlar atacağıq. Sanksiyalar tətbiq ediləndə bir müddət Rusiyada iqtisadi problemlər yaşandı və belə ehtimallar irəli sürüldü ki, bəlkə bu problemlər Moskvanı Ukrayna məsələsində güzəştə getməyə məcbur edə bilər. Amma bu ehtimallar özünü doğrultmadı”.


Elxan Şahinoğlu

Ekspert vurğuladı ki, Krım xeyli vaxtdır işğal olunub və Rusiyada prezident kim olur-olsun artıq Krımın geri qaytarılması mümkün deyil. Qalır Donbas məsələsi. Putin Donbasın Ukrayna tərkibində varlığını qəbul edir, amma separatçılara təsirləri vasitəsilə Ukraynanın problemlərinin daha da artırılmasından da vaz keçmir. Mixail Saakaşvilinin Odessa vilayətinə qubernator təyinatında da Rusiya amili var: “Rusiyanın planlarından biri separatçılığı Ukraynanın mərkəzlərinə doğru irəlilətməkdir. Saakaşvili Qərbin istəyi ilə ona görə bu vəzifəyə gətirildi ki, Rusiyanın bu planlarını poza bilsin. Artıq Rusiya ilə Dnestryanı arasında əlaqə kəsilir. Bütün bunlar da aydındır ki, Rusiyanı daha da sərtləşdirə bilər və indi gördüyümüz nisbi atəşkəs yenidən pozula bilər. Hər halda bütün bu perspektivlər G7 sammitində müzakirə ediləcək. Bu sammitin Ukrayna böhranını çözə biləcəyi gözlənilmir”.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 123 (6151) 8 iyun 2015

# Kürdə boğulan müsavatçı gəncin ölüm səbəbləri...

## Gənc fəal toyuna hazırlaşırdı; Oruc Novruzov bacısına sonuncu dəfə Azərbaycan bayrağını əmanət edib; Müsavatçı gənc Lahıc torpağında dəfn edilib

**İyunun 4-də günorta saatlarında Kür çayının Kürdəmirdən keçən hissəsində boğularaq dünyasını dəyişən müsavatçı gənc Oruc Novruzov ( Danyal bəy) bir gün sonra torpağa tapşırılıb. Dəfn mərasimi mərhumun yaşadığı İsmayıllının Lahıc qəsəbəsində keçirilib. Yas mərasimində Müsavat başqanı Arif Hacılı başda olmaqla, partiya rəhbərliyi, eləcə də, mərhumun yaxınları və müsavatçı gənclər iştirak edirdilər.**

***

Yolların bərbad vəziyyətdə olması dəfn törəninə gecikməyimizə səbəb oldu. Artıq biz Lahıcda olanda, O.Novruzov torpağa qovuşmuşdu. Yas mərasiminin keçirildiyi ata yurdunda bizi ilk qarşılayan mərhumun bacısı Səyyarə Novruzova oldu. Bacısının dilindən səslənən "qardaşım getdi", "mən onsuz nə edəcəm", "qardaş, məni niyə tərk etdin" fəryadları hamımızı qəhərə boğdu. Mərasimdə iştirak edən hər kəs hələ də faciənin şokundan ayılmamışdı. Hamının gözlərində kədər var idi. Mərhumun atası Bağır kişi nə qədər təmkinli görünməyə çalışsa da, üzündən övlad itkisinin əzabını duymamaq mümkün deyildi. Ömrünü müsavatçılıq ideologiyasına həsr edən məğrur ata, Danyalı (Orucu) da bu ruhda böyütmüşdü.

Bağır Novruzovla oğlunun ölümünün səbəbləri ilə bağlı söhbət etdik. Mərhumun atası oğlu ilə bərabər ən yaxın əqidədaşını da itirdiyini söylədi: "Oruc görüb ki, uşaqlar çimir. Bərk isti olduğuna görə, o da sərinləmək istəyib. Kanalın yaxınlığına gələndə qəflətən ayağı sürüşüb, düşüb kanala. Kanalın içərisindən iki turba keçir. Başı həmin turbaya dəyib. Meyiti gördüm. Başı bərk əzilmişdi. Dəmirə dəyən kimi ölüb. Çünki o əzilməyə beyin davam gətirməz. Evdən çıxanda kanala getməməyi dəfələrlə tapşırmışdım. Çünki kanalların içərisinin dəmirlə dolu olduğunu yaxşı bilirəm. Günorta saatlarında hadisə baş verdi. Meyit axşam saatlarında çıxarıldı. Oğlum şəhiddir. Çünki halal pul qazanmaq üçün getmişdi. Sürümüz var, onu otarırdı. Heç vaxt haram pul arxasınca getməzdi. İnsanı yaşadan ümiddir. Sona qədər ümidim var idi. Amma olmadı. Danyal birdəfəlik getdi. Oğlum yaxşı üzürdü. O, heç vaxt əyilmədi. Kişi kimi yaşadı. Pul düşkünü deyildi. Ona əqidəsinə görə çox təzyiqlər oldu. Amma sınmadı. Ailəmiz çox faciələr yaşayıb. Qardaşımı Qazaxıstanda öldürdülər. Sanki faciələr yaşamağa öyrəşmişik. Oruca əmimin adını vermişəm. Yeniyetmə yaşında öldürülüb. Danyal ləqəbini özü götürmüşdü. Şeyx Şamilə və müridlərinə böyük hörməti vardı. Onun müridlərindən birinin adını götürdü. Oğlum bu vətəni ürəkdən sevən bir insan idi. Danyalla ata-baladan əvvəl dost idik. Aramızda dostluq bağı var idi. Ölümü ilə bu bağ qırıldı. Mənə "Ağami" deyirdi. Nə məsələ olsa, mənimlə məsləhətləşərdi. Çox diribaş uşaq idi. Çətin anlardan məharətlə çıxırdı. Səhv edən kimi, anında üzr istəyirdi. Bir daha etdiyi səhvi təkrarlamazdı. Müsavatçı əqidədaşımı itirdim. Barışmaqdan başqa çarəmiz də yoxdur. Hamımızı Allah yaradıb. Sonunda hamımız bu həyatdan köçəcəyik. Amma çox tez həyatdan köçdü Danyal. Allah rəhmət eləsin. Dəstəyə görə hər kəsə təşəkkür edirəm".








Müsavatçı gəncin bacısı Səyyarə Novruzova qardaşının son dəfə ona Azərbaycan bayrağını əmanət etdiyini qeyd etdi: "İnsan gedəndə sevdiyi insana əmanət edir. Mən də qardaşımı Allaha əmanət etdim. Bir bacı kimi, çox təəssüf edirəm. Gənc idi. Həyatı qabaqda idi. Taleyi belə imiş. Nərgiz də getdi, Danyal da. Hara baxsam, qardaşımı görəcəm. Ondan mənə bayrağımız yadigar qaldı. Gedəndə demişdi ki, göz bəbəyin kimi qoru. Bundan sonra hara getsəm, o bayraq mənimlə olacaq. Xəbəri eşidəndə, şokdan uzun müddət ayılmadım. Atam, anam şikəst adamlardır. Sonuncu dəfə evdən çıxanda dedi ki, qayıdanda evlənəcəyəm. Çox sadə, səmimi, eyni zamanda sərt insan idi. Haqsızlığa dözmürdü. Həmişə deyirdi ki, zülm olan yerdə, ədalət ola bilməz. Onunla bağlı ömrüm boyu unutmayacağım xatirələr qaldı. Sevdiyi bir qız var idi. Çox zəngin idilər. Qızın atası çağırıb qardaşıma dedi ki, əqidəndən geri çəkil, qızımı səndən yaxşısına verəsi deyiləm ki. Çünki qızın atası dövlət işində işləyirdi. Oruc isə qəti şəkildə bundan imtina etdi. Qardaş itkisi çox ağır olur. Yoxluğuna alışmaq bizim üçün çətin olacaq. Çox zülmlər çəkirdi. Zəhmətkeş qardaş idi. Sanki öləcəyini bilirmiş kimi, facebook parolunu bir həftə öncə mənə vermişdi. Heyf qardaşımdan. Yaşamaq istəyirdi, gələcək arzuları var idi".

Mərhumun dayısı Əhtiyar Məmmədov da çox üzgün idi: "Uşaqlar deyirmiş ki, bir-iki gün də qalaq. Amma Oruc razı olmayıb. Sanki ölümə tələsirmiş. Meyitini gördüm. Suya atılan kimi ölüb. Çünki meyit şişməmişdi. Qısa olsa da, bacım oğlu şərəflə yaşadı".

O.Novruzovun qardaşı Babək Novruzov yeganə qardaşının ölümü ilə barışa bilmədiyini söylədi: "Qardaş itkisi belimi qırdı. Dünyam dağıldı. Xəbəri eşidəndən sanki mən də ölmüşəm".

## Səyyarə Novruzova: "Sevdiyi bir qız var idi..."

Danyal Kürə düşərkən onun yanında olan Fərman adlı şəxs gördüklərini belə nəql etdi: "Sürünün qabağında mən gedirdim. Danyal arxada idi. Günorta vaxtı dedi ki, bərk istidir. Yaxşı üzdüyünü bilirdim. Yanımızdan aralanıb çimməyə getdi. Bir azdan uşaqların qaçışdığını gördüm. Nə baş verdiyini soruşanda dedilər ki, kanalda batan var. Ətrafa baxdım, Danyalı görmədim. Onda bildim ki, boğulan odur. 102-yə zəng vurdum. Ondan sonra xilasedicilər gəldi. 2 saatdan sonra gəldilər. Uzun axtarışlardan sonra tapıldı. Uşaqlar Danyala deyiblər ki, o yerdən tullanma. Hətta dəmir olduğunu da deyiblər. Sözlərinə inanmayıb. Uşaqlar qorxub qaçıblar. Sürüşmə ehtimalına inanmıram. Paltarlı çimməsinə səbəb çirkli olması idi. Mənə əvvəldən demişdi ki, paltarlarımı yuyacam. Batmasından 10 dəqiqə sonra xəbər tutdum. Uzun müddət idi ki, yoldaşlıq edirdik. Çox yaxşı yoldaşlığı var idi. Qardaşdan bəlkə də, yaxın idik. Dostu darda qoymayan, mərifətli, mərd birisi idi. Onun ölümü mənə ağır təsir etdi. O, daim yaddaşımda qalacaq".

***

Yas mərasimi vaxtı Danyalın anası oğlunun müsavatçı gənc dostlarını yanına çağırdı. Bir ananın fəryadını yaxından eşitmək çox ağır idi. Ana oğlunun mübarizəsini sona qədər davam etdirməyi xahiş etdi. Müsavatçı gənclərin hər biri daim onların yanında olacaqlarını, Danyalın mübarizəsini sona qədər davam etdirəcəklərini söylədilər.

Yas mərasimindən sonra müsavatçılar mərhumun məzarını ziyarət etdilər. AXCP üzvü Məhəmməd Məcidli fatihə verdikdən sonra çıxışlar oldu.

Müsavat başqanı Arif Hacılı O.Novruzovun siyasi proseslərdə daim aktiv iştirak etdiyini bildirdi: "Orucu Danyal kimi tanıyırdıq. O, siyasi proseslərə məktəbdə oxuduğu vaxtlardan dəstək verən gənc idi. Müsavata bağlı insan idi. Azərbaycanın gələcəyi üçün hər cür fədakarlığa hazır olan adamlardan biri idi. Gənclərə məxsus bəzi xüsusiyyətlər ona da məxsus idi. Müəyyən ziddiyyətli xüsusiyyətləri olsa da, demokratiyaya daim töhfəsini verib. İki il öncəki prezident seçkilərində də çox fədakarlıq etmişdi. Müsavat, cəmiyyət üçün böyük itkidir. İlk növbədə, ailəsi üçün ağır itkidir. Allah rəhmət eləsin".

Müsavatın sabiq Divan üzvü Tural Abbaslı Danyalın apardığı mübarizəsini qalibiyyətlə başa çatdıracaqlarını söylədi: "Onun bütün hədəflərini yerinə yetirəcəyik. Əminəm ki, valideynləri bunun şahidi olacaqlar. Danyal hər şeydən əvvəl, sədaqətli dost idi. Dostlarını heç zaman çətin vəziyyətdə qoymazdı. Allah sevdiklərini öz yanına daha tez aparır. Qəbri nurla dolsun".

Müsavat Məclisinin üzvü Lətafət Məlikova bildirdi ki, Danyal ölümü ilə də Müsavata xidmət etdi: "İlk dəfə Lahıca gəlirəm. Danyalın ölümü bizi burada topladı. Lahıc deyəndə əvvəllər Rəsulzadə, Elçibəy yada düşürdü. Bundan sonra Lahıc deyəndə, Danyalı da xatırlayacağıq. Axır qəmimiz olsun".

Müsavat Divanının üzvü Başxanım Abbaslı Oruc Novruzovun onun əziz qonaqlarından biri olduğunu qeyd etdi: "Danyal müsavatçı qadınların istəklisi idi. Ən əziz qonaqlarımdan biri olub. Qeyrətli gənclərimizdən biri idi. Qəbri nurla dolsun. Yaxınlarına Allah səbir versin. Belə bir gənci itirmək xalqımız, Müsavatımız üçün çox ağırdır".

Hüquq müdafiəçisi Elşən Həsənov tezliklə gənclərin Danyalın arzularını yerinə yetirəcəklərini bildirdi: "Müsavatçı gənclər daim bir arada olublar. Onlardan biri də Danyal idi. İnanıram ki, onun arzularını gənc dostları yerinə yetirəcəklər. Allah rəhmət eləsin".

Müsavat Qadınlar Birliyinin keçmiş sədri Ellada Məmmədli sarsıdıcı xəbərin şokunda olduqlarından danışdı: "Nərgizin qırxı təzə çıxdı. İndi də Danyalı itirmək bizim üçün çox ağırdır. Hər birimizin qəlbində onun yeri var. İki həftə öncə mənə dedi ki, mütləq bu il toy edəcəyəm, hamınızı çağıracam. Bilməzdim ki, ilk dəfə ayağımı Danyalın yasına görə Lahıca basacam. Olduqca ağır itkidir. Başımız sağ olsun".

Müsavat başqanının sabiq müşaviri Əhəd Məmmədli müsavatçı gəncin özünə seçdiyi Danyal Sultan ləqəbinə layiq olduğunu söylədi: "Danyal həyatda seçdiyi yoldaşlarına, getdiyi yoldakı əqidə dostlarına sadiq idi. Sona qədər sadiqliyini qorudu. Bizim üçün ağır itki oldu. Bizdən getdi. Müsavat Danyal, Nərgiz, Alqayıtdır. Bu yolda həyatlarını veriblər. Danyal Müsavat tarixində Alqayıt kimi şəhiddir. Allah bizlərə səbir versin".



❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 123 (6151) 8 iyun 2015



# Həmsədrlik "üçlük"dən "beşliyə" çevrilsə...

## ATƏT sədri də formatın dəyişdirilməsini mümkün sayır; ancaq daha vacibi "vasitəçi" Rusiyanın destruktiv rolunu neytrallaşdırmaqdır; Kremlin "danışan dili"ndən Bakıya yeni Qarabağ şantajı...

**Dağlıq Qarabağ danışıqlarında ötən ilin 27 oktyabrından başlayan növbəti durğunluq zolağı davam edir. Belə görünür, problemin həllinə əsas məsul olan qurum - ATƏT-in Minsk Qrupunun həmsədrləri də vaxtaşırı bölgəyə səfər eləməklə öz missiyalarını bitmiş hesab edirlər.**



Status-kvonun uzanması isə, təbii ki, ən çox Azərbaycanın maraqlarına cavab vermir, çünki ərazisi işğal altında olan tərəf, işğala məruz qalan ölkə məhz odur. Bu üzdən rəsmi Bakı ölkənin hərbi qüdrətini durmadan artırmaqla yanaşı, vasitəçilik institutuna yeni dinamika vermək üçün də yollar axtarışındadır. Bu yollardan biri həmsədrlik institutunun digər sanballı və daha obyektiv mövqeli dövlətlər, məsələn, Almaniya, Böyük Britaniya hesabına genişləndirməkdir. Türkiyənin namizədliyi də öz yerində.

Doğrudur, hələ ki, Ermənistan və Rusiya buna skeptik yanaşır, ona görə ki, İrəvan təzə və daha obyektiv vasitəçi dövlətlərdən ehtiyat edirsə (indiki 3 həmsədr kifayət qədər ermənipərəst mövqedədir), Moskva da vasitəçilik missiyasını başqa bir dövlətlə bölüşməkdə, sadəcə, maraqlı deyil.

***

Diqqət çəkəndir ki, ötən həftə bölgəyə səfəri çərçivəsində Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində Minsk Qrupunun yeganə "dialoq formatı" olduğunu qeyd edən ATƏT-in fəaliyyətdə olan sədri, Serbiya XİN başçısı İvica Daçiç eyni zamanda Bakının Minsk Qrupunun genişləndirilməsinə dair təklifinin də müzakirə ediləcəyi ehtimalının olduğunu söyləyib.

"Azərbaycan mənə Minsk Qrupunda fəaliyyət göstərən həmsədrlərin sayının artırılmasına dair öz təklifini təqdim edib. Bu, yeni təklif deyil, lakin belə bir təklifin qəbul olunması üçün bütün iştirakçı ölkələrin konsensus əsasında qəbul olunmuş qərarı olmalıdır", - Daçiç İrəvanda Ermənistan xarici işlər naziri Edvard Nalbandyanla birgə mətbuat konfransında deyib.

ATƏT sədri Ermənistandan əvvəl Bakıda Azərbaycan rəhbərliyi ilə görüşdüyünü xatırladaraq bu təklifin müzakirə olunacağı ehtimalını istisna etməyib, lakin əlavə edib ki, Minsk Qrupu öz işini davam etdirməlidir. O, İrəvanda Bakı görüşləri əsnasında dediyini bir daha təkrar edib ki, ola bilsin, status kimi çətin olmayan müəyyən məsələləri müzakirə etmək mümkündür: "Gündəlik həyata aid - itkin düşənlər, qaçqınlar məsələlərini araşdırmaq olar. Digər tərəfdən, müharibə şəraiti davam etdiyi zaman bu mümkün deyil. Bu, o deməkdir ki, sülhü gücləndirməli, atəşkəs rejiminə əməl edilməsinə dair çoxdan imzalanmış razılaşmaları möhkəmlətməliyik".

***

Bu yerdə yada salaq ki, ATƏT PA-da Siyasi məsələlər və təhlükəsizlik komitəsi sədrinin müavini, deputat Azay Quliyev Almaniya və Türkiyənin münaqişənin Minsk Qrupu çərçivəsində həlli prosesinə yaxından cəlb edilməsi və 3 ölkədən ibarət həmsədrlik institutunun dəyişdirilərək "5-lik Sədrlər Şurası" (SŞ) ilə əvəz olunması haqqında məsələ qaldırıb. ATƏT sədri Dacic azərbaycanlı deputatın təklifinin müzakirə ediləcəyini bildirmişdi.

Ancaq həmsədrlik "5-lik formatına da keçsə, bu hələ problemin avtomatik həllinə gətirəcəyi anlamını verməməlidir. Çünki nə qədər ki, Rusiya Qarabağ məsələsinin həll olunmamış qalmasında maraqlıdır, proses çox da uzağa getməyəcək. Ta o vaxta kimi ki, Rusiya amili zəifləsin və xeyli təsirsiz hala gətirilsin.

Kremlin Qarabağla bağlı əsas hədəfi isə bəllidir: həll edilməmiş və ya dondurulmuş Qarabağ münaqişəsi hesabına Azərbaycan və Ermənistanı öz orbitində saxlamaq. Son olaraq bu yanaşmanı, "Beynəlxalq Avrasiya Hərəkatının" lideri, Kremlin "danışan dil"lərindən sayılan Aleksandr Duqin bir daha ortaya qoyub.

"Azərbaycan Avrasiya İqtisadi Birliyinə daxil olarsa, o zaman Qarabağ mövzusu tamam ayrı anlam qazanacaq, necə ki, Türkiyə və Yunanıstan NATO-ya üzv olandan sonra Şimali Kipr məsələsi başqa məna qazandı".

Musavat.com-un məlumatına görə, Duqin bu fikri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun bu yaxınlarda Rusiya mediasına müsahibəsində söylədiyi "Azərbaycan Avrasiya birliyinə üzvlük haqda Dağlıq Qarabağ problemi nizamlanandan sonra fikirləşə bilər" şərtinə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, məhz o halda Dağlıq Qarabağ məsələsində real tərəqqi başlaya bilər: "Yalnız bir məqamı deməliyəm ki, Azərbaycan tərəfdən belə bir şərt qoyulması ki, əvvəlcə Qarabağ problemini nizama salın, sonra biz üzv olarıq, doğru yanaşma deyil. Əksinə, məhz Azərbaycanın Avrasiya İqtisadi Birliyində olması Qarabağ məsələsinin həlli üçün şərait yetişdirə bilər. Yəni ardıcıllıq belə olmalıdır - öncə Avrasiya Birliyinə üzv olmaq lazımdır ki, Qarabağ məsələsi çözülsün. Konfliktin həlli üçün yeganə variant - Avrasiya platformasına keçməkdir. Əgər bu baş verməsə, Qarabağ münaqişəsi ümumiyyətlə, yoluna qoyulmayacaq, yeni qanlar axacaq, yeni müharibələr olacaq".

Rusiyalı politoloq bir daha xüsusi vurğulayıb ki, "Azərbaycan Dağlıq Qarabağ məsələsi həll ediləndən sonra Avrasiya İqtisadi Birliyinə üzv olmayacaq, əksinə, Azərbaycan üzv olandan sonra Qarabağ konflikti həllini tapa bilər".

***

Beləcə, bir daha aydın olur ki, Rusiya Azərbaycanı Avrasiya Birliyinə qoşmaq üçün Qarabağ məsələsində heç olmasa kiçicik irəliləyişin olmasında da maraqlı deyil. Ona görə ki, o, öncə Azərbaycanı qurumda üzv görmək istəyir, sonra guya Qarabağ problemini yoluna qoymaq üçün hərəkətə keçəcək.

Ancaq Azərbaycan artıq bir dəfə bu acı təcrübədən keçib: Ermənistanla birgə vahid dövlətdə - SSRİ tərkibində olanda. Fəqət, bu, Dağlıq Qarabağ ixtilafının yaranmasına, "böyük qardaş" Rusiyanın onu həll etmək əvəzinə, daha da qızışdırmasına mane olmayıb. Keçilmiş uğursuz yola təzədən qayıtmağın nə anlamı ola bilər ki?

Odur ki, bir qayda olaraq Kremlin mövqeyini dilə gətirən Aleksandr Duqinin şantaj xarakterli, Azərbaycanı tələyə salmaq niyyəti güdən "həll modeli" keçməz və Bakının şərti tam yerindədir - öncə Qarabağ, torpaqlar azad edilməlidir! Bundan ötrü də 10 vasitəçi olsa belə, ən əvvəl "vasitəçi" Rusiyanın destruktiv rolu neytrallaşdırılmalıdır.

Duqinin təklifi isə faktiki surətdə Ermənistan kimi Azərbaycanın da əbədiyyən Rusiya boyunduruğuna salmaqdır. Sonra isə Qarabağ məsələsi yada da düşməyəcək.

# Fransa portalı Dağlıq Qarabağdan yazıb

## "Beynəlxalq birlik Ukrayna məsələsindəki prinsipiallığını Azərbaycana münasibətdə göstərmir..."

**Fransanın "Contrepoints" portalında "Dağlıq Qarabağ münaqişəsi: Fransa vasitəçi kimi rolunu yerinə yetirməlidir" adlı məqalə yerləşdirilib (AzərTAC). Məqalədə münaqişənin tarixindən, onun Cənubi Qafqaz regionunun inkişafına vurduğu ziyandan, problemin həlli istiqamətində dünya birliyi tərəfindən kifayət qədər səy göstərilməməsindən bəhs edilir. Qarabağ məsələsinin daim gündəmdə olduğu diqqətə çatdırılır.**




Məqalədə bildirilir ki, Azərbaycan çoxsaylı maraqların toqquşduğu Cənubi Qafqaz kimi həssas bir regionun aparıcı dövlətidir. Zəngin enerji resurslarına malik, əhalisinin əksəriyyətini müsəlmanların təşkil etdiyi Azərbaycan Avropa ilə Asiyanın qovuşuğunda yerləşir, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə başlayan Dağlıq Qarabağ münaqişəsi Cənubi Qafqaz regionunun inkişafına ciddi maneə yaradır.

Müəllif ATƏT-in Minsk Qrupunun 20 ildən artıqdır bu problemin həllində vasitəçilik etməsinə baxmayaraq, onun fəaliyyətinin indiyədək nəticəsiz qaldığını da qeyd edir. Məqalədə habelə, ikili standartlardan da bəhs edilərək beynəlxalq birlik tərəfindən Ukrayna məsələsində nümayiş etdirilən mövqenin ərazisinin 20 faizi işğal altında olan Azərbaycana münasibətdə göstərilmədiyi vurğulanır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# “4 aya mənzillər sahiblərinə təhvil veriləcək”

## Bakı meri “Yeni Müsavat”a danışdı; Hacıbala Abutalıbov yanan mənzilə görə kompensasiya almayanlardan da danışdı

**Hazırda Bakıda bir neçə istiqamətdə iş gedir. Bir tərəfdən yanan binalar təmir olunur, sakinlərə kompensasiya verilməsi məsələsi hələ də gündəmdədir. Digər tərəfdən binalardan yanğına həssas üzlüklərin sökülməsi prosesi davam edir. Bu binaların hansı materialla üzlənəcəyi maraqla gözlənilir.**

Bundan əlavə, Bakının mərkəzində “Sovetski”, “Beşmərtəbə” adlanan ərazilərin sökülməsi gözlənilir. Bütün bunların fonunda Bakı I Avropa Oyunlarını qarşılamağa hazırlaşır. Belə bir vəziyyətdə proseslərin nə yerdə olması və aparılan işlərlə bağlı yaranan suallara aydınlıq gətirmək üçün “Yeni Müsavat” Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovla müsahibəni təqdim edir.

**- Hacıbala müəllim, Binəqədi rayonunda yanan binada təmir işləri ilə bağlı vəziyyət nə yerdədir?**

- Binada yüksək səviyyədə işlər gedir. 4 aya o mənzillər sahiblərinə təhvil veriləcək.

**- Xətai rayonunda yanan binanın sakinləri təmir işlərinin keyfiyyətsiz aparılmasından narazıdırlar, siz nəzarət edirsizmi?**

- Bütün bu deyilənlər yalandır. Orada belə hal yoxdur. Xətai rayonunda yanan binada zərər dəyən mənzillərin sahiblərinə hər birinə 15 min manat kompensasiya verilib, təmir də yüksək səviyyədə aparılır. Gələn ayın sonunadək mənzillər sakinlərə təhvil veriləcək.

**- Yanan binanın sakinlərinə sağlamlığa dəyən ziyana görə kompensasiya nə zaman ödəniləcək?**

- Nazirlər Kabinetinin bu haqda qərarı var və bütün işlər ona uyğun aparılır. Qərarda belədir ki, zərərçəkmişlərə 20 min manat ödənilsin. Binada 56 mənzil var idi, lakin iki mənzil əlavə olaraq ayrı-ayrı bölündüyü üçün 58 mənzil hesablandı. Bu mənzillərin sahiblərinin hər birinə 20 min manat ödənildi. Xəsarət alanlara, yəni yanğın zamanı xəsarət alması ilə bağlı xəstəxanadan, Səhiyyə Nazirliyindən arayış gətirənlərə 5 min manat, vəfat edənlərin hər birinə görə ailələrinə 15 min manat ödənilib. Mənzil sahiblərindən 52 nəfəri kompensasiya ilə təmin olunub. 6 mənzil sahibinə kompensasiya ödənilməsi qalıb. Bunlardan biri mənzil sahibi olan qaynana ilə evində qalan oğul və gəlin arasındakı mübahisədir. Onu birinci gün həll etməyi planlaşdırırıq. Qalan 5 nəfərin işi isə vərəsəlik hüququnun bərpası ilə bağlıdır. Vərəsəlik hüququnun bərpası prosesi 6 ay çəkir. 6 ay ərzində kim məhkəmə yolu ilə həmin mənzillərin vərəsəlik hüququnu alacaqsa, bu barədə məhkəmənin verdiyi arayışı aparıb banka verməklə pulunu ala biləcək.

**- Binaların üzlüklərinin sökülməsi nə zaman yekunlaşacaq və hansı materialla üzlənməsi nəzərdə tutulur?**

- Bakı şəhərində olan binaların hamısından üzlüklər tamamilə sökülüb. İndi Mətbuat və Ziya Bünyadov prospektlərində binaların üzlükləri keramika-qranitlə üzlənir, Mətbuat prospektində ağ daşla üzlənən, yalnız eyvanları yanğına səbəb ola biləcək materialdan olan 6 binanın eyvanı betonla üzlənəcək. Nobel prospektində bütün binalar təmizlənib, onların hamısı və digər binalar Almaniyadan, Finlandiyadan və Amerikadan gətirilmiş və xüsusi təlimatla nəzərdə tutulmuş rənglərlə boyadılacaq. İyun ayının 10-na qədər bu işlər yekunlaşmalıdır. Bütün işlər ayın 10-da qurtaracaq.

**- Bakıda hansı ərazilərin sökülməsi nəzərdə tutulur və nə zaman başlanacaq?**

- Söküntü işləri artıq başlayıb. Hazırda “Sovetski” adlanan ərazi sökülür. Orada 4 mərhələli sökülmə gedəcək. Birinci, artıq “Sovetski”də söküntü işləri son mərhələyə gəlib çatıb. İkinci, “Nizami” metrostansiyasından İstiqlaliyyət küçəsinə qədər olan ərazi, “Təzəpir” məscidinin ərtafındakı evlərin sökülməsi nəzərdə tutulur. Üçüncüsü, “Beşmərtəbə”nin yanından Şəmsi Bədəlbəyli küçəsinə paralel olan küçələrdə, Dilarə Əliyeva, Vidadi küçələrinin sökülməsi nəzərdə tutulur. Sökülən ərazilər yalnız və yalnız yüksək səviyyəli yaşıllaşdırma və istirahət zolaqlarına çevriləcək.

**- Hacıbala müəllim, son sualımız: Bakı Avropa Oyunlarına hazırdırmı?**

- Avropa Oyunlarına yüksək səviyyədə hazırlıq var. Bütün idman zalları və stadionlar, su idman stadionları hamısı Avropa Oyunlarına tam hazırdır. Mən əminəm ki, biz yüksək səviyyədə bu oyunları başa vura biləcəyik.

❑ **Nərgiz LİFTİYEVA**

---

**“Şərurlu İsfəndiyar” kimi tanınan iş adamı İsfəndiyar Axundovun ətrafında qalmaqal səngimir. Çox vaxt bu qalmaqallara rəvac verən də elə iş adamının özüdür.**
**Ə.Əhmədov küçəsi ev 35, mənzil 7 ünvanında qeydiyyatda olan Niyaməddin Şəfayətli “Şərurlu İsfəndiyar”dan şikayətçidir.**



# “Şərurlu İsfəndiyar” mülkümü yandıracağını deyir”

## İş adamından şikayətçi olan Qarabağ veteranı imdad diləyir

Redaksiyamıza yolladığı məktubda N.Şəfayətli yazır ki, Yeni Yasamal, Xiyabani küçəsi ev 18 ünvanında yerləşən “Mur- Ay” MMC tərəfindən inşa edilmiş 14 mərtəbəli binanın 1-ci mərtəbəsində yerləşən 300 kv.m-lik qeyri-yaşayış sahəsini alıb: “Bir neçə gün öncə İsfəndiyar Axundovun qardaşı İmran Axundov və Aydın adlı şəxs əmlakıma hücum edərək dağıtmağa cəhd göstərdi. Bu şəxslər ərazimdə gedən təmiri dayandırdı, reklam plakatlarını sökməyə cəhd etdilər. Səbəbini dəfələrlə soruşsam da, heç bir məntiqli cavab vermədilər. Yalnız İsfəndiyar Axundovun göstərişini yerinə yetirdiklərini dedilər. Tələbləri isə bu oldu ki, könüllü olaraq əmlakımı İsfəndiyar Axundova təhvil verməliyəm. Əks halda həyatımın belə təhlükədə olduğunu dedilər. Hazırda mən bu qanunsuz dəstənin fəaliyyəti nəticəsində faktiki olaraq mülkiyyətimdən məhrum edilmişəm və əraziyə buraxılmıram. Mənə qısa müddət verilib və bildirilir ki, ilk olaraq, əmlakımı yandıracaqlar. Bildirim ki, həmin binada yüzlərlə sakin yaşayır. Hamının həyatı təhlükə altındadır”.

Məktub müəllifi yazır ki, hadisə barədə dəfələrlə yazılı müraciət etməyimə baxmayaraq heç bir tədbir görülmür: “Cəzasızlıqdan ruhlanan Axundovlar mayın 30-da mülkiyyətimi məhv etdilər. Anladım ki, İmran və İsfəndiyar Axundov qardaşları və ətrafındakı şəxslər kimlər tərəfindənsə himayə edilir və toxunulmazdırlar. Halbuki bu, cənab İlham Əliyevin yürütdüyü siyasətə tam ziddir. Mənim minlərlə manatlıq mülkiyyətimi məhv edən, həyatıma təhlükə törədən, orqanlardakı himayədarları ilə açıq-aşkar qürrələnən ”toxunulmaz” İmran və İsfəndiyar Axundov qardaşları barədə tədbir görülməsini rica edirəm”.

Müəllif məktubuna əlindən alınan əmlaklarının fotolarını da əlavə edib. Həmin fotoları da təqdim edirik.

“Şərurlu İsfəndiyar”dan digər şikayətçi isə Qarabağ döyüşçüsü Hikmət Nəcəfəliyevdir. Naxçıvanda Qıvraq batalyonu tərkibində ermənilərə qarşı döyüşmüş H.Nəcəfəliyev yazır ki, İsfəndiyar Axundov mənzilini vermədiyinə görə ailəsi ilə birgə kirayədə yaşamağa məcburdur. Şikayətçinin yazdığı məktubdan belə aydın olur ki, ona və digər payçılara tikilib təhvil verilməli olan mənzilləri Ələkbər Zeynalovun rəhbəri olduğu “İN Eksklyuziv Servis”lə İsfəndiyar Axundovun rəhbəi olduğu “Safari-N” MMC tikib təhvil verməli olub. Lakin şəriklər arasında narazılıq onları da evsiz qoyub: “Ələkbər Zeynalovun bildirdiyinə əsasən 2006-cı ildə ”Safari N” MMC ilə bağladığı müqaviləni İsfəndiyar Axundov ondan alaraq ofisində cırıb. Özünü isə döyərək qovub. İ.Axundov 2008-ci ildə özünə sərf edən şəkildə başqa bir müqavilə hazırladıb. İsfəndiyar Axundov bildirir ki, “İN Eksklyuziv Servis” MMC-nin rəhbəri Ələkbər Zeynalovun 2006-cı il müqaviləsinə əsasən mənzil satmaq hüququ olmayıb. Qeyd edim ki, 2006-cı və 2008-ci il müqavilələrinin 2.1.6 bəndində göstərilir - II tərəfin, yəni “İN Eksklyuziv Servis” MMC rəhbəri Ə.Zeynalovun razılığı olmadan tikintiyə, yaşayış və qeyri-yaşayış sahələrinin satışına dair məxfi məlumatları açıqlamır və ya yaymır. Buradan belə nəticəyə gəlmək olar ki, II tərəfin, yəni “İN Eksklyuziv Servis” MMC-nin rəhbəri Ə.Zeynalovun həmin 1 bloklu binadan mənzil satmaq səlahiyyəti qarşılıqlı razılaşma nəticəsində olub. Əgər olmayıbsa, onda mənzillərin satışına dair məxfi məlumatların yayılması üçün Ə.Zeynalovun razılığı niyə tələb olunur? 2008-ci ildə İsfəndiyar Axundov onlar arasında 2006-cı ildə bağlanmış müqaviləni dəyişərək, sonradan özünə uyğun 2008-ci ildə müqavilə hazırlayıb. Müqavilələrə baxdıqda edilən saxtalaşdırma əyani olaraq görünür. Bu barədə dəfələrlə istintaq və məhkəmə orqanlarına bildirməyimizə baxmayaraq, “Safari-N” MMC-nin rəhbəri Axundovun bu kimi əməllərinə hüquqi qiymət verilməyib. İstintaq idarəsi İsfəndiyar Axundovun bu kimi saxtakarlıqlarına və bu yolla vətəndaşlardan aldıqları mənzillərin hər kv.metri üçün 200-250 manat əlavə pul tələb edib almaqla korrupsiya əməlləri törətməsinə hüquqi qiymət verməmk istəmir. Kifayət qədər əsasların və faktların olması istintaqın gedişində “Safari-N” MMC-nin rəhbəri olan onun qardaşı İmran Axundovun cinayət məsuliyyətinə cəlb olunması üçün əsas verirdi. Bunlara baxmayaraq istintaq və məhkəmə orqanlari işə qərəzli yanaşaraq və İsfəndiyar Axundovun təsiri ilə bizim hüquqlarımızı təmin etmədi. Evim və ya pullarım geri qaytarılmır. Mülki qaydada Yasamal məhkəməsində “Safari- N” MMC və “İn Eksklyuziv servis” MMC-yə qarşı müqavilə üzrə ödədiyim pulların cavabdehlərdən tutulması və bu tutulmanın Yeni Yasamal yaşayış massivində yerləşən mübahisəli binaya yönəldilməsi iddiası verdim. Əsasların olmasına baxmayaraq hakim Sərdar Mehrəliyev bizim iddianı təmin etmədi. Həmin qətnamədən Bakı Apelyasiya məhkəməsinə apelyasiya şikayəti verdik, lakin hakim Mehdi Əsədovun sədrliyi ilə 22 dekabr 2014-cü ildə keçirilən prosesdə hakimlər “Safari-N” MMC-nin nümayəndəsinə sual etdilər ki, niyə 42 zərərçəkənə ev və pul vermisiz, digər zərərçəkənlərə evlərini və ya pullarını vermirsiz? Növbəti prosesdə isə İsfəndiyar Axundovun təzyiqindən sonra hakimlər əksinə cavabdeh “Safari-N” MMC-nin maraqlarını təmin etdilər, onların xeyrinə qərar verdilər. Bildirirəm ki, qanuni qüvvəyə minmiş 29.10.2012, 11.03.2013, 23.10.2013-cü il tarixli qərarlarda bizim ödədiyimiz pulların binaya xərclənməsi sübut olunub. İstintaq və məhkəmə zamanı 55 zərərçəkəndən 45 zərərçəkənə İsfəndiyar Axundov tərəfindən zərər ödənilib. Lakin bizə hər hansı ödəniş etmək istəmirlər və İsfəndiyar Axundov deyir ki, şikayət edirsiz edin, amma mənə heç nə edə bilməzsiniz”



H.Nəcəfəliyev yazır ki, işsizdir, ailəsinin sosial vəziyyəti günü-gündən pisləşir, dövlət orqanlarından İ.Axundovdan mənzilinin alınıb ona verilməsinə köməklik göstərilməsini istəyir.

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S.** Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

# Heydər Əliyevin göstərişi ilə salınan park xarabalığa çevrilib

## "Ədalət" istirahət yeri ədalətsizliklə üzləşib...







**Bakıda taleyin ədalətsizliyi ilə üzləşən parklardan biri də "Ədalət" parkıdır. Binə qəsəbəsinin girişində yerləşən park uzun illərdir baxımsız qaldığından istirahət üçün yararsız vəziyyətə düşüb.**

Bu parka baxarkən "Bağa baxarsan bağ olar, baxmazsan dağ olar" atalar sözü yada düşür. Bir zamanlar yaşıllıqlar əhatəsində olan parkda indi qurumuş ağaclar, saralmış otlar gözə dəyir. Parkın ərazisində ümumiyyətlə, suvarma sistemi yoxdur. Təsadüfi deyil ki, "Ədalət" parkına qarşı bu ədalətsizlik ədalət ilahəsi sayılan Femida heykəlinin "gözü önündə" baş verir. Artıq baxımsızlıqdan heykəl də qəzalı vəziyyətdədir.

Parkın girişində qoyulan hündürlüyü 3-4 metr olan Femida heykəli indi ədalətin deyil, baxımsızlığın və viranəliyin simvoluna çevrilib. Heykəlin ətrafındakı yaşıllıq sarı samanlığı xatırladır. Parkın ərazisi təmizlənmədiyindən hər tərəf zibillə doludur.

Binə qəsəbəsi sakinlərinin verdiyi məlumata görə, bu park mərhum prezident Heydər Əliyevin göstərişi ilə salınıb. Parkın bu cür bərbad vəziyyətə düşməsi prezident İlham Əliyevin "Dostluq" parkı ilə bağlı göstərdiyi həssaslıqdan sonra daha çox aktuallıq kəsb edir. Parkın adının "Ədalət parkı" olması isə yaxınlıqda 2 saylı cəzaçəkmə müəssisəsinin yerləşməsi səbəbindəndir. Girişdə yazılmış olan "Qoy ədalət zəfər çalsın" şüarı isə bu mənzərə fonunda ironiya kimi səslənir. Hazırda bu şüarın "zəfər çalsın" hissəsi yazılan lövhə qoparılıb. "Qoy ədalət" hissəsi isə pas atıb.

Onu da qeydlər edək ki, bu park gözdən uzaq bir yerdə deyil. Xarabalığa çevrilən istirahət yeri Binə qəsəbəsindən keçən magistral yolun kənarında yerləşir və əminliklə demək olar ki, qəsəbənin bələdiyyə və icra nümayəndələri hər gün dəfələrlə bu parkın önündən keçirlər. Qəsəbə sakinlərinin sözlərinə görə, "Ədalət parkı" vəziyyəti elə qəsəbənin sosial durumunun göstəricisidir.

Sakinlər deyir ki, rayon icra başçıları parkların salınmasını həyata keçirsələr də, sonradan bu parklara qulluq üçün ayrılan vəsaitləri mənimsəyirlər. Nəticədə qəsəbənin yeganə parkında ağaclar, yaşıllıqlar quruyub, skamyalar qırıq-sökük vəziyyətdədir.

Əlavə edək ki, qəsəbənin yolları da bərbad vəziyyətdədir. İritonnajlı yük maşınları intensiv olaraq bu yollarla hərəkət etdiyindən yolları daha tez dağılmasına səbəb olur.

❑ **Nərgiz Liftiyeva**
**Fotolar müəllifindir**

# Dini komitədən şeyxə Ramazan dəstəyi

## Komitə QMİ-nin rəsmi təqvimindən fərqli təqvimlər çap edib yayanlara xəbərdarlıq etdi...

**"Zaman-zaman dindən müəyyən maraqlar üçün istifadə edən bəzi qruplar ölkəmizdəki ənənəvi dini dəyərlərlə uyğunluq təşkil etməyən, dindarlar arasında fikir ayrılığı yaradaraq vəhdət və həmrəyliyə xələl gətirən tədbirlər görməklə öz məkrli məqsədlərinə nail olmaq istəyirlər. Təcrübə göstərir ki, xüsusilə ölkə əhəmiyyətli tədbirlərin keçirildiyi vaxtlarda ictimai sabitliyi pozmaq üçün bəhanə arayan belə qruplar xüsusilə aktivləşirlər"**




Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov bildirib. Zülfüqarov deyib ki, ölkə əhalisinin 96%-ni müsəlmanlar təşkil edən Azərbaycanda bütün İslam icmaları dini mərkəz kimi Qafqaz Müsəlmanları İdarəsində (QMİ) birləşir. Ona görə də mərkəzləri və havadarları xaricdə yerləşən bəzi müsəlman dini qrupların bu və ya digər şəkildə Azərbaycan vətəndaşlarına dini-ideoloji kontekstdə müdaxilə etməsi qəbul edilməzdir.

"Hər il olduğu kimi, Ramazan ayı öncəsi QMİ-nin Qazılar Şurası və Elmi-dini Şurası ölkə ərazisində Ramazan ayının başlanması və bayram günlərinin vaxtı ilə əlaqədar fətva verir, ay boyu icra olunacaq ibadətlərin vaxtları ilə bağlı xüsusi təqvim hazırlayır ki, məhz bu təqvim Azərbaycan ərazisi üçün dəqiq hesablanıb. Həmin təqvim QMİ ilə Azərbaycan Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanası ilə birgə astronomik hesablamalara uyğun tərtib edilir. Ölkə müsəlmanları ay boyunca bu cədvələ riayət etməlidirlər. Lakin təəssüf ki, vətəndaşlarımız arasında müxtəlif müsəlman ölkələrində hazırlanan təqvimlərə etibar edənlər də vardır. Qeyd edək ki, "xarici təqvimlər"də çox vaxt qeyri-dəqiqlik və yerli vaxtla uyğunsuzluq olduğundan dindar vətəndaşlarımız arasında çaşqınlıq yaranır, nəticədə bir sıra xoşagəlməz söz-söhbətlər baş qaldırır. Hətta bəzi dindarlar Ramazan bayramını QMİ-nin təklifi əsasında dövlətin rəsmi təyin etdiyi gün yox, bu və ya digər təqvimlərə uyğun keçirirlər ki, bu da ölkədəki müsəlmanlar arasında birliyə, həmrəyliyə ciddi zərbə vurur".

Dövlət Komitəsinin şöbə müdiri qeyd edib ki, Ramazan ayının xüsusiyyəti və ümumiyyətlə, müsəlman ümmətinin ən üstün keyfiyyəti elliklə, vəhdət içində icra edilən ayinlərin dərəcəsinin Uca Yaradanın dərgahında daha fəzilətli olmasıdır: "Deməli, müsəlmanların parçalanması, xüsusilə on bir ayın sultanı olan Ramazanda belə halların baş verməsi təkcə təəssüf doğurmur, elə şəri baxımdan da günah sayılır. Uca Yaradan Qurani-Kərimin "Ali-İmran" surəsinin 103-cü ayəsində buyurur ki, "Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın!". Ona görə də bir daha vurğulayırıq ki, vətəndaşlarımız QMİ ilə AMEA-nın Şamaxı Astrofizika Rəsədxanasının birlikdə hazırladığı öz təqvimimizdən istifadə etsinlər, mənbəyi məlum olmayan təqvimlərdən uzaq olsunlar. Çünki bu həssas məsələ təkcə dini deyil, elə vahid cəmiyyət kimi milli vəhdətimizin və həmrəyliyimizin vacib təzahürüdür. Eyni zamanda xəbərdar edirik ki, QMİ-nin rəsmi təqvimindən başqa müxtəlif dini təqvimlər çap edərək yayanlar qanunla məsuliyyətə cəlb oluna bilərlər. Dövlət Komitəsinin müvafiq şöbələri Ramazan ayı boyunca dini ibadət yerlərində müvafiq monitorinqlər aparacaq, dini ayinləri QMİN-nin rəsmi təqviminə uyğun icra etməyən icmalar və din xadimləri barəsində hüquqi müstəvidə ciddi ölçü götürüləcək. Bütün müsəlmanlar üçün birlik və qardaşlıq rəmzi sayılan Müqəddəs Ramazan ayında nifaq və təfriqə halları ilə üzləşməmək üçün vahid rəsmi təqvimdən istifadə məsələsində dindarlarımızın daha həssas davranmalarını, neqativ hallarla üzləşdikləri təqdirdə dərhal məlumat vermələrini xahiş edirik".

Qeyd edək ki, bundan az öncə QMİ sədri, şeyx Allahşükür Paşazadə fərqli təqvimlər hazırlayan bəzi icmalarla bağlı tədbir görülməsi üçün Komitəyə müraciət etmişdi.

❑ **NURLAN**

# Mühaciri də "kitayski"....



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**Avropada yaşayan mühacirlərlə bağlı layihənin belə səs-küy doğuracağını, insanları, təşkilatları... üz-üzə qoyacağını bilsəm... edərdimmi? Heç düşünmədən deyirəm: edərdim, yenə, yenidən, bir daha redaksiya tərəfindən verilən bu səfər təklifinə "hə" deyərdim. Niyə? Çünki jurnalistin işi faktı yazmaq, hadisə yaratmaq, bilinməyənləri üzə çıxarmaqdır. Kimin nə deməsindən asılı olmayaraq, bir-iki ağzıgöyçəyin gördüyü ağı boz adlandırmasına fikir verməyərək yoluna davam etməkdir. Bilənlər bilir, bilməyənlərə isə xatırladım ki, "Yeni Müsavat"ın məlum mühacir müsahibələri ölkədə ciddi səs-küy doğurdu, kimlərinsə partiyadan çıxması, kimlərinsə saxta partiya biletinin ifşa olunmasına qədər getdi hadisələr və getməkdə də davam edəcək, bəlli. Bəs niyə müzakirələrdə ağzıgöyçəklər bu müsahibələri, onu yazanı, onu dərc edən qəzeti ittiham edir? Mən ondan danışaq deyirəm...**

Bəli, bu, Azərbaycan mətbuatında bir ilk idi. İdeya fərqli və parlaq idi, bu günə qədər edilməmişdi, edildi və uğur da qazandı. Bu baxımdan həmkar qısqanclığını, qıcığını normal qəbul etmək olardı. Zərbəli sayaq "həə, nolsun" deyənləri də boş verərdik və verirk də... Amma çoxları ağzını Allah yoluna qoyub dedi ki, guya səfər astronomik məbləğlər hesabına başa gəlib, demək ki, kiminsə barmağı var, məqsəd var, məram var... Bunu deyənlərə elə özümün keçirdiyim kimi, qaçaqaçda, sürət qatarlarında, taksidə, təyyarədə... 10 gün boyunca 6 ölkə, 10-a yaxın şəhər gəzməyi, nəfəs belə dərmədən 50-yə yaxın reportaj, müsahibə yazmağı, kəsəsi, belə "lüks səfəri" arzulayıram. Üstəlik, nəzərə alanda ki, səfər zamanı əsasən xaricdə yaşayan həmvətənlərimizin evində qaldım, onların qonağı oldum, bir çox hallarda onların nəqliyyat xidmətindən yararlandım (onlar sağ, siz salamat, kim istəsə dəqiqləşdirə bilər), bu halda redaksiyanın ciddi paralar xərcləməsindən də söhbət gedə bilməz. Yəni, layihəyə qara yaxmağa çalışanlara bir quş, arqumentləri də özləri kimi kasaddır.

Yaxşı, indi nəticə etibarilə kimləri nə narahat edir? Kimlərinsə saxta mühacir olması? Ölkəsində təzyiq görmədiyi halda xaricə saxta sənədlər düzəldərək getməsi? Bu saxtakarlıq faktlarının üzə çıxması? Tamam, buna görə qəzetə minnətdarlıq etməyiniz lazım deyilmi? Bu faktların aşkarlanmasına vəsilə olduğu üçün "sağ ol, var ol" deməməlisizmi? O zaman bu nə hücum, bu nə qovğa? Əks arqumentə bax: hökumət saxta mühacirlərlə bağlı bu faktlardan müxalifət partiyalarına qarşı istifadə edəcəkmiş...Həmin məntiqlə gözümüzün qabağında baş verən hansısa bir qətli, korrupsiya olayını, heç, amma heç bir hadisəni də... işıqlandırmamalıyıq. Bundan sevdiyimiz, bir çox hallarda namuslu hesab etdiyimiz insanlara qarşı da istifadə oluna bilər eyni məntiqlə, ehtimallarla... Ehtimalla, şahmat oynayırmış kimi qəzetçilik yapmaq isə mümkün deyil. Gedirsən, faktı görürsən, yazırsan, mənafe-zərbə dilemmasına girsən, yazı yaza bilməzsən.

Zarafat deyil, on ildən artıq davam edən bir saxtakarlıq faktı üzə çıxıb. Kimi dindirirsən, deyir, "düz yazmısız e, Avropada saxta mühacir çoxdur, amma..." Bəli, hərənin öz "amma"sı var, amma həqiqət birdir. Məlum olur ki, hamı bu barədə bilirmiş, hamının canı yanırmış buna görə... Amma biz yazmışıq, narahat olublar. Bəs harda qaldı aşkarlıq, söz azadlığı, demokratiya?

Həqiqət də nədir? Kimlərinsə saxta sənəd alması barədə faktı xarici ölkələrdən birinin Miqrasiya Xidməti Müsavat Partiyasına xəbər verib, sorğu yollayıb. Partiyanın səlahiyyətli nümayəndəsi bununla bağlı geniş bir bəyanat yayıb... Yəni, olayların başlanğıc, istinad nöqtəsi budur. Və indi nə baş verir? Siyasi partiyalar onların adından saxta vəsiqə alanlara etiraz edir, bu durumdan narazıdır. Ortada bir qrup sənəd alverçisi var, onların ifşasını istəyirlər. Saxta sənəd alanlarsa iddia edir ki, aldadılıblar... Kəsəsi, tərəflər narazıdır, biz faktı üzə çıxarırıq. Hər iki tərəf danışır, biz orbitrlik edirik, son nəticədə gerçək üzə çıxacaq. Mübahisə qızışdıqca, faktlar sənədlərlə bir-bir ortaya töküləcək, hamı saxtakarları da, sənəd alverçilərini də tanıyacaq. Və o zaman hər kəs dönüb, bu prosesi yazan qəzetə təşəkkür edəcək, haqsızlıq edənlər isə üzr istəyəcək. Mən buna əminəm.

Ona görə də sonda deyəcəyiniz sözləri əvvəldə deməyin. Bu kommunistlik, bu qaragüruhçuluqla... yumşaq deyim, gülməli görünürsüz. Kimsə güzgüdə özünü əyri görürsə, ora daş atmasın. Bunun bumeranq effekti verməsi də var, unutmayın...

Redaksiyadan: Rəsmi olaraq bildirirk ki, müxbirimizin Avropaya səfəri "Yeni Müsavat" qəzetinə 600 avrodan da az məsrəfə başa gəlib. Bunun da içərisində yalnız gediş bileti, Avropadakı xırda xərclər, Brüssel - Yöteborg uçaq bileti, iki halda qatar biletlərinin məsrəfləri (toplam 150 avro) yer alır. Bütün xərclər sənədləşdirilib, balansa salınıb. Digər xərclər, o cümlədən də müxbirimiz üçün geri dönüş bileti ölkədə tanınan və "kitayski" olmayan siyasi mühacirlərimiz tərəfindən qarşılanıb. Fürsətdən istifadə edərək, bir daha siyasi mühacirlərimiz Kamil Tağısoya, Hacı Hacılıya, İlham Həsənə, Əlövsət Əliyevə, Vəfa və Kamal Qasımovlara, Kənan Hacıəkbəroğluna, Firudin Ələsgərə, Mirzə Sakitə, Eldəniz Yusibova, Sərdar Ağayevə, Natiq Ələsgərova, İsa Sadıqova və digər dostlara dərin təşəkkürümüzü bildiririk. Layihənin gerçək sponsorları onlardır - hərənin payına nə qədərsə məsrəf düşüb. Kimi bilet alıb, kimi evini və süfrəsini açıb, kimi də arabası ilə sürücülük edib...

Allah razı olsun və əvəzini versin.

YENİ MÜSAVAT
N 123 (6151) 8 iyun 2015

# Elnarənin xeyriyyəçiliyinə həmkarlarından reaksiya gəldi

## Digər sənət adamları bulaq çəkdirməsələr, məktəb və yol tikdirməsələr də, imkan daxilində xeyriyyəçilik etdiklərini dedilər...

**Xəbər verdiyimiz kimi, bu günlərdə muğam ifaçısı Elnarə Abdullayeva Qobustan rayonunda, özünün dediyi kimi, 200 min manata başa gələn bulaq açdırıb. Doğrudur, şayiələr yayıldı ki, bulaq artıq quruyub və hətta açılış mərasimində belə quyuya su doldurulub istifadə edilib. Müğənni isə "Yeni Müsavat"a açıqlamasında məlumatı təkzib etsə də bulağın ətrafında yeni təmir işləri aparılmasına ehtiyac olduğunu gizlətməyib.**

Lakin bu məsələnin başqa bir tərəfi diqqətimizi cəlb etdi. Belə ki, Elnarə Abdullayeva əməkdaşımıza verdiyi açıqlamada maraqlı nüanslara da toxunmuşdu: "Mənim gördüyüm bu cür xeyriyyə işini heç bir sənətkar etməyib və bundan sonra da bacara bilməz. Hər hansı bir xeyriyyə işi həyata keçirəndə onu imanla, canla-başla yerinə yetirirəm".

Bəs doğrudanmı başqa heç bir sənətçi bu cür xeyriyyəçiliklə məşğul olmayıb? Sualı bir neçə tanınmış sənətçiyə ünvanladıq.



Əməkdar artist Nüşabə Ələsgərli həmkarının dediyi fikirdə həqiqət olduğunu deyib: "Bəli, mən Elnarə kimi bu cür xeyriyyə işi görməmişəm. Yəni hansısa bulaq və yaxud məktəb açdırmamışam. Lakin xeyriyyə tədbirlərində hər zaman həmkarlarımla birgə iştirak etmişəm".

Xalq artisti Könül Kərimova isə özünü əsl xeyriyyəçi adlandırdı: "Mən kifayət qədər xeyriyyə işləri görmüşəm. Lakin onları gündəmə gətirməyi doğru hesab etmirəm. Bu işləri Allah yolunda, Allah naminə görürəm. Buna görə bu haqda danışmağı sevmirəm. Bəzən ətrafım, ən yaxınlarım belə mənim gördüyüm işlərdən xəbərsiz olur".

Tanınmış müğənni Manaf Ağayev də hər hansı xeyriyyə tədbirinə imza atmadığını etiraf edib: "Elnarə xanım doğru deyir, bu günəcən görməmişəm ki, hər hansı bir sənətkar öz cibindən xərc çəkib bu cür xeyriyyə işi görsün. Şəxsən mən də belə bir işə imza atmamışam. Lakin hər zaman valideyn himayəsindən məhrum uşaqlarla, kimsəsiz qocalarla görüşüb onlara maddi və mənəvi dəstək olmuşam. Gördüyüm xeyriyyə işlərim bu çərçivədən kənar olmayıb".

Müğənni Nazəninin prodüseri, teleaparıcı Tahirə Məmmədqızı sənətçinin maddi imkanının yaxşı durumda olmadığını, bu səbəbdən xeyriyyə tədbirləri həyata keçirə bilmədiyini deyib: "Ola bilsin Elnarə xanımın maddi imkanı yüksəkdir ki, belə bir tədbir həyata keçirdib. Lakin Nazənin xanımın maddi durumu hazırda yaxşı deyil. Hamı bilir ki, o bir şəhid ailəsini öz himayəsinə götürüb. Bununla yanaşı, onun həbsdə olan qardaşının ailəsi və bir neçə qohum-əqrəbası da müğənninin öhdəsindədir. Nazənin xanım hər zaman xeyriyyə tədbirlərində yaxında iştirak edib".

Əməkdar artist Tünzalə Ağayevanın prodüseri Yalçın Cabbarovun dediyinə görə, həmişə böyük olmasa da müğənni öz xeyriyyə işlərindən qalmır. Prodüserin dediyinə görə, müğənni bir ailəni öz himayəsinə götürərək mütəmadi olaraq onlara yardımlar edir: "Ümumiyyətlə Tünzalə xanım gördüyü işlər barəsində danışmağı sevmir. O, hər hansı bir xeyriyyə işi gördükdə bunu zəkat kimi qəbul edir. Tünzalə xanımın himayəsində bir ailə var və o, hər zaman həmin ailəyə öz maddi və mənəvi yardımını göstərir".

❑ **Xalìdə GƏRAY**



# Ən faydalı meyvələrdən biri - alça...

**Çoxlarının sevimlisi olan alça meyvəsinin faydası haqqında əksəriyyətimizin az məlumatı var. Öncə onu deyə bilərik ki, alça meyvəsinin 30-a yaxın növü var. Onlardan daha geniş yayılanı cır alça xalq təbabətində geniş istifadə olunur.**

Belə ki, qədim vaxtlarda alça təbabətdə ən əhəmiyyətli tonuslaşdırıcı vasitə hesab edilirdi. Cır alçadan "lavaş" da hazırlanır. Alça lavaşı müalicəvi əhəmiyyətə malikdir, xüsusilə də sinqaya qarşı istifadə olunur. Araşdırmalar zamanı məlum olub ki, alça qaraciyər, ürək, böyrək və revmatizm xəstəlikləri, həzm sistemindəki olan narahatlıqlara çox yaxşı təsir göstərir. Mütəxəssislər bildirirlər ki, yetişmiş alça güclü öskürək və vərəm xəstəliyində mühüm əhəmiyyətə malikdir. Həmçinin alça yarpaqlarının şirəsi orqanizmdə olan qurdları öldürür, spazmanı götürür, ürəkbulanmanı aradan qaldırır. Boğaz ağrılarında da alça çox faydalıdır. Buna görə də mövsümündə bu meyvədən bol-bol istifadə etmək lazımdır.

Alçadan kompot, cem, marmelad şəklində də istifadə edirlər. Lakin bu məsələdə bir qədər diqqəti olmaq lazımdır, çünki, belə olan halda şəkər vasitəsilə kalori artır. Buna görə də mütəxəssislər tövsiyə edirlər ki, bu meyvəni daha çox bişirmədən, vitamin və mineralları özündə qalan təzə alçadan istifadə edilsin.

Bildiyimiz kimi, alça meyvəsi həmçinin isti yay aylarında arıqlama pəhrizlərində əvəzedilməzdir. Lakin bir çoxları onu daha çox duzla birlikdə qəbul etməyi sevir, çünki, belə daha dadlı olur. Lakin bunun da öz zərərləri var. Belə ki, meyvəni duzla qəbul etdikdə bədəndə ödəm yaranmasına, nəticədə isə insanın kilo almasına səbəb olur. Xüsusən də təzyiq problemi olan şəxslər bu vasitədən uzaq qaçmalıdır.

❑ **Xalìdə GƏRAY**



# Bakıda yük maşını sərnişin avtobusu ilə toqquşdu - 3 ölü...

**Dünən Bakının Sabunçu-Zabrat yolunda dəhşətli qəza baş verib. Məlumata görə, yük maşını və sərnişin avtobusu toqquşub. Qəza nəticəsində ölən və yaralananlar var.**

Anspress-in məlumatına görə, qəzada toqquşanlar 214 saylı "Daewoo" markalı marşrut avtobusu və "Shacman" markalı yük avtomobildir. İlkin məlumata əsasən, 3 nəfər hadisə yerində ölüb, bir neçə nəfər xəsarət alıb.

Toqquşmanın zərbəsindən "Shacman"ın sürücüsü avtomobilin kabinəsində sıxılmış vəziyyətdə qalıb. Onut cəsədini hadisə yerinə cəlb edilmiş FHN xilasediciləri çıxarıblar.

Faktla bağlı araşdırmalar aparılır. Ölən və yaralananların kimliyi araşdırılır.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Təcili! Mehdiabadın gözəl mənzərəli və hündür yerində 3.5 sot torpaq sahəsi satılır.**

**Bütün sənədləri qaydasındadır. 1 sot qiyməti 7500 və 3.5 sot cəmi 26250 AZN.**

**(055) 740-25-64 ANAR**

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

**Dübəndidə Baglar massivində 10 sot torpaq sahəsi. Dəniz sahilindədir ,bütün sənədləri qaydasındadar.**

**Torpaq sahibi özü satır. 055-215-00-57**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

# Əzizim əziz, hazırlığı ondan da... məsrəfli

## Uşağı məktəbə hazırlamaqla ali məktəbə hazırlamağın xərcləri eyniləşir; 5 yaşında uşaq "müəllim yanında" nə öyrənir?

**Hazırda Azərbaycanda birinci siniflərə qəbul prosesi davam edir. Daha doğrusu, 6 yaşı tamam olan uşaqların məktəbə qeydiyyat prosesi yekunlaşıb. Balacalar artıq qəbul imtahanlarını veriblər, sinifləri bəlli olub, sentyabrın 15-dən etibarən məktəblərə axışacaqlar.**

### "9 ayda 450 manat xərcləmişəm uşağın müəlliməsinə"

Amma hələ 6 yaşı tamam olmayan uşaqların məktəblərə sənədləri qəbul olunmayıb. Sənəd qəbulu iyulun 1-dən etibarən başlanacaq. Bununla yanaşı, artıq Azərbaycanda ali məktəb kimi, orta məktəblərə də qəbul ciddi, məsrəfli prosedur olmağa başlayıb. Neyçün ki, artıq məntiq testləri, qəbul imtahanları zamanı çocuqlara yönəldilən suallar öz mürəkkəbliyi ilə seçilir. Bu səbəbdən də valideynlər uşaqlarını orta məktəbə hazırlamaq üçün il boyu xeyli məsrəf və enerji sərf edirlər.

2 uşaq atası olan Etibar Səlimov deyir ki, 2014-cü ilin sentyabr ayından mayın sonuna qədər uşağını ibtidai məktəb müəlliməsinin yanına, hazırlığa qoyub: "Müəlliməyə ayda 50 manat verirdik. Həftədə 3 dəfə gedirdi yanına. Bu da 9 ay ərzində 450 manat deməkdir. Məgər az puldur? 6 yaşında uşağı da, onun valideynini də yükləmək doğru deyil. Hələ mən hazırlıq kitablarını, testlərini, dəftər-qələm xərclərini demirəm".

### İbtidai məktəb müəlliməsi: "Uşaq hazırlığa getməyəndə..."

İbtidai sinif müəlliməsi Səmayə Piriyeva isə düşünür ki, bu hazırlıqlar olmasa uşaqlar ciddi əziyyət çəkirlər: "Görürsən ki, uşaq məktəbə gəlib, amma elementar qələm tutmağı, "otur" deyəndə oturmağı, "dur" deyəndə durmağı bacarmır. Hələ mən məntiqi nəticələrdən danışmıram. Mən hər zaman valideynlərimə deyirəm ki, sizin çoxunuz uşağınızı qeysəriyyə əməliyyatı ilə dünyaya gətirmisiz. Normal doğuşda uşaq daha sağlam olur, beyninə hava daha tez gedir. Travmalı, zədəli, bir çox hallarda isə beyinaltı təzyiqlə böyüyən uşaqlarda qavrama, yaddaş olduqca zəif olur, qavramaları daha çətin olur. Bəzən onlara bir sözü başa salmaq üçün nə qədər əziyyət çəkirik. Valideynlər elə bilirlər ki, uşaq gəldi məktəbə, hər şey həll olunmalıdır. Onlara elementar şeyləri öyrətmək heç də asan deyil. Bunun üçün məktəbəqədər hazırlıq vacib şərtdir".

### Psixoloqdan rəy: Hazırlıq necə aparılmalıdır?

Uşaq psixoloqu Narınc Rüstəmova isə bildirir ki, dünya sistemində uşaqların məktəbə hazırlığı 3 yaşından etibarən başlanır. İlk öncələr pedaqoji (3-4 yaş) hazırlığı, sonra əlavə olaraq psixoloji (4-5 yaş), sonda isə təlim-təhsilə hazırlıq mərhələsi də (5-6 yaş) əlavə olunur: "Uşaqlarda yalnız pedaqoji hazırlıq (saymağı və şeri bilməsi, sadə riyazi hesablamaları, əlavə dili, hərifləri tanıması ) heç də məktəbə hazırlığı demək deyil. Məktəbə hazırlıq sistemi mütləq pedaqoq, psixoloq, loqoped, həkim tərəfindən kompleks şəkildə aparılmalıdır. Məktəbəqədər yaş dövründə uşaqların ağız aparatının dəyişilməsi, ələlxüsus, dişlərin çıxması uşaqlarda müxtəlif səslərin tələffüzünə manеə törədir. Bu da ünsiyyət zamanı öz təsirini göstərir. Uşağın pedaqoji hazırlığı olsa da, psixoloji hazırlığının tam olmaması, məsələn, şeri gözəl bilib hətta evdə ailə üzvlərinə danışıb müəllimə söyləyə bilməməsi bu səbəbdən yaranmış problemdir. Həkimlə birlikdə öncədən tənzimlənən yuxu və qida rejimi də uşaqların məktəbə tez adaptasiya olmasına yardımçı olur. Valideyn uşağının gigiyenik sağlamlığına önəm verdiyi qədər psixoloji sağlamlığına da diqqət etməlidir. Müəssisənin yemək şəraitinə, yataq otağına, təmizliyə önəm verdiyi qədər mütəxəssislərin də peşəkarlığına önəm verməlidir".

Azərbaycanda məktəbəqədər hazırlıq bilavasitə məktəbəqədər təhsil müəssisələri ilə yanaşı, məktəblərdə də təşkil olunacaq. Bunu da Təhsil Nazirliyinin məktəbəqədər və ümumi təhsil şöbəsinin müdiri Aydın Əhmədov "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planına həsr olunan mətbuat konfransında çıxışı zamanı deyib ki, bu istiqamətdə də işlər görüləcək.

Onun sözlərinə görə, məktəbə hazırlıq çox vacib məsələdir və Dövlət Strategiyasında da bu məsələ nəzərdə tutulub. A.Əhmədov qeyd edib ki, bir qayda olaraq uşaqların məktəbə hazırlığı məktəbəqədər təhsil müəssisələrində həyata keçirilir: "Ancaq nəzərdə tutulur ki, məktəbəqədər hazırlıq məktəbəqədər hazırlıq müəssisələri ilə yanaşı, məktəblərin özlərində də təşkil olunsun. Bu, uşaqların məktəbəhazırlıqla əhatə olunmasına daha məhsuldar şərait yarada bilər. Bu ildən Bakının seçilmiş 89 pilot məktəbində məktəbə hazırlıq qrupları yaradılıb. Bunların tədris planı, təhsil proqramları hazırlanıb və təsdiq olunub. Gələcəkdə təbii ki, bu şəbəkənin daha da genişləndirilməsi nəzərdə tutulur. Amma eyni zamanda bir cəhəti də nəzərə almaq lazımdır ki, hər hansı məsələnin tam həllinə keçməzdən əvvəl mövcud şərait təhlil olunmalıdır. Belə ki, əhalinin ehtiyacı, xüsusilə kənd yerlərində, müəyyən yaşayış məntəqələrində məktəb yaşlı uşaqların sayı, müəssisələrin infrastrukturu nəzərə alınmaqla məsələni həll etmək lazımdır. Sözsüz ki, biz buna başlamışıqsa, hazırda mövcud olan məktəbəqədər təhsil müəssisələrin heç də hamısında məktəbəqədər hazırlıq qrupları yoxdur. Bu, müəyyən şəraitlə əlaqədardır. Ancaq bunu məktəblərdə təşkil etmək yaxşıdır. Nəzərə alsaq ki, ölkə ərazisinin bir çox hissələrində, yaşayış məntəqələrində məktəbəqədər hazırlıq müəssisəsi yoxdur, onda bu işin nə qədər çətin olduğu məlum olur".

### Özəl kursların qiyməti "ceyran belindən" düşmək istəmir

Xatırladaq ki, Bakının orta məktəblərində hazırlıq kursları fəaliyyət göstərir. Aylıq ödənişi 40 AZN-dir. Həftədə 3 dəfə olmaq üzrə keçirilən dərslər 3 saat davam edir. Amma bununla yanaşı, özəl "Zəfər" kurslarından başlayaq. Burada məktəbəqədər hazırlıq 4-5-6 yaş uşaqlar üçün nəzərdə tutulub. Kursda ana dili tədrisi, yazı, ingilis və ya rus dili, məntiqi təfəkkürün inkişafı, nitq inkişafı, sadə riyazi təsəvvürlərin inkişafı, ətraf aləmlə tanışlıq, intellektual oyunların tədrisi nəzərdə tutulur.



Hazırlıq kursunda dərslər həftədə 3 dəfə keçirilir. Qrup halında olan məşğələlər üçün aylıq ödəniş 80 AZN, fərdi hazırlıq isə 100 AZN-dir.

"Hədəf" kursunda isə məktəbəqədər hazırlıq zamanı ümumi dünyagörüşünün səviyyəsinin artırılması, nitqin inkişafı, hərflərin və rəqəmlərin öyrədilməsi, diqqətin və yaddaşın formalaşdırılması, müqayisə və analogiyanın məntiqi təfəkkürünün formalaşdırılması, əl motorikasının inkişafının formalaşdırılması, ingilis dili ilə ilkin tanışlıq, ekskursiyaların təşkili, bayram və şənliklərin keçirilməsi, dərs vəsaitlərinin pulsuz təmini nəzərdə tutulub. Kursdan bildirdilər ki, dərsləri peşəkar müəllimlər aparırlar. Mütəxəssislər tərəfindən hazırlanmış dərs proqramı həftədə 2 dəfə olmaqla 2 saat keçirilir.

"Hədəf"in məktəbəqədər hazırlıq kursu həftədə iki dəfə keçirilir. Qrup halında məşğələnin aylıq ödənişi 60 AZN-dir. Kursdan bildirdilər ki, uşaqlar məktəbə qəbul imtahanlarına uyğun qaydada, həmin metodika ilə hazırlanır və ümumi kursda da maksimum 10 nəfər olur. Bu isə dərsin keyfiyyət əmsalına təsir edir.

"Üç alma" adlı hazırlıq kursunda isə 3 dəfəlik məşğələ üçün ayda 75 AZN tələb olunur. Valideynlər deyir ki, kurslarda ümumən uşaqda məktəb xofu, qorxusunu aradan götürməyi öyrədirlər. Hazırlığa getməzdən əvvəl hardasa 50 manatlıq kitab aldırırlar.

Bu arada dövlət bağçalarında da məktəbəqədər hazırlıq kursları mövcuddur. Bağça müəllimələri məlum dərs vəsaitlərinin hesabına, amma ödənişsiz qaydada uşaqları məktəbə hazırlayır. Müşahidələrimiz göstərir ki, oradakı dərsin keyfiyyəti kurslardakından xeyli aşağıdır. Amma bununla belə, valideynlər öz nəzarətlərini də əlavə etməklə, bağça hazırlığının da müəyyən mənada yetərli olduğunu düşünür.

### Kursa get, imtahansız məktəbə qəbul ol...

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən bildirilib ki, təhsil nazirinin əmrinə əsasən 16 sentyabr - 31 dekabr müddətində 6 yaşı tamam olan xüsusi istedadlı uşaqların Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumtəhsil məktəblərinə vaxtından əvvəl birinci sinfə qəbulu müsabiqə üsulu ilə aparılır.

2014-2015-ci tədris ilində Bakı şəhərinin 89 ümumtəhsil məktəbində fəaliyyət göstərən məktəbəqədər hazırlıq qruplarında təhsil almış, 16 sentyabr - 31 dekabr müddətində 6 yaşı tamam olan uşaqlara rəsmi sənəd-arayış veriləcək və onlar müsahibə götürülmədən I sinfə qəbul ediləcəklər.

Qeyd edək ki, bu gün Bakının 89 məktəbində məktəbəqədər hazırlıq qrupları fəaliyyət göstərir. 2015-ci il dekabr ayının 31-dək 6 yaşı tamam olan uşaqların təhsil ala bildiyi məktəbəqədər hazırlıq qrupları ödənişli əsaslarla aparılır və sonda hazırlıq qrupunu bitirən uşağa rəsmi sənəd - arayış veriləcək. Bu hazırlıq qruplarını keçən və sentyabrın 16-dan dekabrın 31-dək 6 yaşı tamam olan xüsusi istedadlı uşaqların artıq məktəbə qəbul olması üçün müsahibədən keçməsinə ehtiyac olmayacaq. Yəni həmin uşaqlar hazırlıq qruplarında iştirak etdikləri üçün müsahibəsiz məktəbə qəbul olunacaqlar.

Xatırladaq ki, qeydiyyat valideynin (digər qanuni nümayəndənin) özü tərəfindən onlayn və ya istəyi əsasında hər bir məktəbdə yaradılacaq elektron sənəd qəbulu komissiyasında, ya da Bakı şəhərinin hər inzibati rayonunda fəaliyyət göstərəcək alternativ sənəd qəbulu komissiyası tərəfindən aparılır. Müsabiqənin nəticələrinə görə, həmin lisey və gimnaziyalara qəbul edilməyən uşaqların valideynləri (digər qanuni nümayəndələri) elektron sistemdə yenidən ümumtəhsil məktəbi seçmək hüququna malikdirlər.

Təhsil Nazirliyi 2015/2016-cı tədris ilindən etibarən ilk olaraq Bakı şəhərində fəaliyyət göstərən ümumtəhsil məktəblərinin, lisey və gimnaziyaların I siniflərinə uşaqların qəbulunda optimal və səmərəli icra mexanizmi yaratmaq məqsədilə həmin prosesin elektron sistem vasitəsilə həyata keçirilməsini qərara alıb.

❑ **Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

Son səhifə

*N 123 (6151) 8 iyun 2015*




## Gilasın faydaları

Gilas orqanizm üçün olduqca faydalı meyvədir. Gilas gözəl rəngini içərisindəki bioflavonoid antosiyaninlərdən alır. Bu maddələr yaşlanmağı yavaşladan və həzm sistemini ən yüksək səviyyəyə daşıyan antioksidantdır. Gilasın təsiri və faydası rəngi ilə düz mütənasibdir. Gilasın rəngi tündləşdikcə ehtiva etdiyi vitamin miqdarı da artır. Gilas yuxusuzluğun qarşısını alır və sinirləri boşaldır. İştahanı açır, həzm sistemini gücləndirir, yağları yandırmağa kömək edir. Əzələlərdəki fiziki yorğunluqdan əmələ gələn ağrıları və yorğunluğu azaldır. Damar sərtliyini azaldır, görmə qabiliyyətini artırır. Revmatizm və oynaq ağrılarına xeyir edir və ayrıca qaraciyəri təmizləmə xüsusiyyətinə malikdir. Gilasın sapları belə sağlığımıza faydalıdır. Maddələr mübadiləsi zəif olanlar və həzmsizlik problemi yaşayanlar gilasın saplarından istifadə edə bilər. Yediyiniz gilasın saplarını yuyub qurudub ilıq su içərisində qaynadıb içə bilərsiniz.



## Fala baxan robot

Yaponiyada fəaliyyət göstərən "NTT Docomo" firması insan kimi söhbət edən robotu ictimaiyyətə tanıdıb. "Ohanas" adlı robot insan kimi gündəlik söhbətlər edə bilir. Musiqi dinləyir, fala baxa bilir, hava durumu və yemək haqqında tövsiyələr verə bilir. Mobil telefonlardan, planşetlərdən və kompüterlərdən istifadə edə bilən "Ohanas" davamlı proqramını yeniləyə bildiyi üçün bütün söhbətlərə cavab verə bilir.

# Qoxu ilə ölüm arasındakı əlaqə



Amerikanın Kolumbiya Universitetinin alimləri 65 yaşlı 1169 nəfərə təxminən 40 maddə qoxuladıblar. Daha sonra iştirakçılardan qoxuladıqları şeylərin nə olduğunu qeyd etmələri istənilib. Təcrübədə iştirak edən şəxslərin səhhətləri və həyat tərzləri haqqında araşdırma aparılıb. Qoxuları seçə bilməyən 349 nəfərin bir xəstəlikdən, ya da qəza nəticəsində 4 il ərzində öldüyü təsbit edilib.

Araşdırmaya imza atan professor Davangere Devanand ölüm riskinin qoxu hissini azaltdığını deyib. Alimlər qoxu hissinin azalmasının diaqnoz qoyulmamış ağır bir xəstəliyin xəbərçisi ola biləcəyini də deyirlər. Qoxu alma qabiliyyəti azalan şəxslər xarab olmuş yeməklərdən, qazdan boğulmadan və yanğından ölə bilərlər. Araşdırmanın nəticələri "Annals of Neurology" jurnalında yayımlanıb.

# Beyniniz haqqında 13 maraqlı fakt

İnsan beyninin ağırlığı təxminən 1.5 kiloqramdır.
Bir insanın beynindən gündə ortalama 70 min düşüncə keçir.
Lazım olan enerjini təmin etmək üçün beyinə dəqiqədə 3 kola qutusu qədər qan gəlir.
Bir çox orqan yetkinlik dövrü bitdiyində son halını alır. Ancaq beynimiz, 40 yaşına gələnə qədər inkişafa davam edir.
İnsan beynində ağrı hissi təmin edən alıcılar yoxdur. Bu səbəblə də beyin əməliyyatları xəstə oyaq ola-ola da edilə bilər.
Bədənimizdəki bütün orqanlar kimi beyin də bəslənmədən təsirlənir.
Beynimiz bədənimizdəki ən yağlı orqandır. Yüzdə altmışı yağdan meydana gəlir.
Elm hələ də yuxunu necə gördüyümüzü tam açıqlaya bilmir. Nəzəriyyələr arasında ən məşhuru budur ki, beyin oyanıq ikən əldə etdiyi məlumatları bir yerə yığır.
İnsan ən çox beyin hüceyrəsinə 2 yaşında ikən sahib olur. Daim yenilənmə getsə də heç vaxt bu rəqəmi tuta bilmirik.
Keçmiş dövrlərdə beynin əhəmiyyətsiz bir orqan olduğu düşünülürdü. Mədə və ürəyə çox daha əhəmiyyət verilirdi. Hətta qədim Misirdə insanlar mumiyalayarkən beyinləri burunlarından çəkilərək çıxardılırdı.
Qadınlar hamilə ikən beyinləri büzülərək bir miqdar kiçilir. Körpə doğulduqdan altı ay sonra beyin yenə köhnə böyüklüyünə qovuşur.
İnsanın daha ağıllı olması ilə beyin böyüklüyü arasında bir əlaqə olmadığı tam sübut olunub.
Araşdırmalara görə, beyin bütün həyatımız boyunca 1 kvadrilyon məlumat yığır.





## Beynimiz internetə bağlanacaq

"Google" şirkətinin idarə heyətinin üzvlərindən biri olan Ray Kurzveli insan beyninin 20 il ərzində internetə bağlanacağını açıqlayıblar. Kurzvelinin sözlərinə görə, 2030-cu ilə qədər insanlar "hibrit" bir beyinə sahib olacaqlar. İnkişaf edən texnologiyanın köməyi ilə beynimizə yerləşdiriləcək olan hissələr internetdən daha rahat istifadə etməmizə kömək edəcək. 1990-cı ildən bəri texnologiya sahəsində etdiyi bütün təxminlərlə haqlı olduğunu göstərən Kurzveli, internetə bağlandıqdan sonra beynimizin yaddaşının köçürülə biləcəyini də bildirib.




**QOÇ** - Fəaliyyətdən daha çox qarşılıqlı münasibətlərə vaxt ayırın. Əgər deyilən istiqamətdə boşluq varsa, tələsin. Savab işlər görün. Bu gün sənədləşdirmə və müqavilələrdə mümkün qədər diqqətli olun.

**BUĞA** - Diş və ya baş ağrılarına mübtəla olmamısınızsa, günün ümumi mənzərəsi sizi qane edəcək. Məhəbbət amilinə isə yalnız söz kimi yanaşmayın. Uzaq olmayan ünvanlara qonaq getmək olar.

**ƏKİZLƏR** - Ünsiyyətdə olduğunuz hər kəsin hörmətini qazanmağa çalışın. Kosmik durumun xeyrinizə tənzimlənməsi yarımçıq işlərin həllini sürətləndirməyi tələb edir. Dinə zidd addım atmayın.

**XƏRÇƏNG** - Müqəddəs dinimizin ənənələrinə hörmətlə yanaşın, hamıya mərhəmət göstərin, xüsusən də sıx təmasda olduğunuz insanlara. O ki qaldı maliyyə durumuna, bu barədə narahat olmayacaqsınız.

**ŞİR** - İşgüzar sövdələşmələri başa çatdırmaq, yeni layihələri reallaşdırmaq üçün günün şanslarından istifadə edin. Amma hər bir söhbətdə qarşı tərəfi sonacan dinləyib sonra qərar verin.

**QIZ** - Ötən günlərin gərginliyi nahara qədər davam etsə də, təmkinli olmaqla bu müddəti itkisiz başa vura bilərsiniz. Təcrübəli insanların məsləhətlərinə qulaq asın. Darıxdığınız adamlarla mütləq əlaqə saxlayın.

**TƏRƏZİ** - Daxili səsiniz qətiyyətli olmağı tələb edirsə, yalnız irəli atılın. Əmin olun ki, şanslar özü gəlib sizi tapacaq. Yaşlı doğmalarınızın fikirlərinə də hörmətlə yanaşın ki, mövqeləriniz sarsılmasın.

**ƏQRƏB** - Təxminən saat 13-ə qədər praktiki cəhətdən hər hansı yenilik gözlənilməsə də, sonrakı müddətdə vəziyyətin tam fərqli olacağına inana bilərsiniz. Ürəyinizdəki şübhələri qovun ki, təklənməyəsiniz.

**OXATAN** - Həmkarlarınızla davranışları məcrasından çıxarmasanız, gün ərzində hansısa qanqaraçılığı ilə üzləşməyəcəksiniz. Pulla bağlı narahatçılığınız da qismən səngiyəcək.

**OĞLAQ** - Qızğın iş günü olsa da, fəaliyyətə ara verib tamam fərqli zəmində iş aparmalısınız. Məhəbbət və qohumluq əlaqələrinə də vaxt ayırın. Gün ərzində maraqlı tanışlıqlar da gözlənilir.

**SUTÖKƏN** - Daxili stresslərinizin çoxalması ətrafda olan hər şeyə narazılığınızı artırıb. Amma bunun yaxşı sonu olmadığı üçün bir qədər genişürəkli olun. Ümidinizi insanlara deyil, Allaha bağlayın.

**BALIQLAR** - Ulduzlar ötən günlərdə hamıdan çox yorulduğunuzu bəyan edir. Ona görə də bu günü istirahətə həsr etməyə çalışın. Əyləncə və qonaqlıqlara vaxt ayırın ki, yorğunluğunuz getsin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Min avroluq pendir



Serbiyanın Zasavica Milli Parkında saxlanılan eşşəklər hər kəsin diqqət mərkəzindədir. Parkda saxlanılan 140 ədəd eşşəyin südündən hazırlanan pendiri almaq üçün bir çoxları əlindən gələni edir. 25 litr süddən 1 kilo pendir çıxır və həmin pendirin kilosu 1000 avroya satılır. Eşşək südünün bir litri isə 39 avroya satılır.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.300